# Xalq qəzeti

Xalqın qəzeti!

№ 84 (31053) 14 may 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan–Slovakiya strateji tərəfdaşlığı davamlı siyasi əlaqələrlə möhkəmləndirilir

## Prezident İlham Əliyev Slovakiya Milli Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev ötən il Slovakiyaya rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri, o cümlədən Rixard Raşi ilə görüşünü məmnunluqla xatırladı.

Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxundu.

Prezident İlham Əliyev Rixard Raşinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməsinin önəmini qeyd edərək bildirdi ki, bu, tərəfdaşlığımızın daha bir göstəricisidir.

Qəbula görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edən qonaq dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini dedi.

Rixard Raşi Azərbaycan Prezidentinə Slovakiyaya ilk rəsmi səfər etdiyinə görə minnətdarlığını bildirdi.

Dəfələrlə ölkəmizə səfər etdiyini məmnunluqla xatırlayan qonaq 2022-ci ildə Azərbaycana səfəri çərçivəsində Şuşada olduğunu dedi. O bildirdi ki, bu səfəri əsnasında da Qarabağa gedəcək, orada aparılan bərpa-quruculuq işləri, həmçinin Xankəndidə Qarabağ Universitetinin fəaliyyəti ilə tanış olacaq.

Rixard Raşi Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülhün gücləndirilməsi üçün ölkəmiz tərəfindən görülən tədbirlərdən danışdı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da daxil olmaqla ölkələrimiz arasında ticarət münasibətlərinin yaradıldığını dedi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu vurğulanaraq, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi.

Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında iştirakına toxunularaq, bunun Azərbaycan-Slovakiya dostluğunun göstəricisi olduğu vurğulandı.

Görüşdə beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əməkdaşlıq müzakirə olundu, iqtisadi-ticari, enerji, müdafiə sənayesi, təhsil, humanitar, müasir texnologiyalar, mədəniyyət, idman, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Tezliklə Bakı ilə Bratislava arasında birbaşa uçuşların həyata keçiriləcəyi bildirilərək, bunun turizm və insanlararası təmasların genişlənməsinə töhfə verəcəyi qeyd olundu.

*AZƏRTAC*

## NATO-nun yeni enerji doktrinası

*ABŞ–NATO strateji uyğunlaşması sual altındadır*



**Qlobal sistemdə ABŞ ilə NATO arasında uzun illər mövcud olan strateji harmoniya getdikcə pozulmaqdadır. Əvvəllər əsasən təhlükəsizlik öhdəlikləri, hərbi xərclərin bölüşdürülməsi və müdafiə strategiyalarında özünü göstərən fikir ayrılıqları artıq iqtisadi və enerjiyönümlü məsələlərdə də müşahidə olunur. Ən diqqətçəkən məqam isə odur ki, mövcud fərqlər artıq alyansın daxili strateji istiqamətlərini belə formalaşdırmağa başlayır.**

Son illər NATO enerji asılılığı, təchizat zəncirlərinin dayanıqlılığı və iqlim dəyişikliklərinin yaratdığı risklərlə də bağlı yeni yanaşmalar formalaşdırmağa çalışır. Bu çərçivədə bərpaolunan enerji və digər qeyri-fosil enerji mənbələri birbaşa təhlükəsizlik aləti kimi təqdim olunur. Məhz bu yanaşma NATO daxilində yeni strateji xəttin formalaşmasına səbəb olur. Həmin istiqamətdə NATO Enerji Təhlükəsizliyi Mərkəzi tərəfindən hazırlanan analitik tədqiqatlar diqqəti çəkir. Araşdırmalarda vurğulanır ki, idxal olunan neft və qazdan asılılıq alyans üçün strateji zəiflik yaradır və bu risk yalnız alternativ enerji mənbələrinin genişləndirilməsi ilə azaldıla bilər.

*(ardı 3-cü səhifədə)*

## Tələsmə, cənab Simonyan!

*Yaxud Türkiyə-Ermənistan sərhədinin açılma(ma)sı barədə*



**Ermənistan parlamentinin sədri Alen Simonyan ötən həftə "V Trende" proqramı çərçivəsində tanınmış jurnalist Konstantin Eggertə geniş müsahibəsində bir çox vacib məqamlara toxundu. Bəri başdan deyək ki, erməni spikerin yanaşması, kifayət qədər açıq tərzdə səsləndirdiyi fikirlər müsbət qarşılanmalıdır. Məsələn, o, Qarabağ hərəkatını, o cümlədən Ermənistanın qonşularına qarşı ərazi iddialarını "cəfəngiyyat" adlandırdı. Simonyan ölkəsinin Türkiyə ilə normallaşma xəttindən də söz açdı. Onun məsələyə münasibətində isə yumşaq desək, nöqsan payı var.**

*(ardı 4-cü səhifədə)*

## Cəbrayıl və Zəngilanın beynəlxalq tranzit potensialı

Səhifə ⇨ 8

## Kreml miqrasiya qanununu sərtləşdirir



Səhifə ⇨ 5

## Harri Kasparov və kölə təfəkkürlü sərsəm



Səhifə ⇨ 5

## Süni intellektə müəlliflik hüququ verilə bilərmi?

Səhifə ⇨ 15

## Sülhün Azərbaycan ünvanı: Cənubi Qafqaz və barış naminə əzm



Səhifə ⇨ 3

## Ermənistanın geosiyasi asılılığı və Fransanın regional oyunbazlığı

*Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi tezislər Cənubi Qafqazda formalaşan yeni güc balansına, postmünaqişə mərhələsində dövlət davranışlarına və xarici müdaxilə modellərinə yönəlmiş strateji mesaj idi*



**Müasir Ermənistan siyasi tarixinin əsas xüsusiyyətlərindən biri təhlükəsizlik və xarici siyasət strategiyasının kənar güclərin himayəsinə əsaslanması olub. Bu tendensiya zaman keçdikcə, Ermənistanın siyasi düşüncə modelinə çevrilmiş struktur davranış formasıdır. SSRİ-nin dağılmasından sonra Ermənistan regional reallıqları nəzərə alaraq təhlükəsizlik sistemini tam şəkildə Rusiyanın hərbi-siyasi çətiri altında qurdu.**

*(ardı 3-cü səhifədə)*

## Moskva "valı" niyə dəyişir?



Səhifə ⇨ 4

## Səlibçi təfəkkürün çağdaş qəlibi



Səhifə ⇨ 6

## Şəhərlərin davamlı su təchizatında süni intellektin rolu



Səhifə ⇨ 9

## Şərqi Avropa ABŞ üçün "bufer"ə çevrilir



Səhifə ⇨ 15

# “Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 144 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 144 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 908 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

“Nümayəndə heyətlərinin səfərləri barədə məlumatların və hesabatların təqdim edilməsi haqqında”;

1.2. preambulada “Yüksək səviyyəli nümayəndə” sözləri “Nümayəndə” sözü ilə əvəz edilsin;

1.3. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikasının Baş naziri, Baş nazirinin müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin nazirliklərinin və ya eyni statuslu dövlət orqanları rəhbərlərinin müavinləri və ya daha yüksək vəzifəli şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycan Respublikasına, habelə rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin eyni statuslu vəzifəli şəxsləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin Azərbaycan Respublikasına edəcəyi səfərlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılır, səfərlərin nəticələrinə dair hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.”;

1.4. 2-ci hissədə “hesabat nümayəndə heyətinə rəhbərlik edən şəxs” sözləri “məlumat və hesabat səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri” sözləri ilə əvəz edilsin;

1.5. 3-cü hissədə “hesabat səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs” sözləri “məlumat və hesabat səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri” sözləri ilə əvəz edilsin;

1.6. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Səfərin proqramı (səfər üzrə hər bir tədbirin adı, məzmunu, iştirakçıları, yeri, tarixi) və əhəmiyyəti, tədbirdə əyani iştirakın zəruriliyi, ezamiyyə xərcləri və digər xərclər, maliyyələşmə mənbəyi, səfərdən gözlənilən nəticələr (effektivliyə dair proqnoz), nümayəndə heyətinin rəhbəri, digər üzvləri və onların iştirakının zəruriliyi barədə məlumat səfərin başlanmasına ən geci on beş iş günü qalmış təqdim edilir. Məlumatı bu müddət ərzində üzrlü səbəblərə görə təqdim etmək mümkün olmadıqda, həmin məlumat üzrlü səbəblər əsaslandırılmaqla daha qısa müddətdə təqdim edilir.”;

1.7. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

“4-1. Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətinin tərkibinə iki və daha artıq dövlət orqanının (qurumunun) nümayəndələri daxil olduqda, bu Fərmanın 4-cü hissəsinin birinci cümləsində nəzərdə tutulan məlumatlar və nümayəndə heyətinin rəhbərinə dair təklif həmin dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla təqdim edilir.”;

1.8. 5-ci hissədə “səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs” sözləri “səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri” sözləri ilə əvəz edilsin;

1.9. 6-cı hissədə “gün” sözü “iş günü” sözləri ilə, “edilməlidir” sözü “edilir” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 13 may 2026-cı il**

# Azərbaycan və Slovakiya parlamentlərinin Anlaşma Memorandumu

**Mayın 13-də ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**



Qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova qarşılayıb.

Slovakiya Milli Şurasının sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Slovakiya Milli Şurasının sədri Rixard Raşi buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib. Milli Məclisin sədri özünün Slovakiyaya rəsmi səfərini xatırladaraq, həmin səfər zamanı keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. O, Slovakiya Milli Şurası sədrinin bu vəzifədə Azərbaycana ilk səfəri olduğunu deyib. Bu səfərin parlamentlərarası münasibətlərimizin davamlı şəkildə inkişaf etdiyinin göstəricisi olduğunu diqqətə çatdırıb. Milli Məclisin Sədri qonağa Azərbaycan parlamentinin tarixi, indiki strukturu və fəaliyyəti barədə məlumat verib.

Slovakiya Milli Şurasının sədri Rixard Raşi ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü barədə təəssüratlarını bölüşüb. O, dövlətimizin başçısının 2025-ci ilin dekabrında Slovakiyaya səfərinin Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəri kimi mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı Rixard Raşi parlamentlərarası əlaqələrin vacibliyini vurğulayaraq, bu baxımdan mütəmadi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb, Slovakiya parlamentinin strukturu barədə məlumat verib.

Slovakiya Milli Şurasının sədri gələn həftə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) vacibliyinə də toxunaraq, bu tədbirin əhəmiyyətini qeyd edib.

Söhbət zamanı Avropa Parlamentinin parlament diplomatiyasına və konstruktiv dialoqa uyğun gəlməyən fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Respublikasının Milli Məclisi ilə Slovakiya Respublikası Milli Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Sahibə Qafarova və Rixard Raşi imzalayıblar.

***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Azərbaycan Prokurorluğunun sorğusu əsasında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsi baxımından İnzibati Xətalar Məcəlləsinin 53.1.7 və 139-cu maddələrinin Cinayət-Prosessual Məcəlləsinin 141.1.3 və 142-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Tutayukun məruzəsini, maraqlı subyektlər Prokurorluğun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi, hüquq üzrə fəlsəfə doktoru G.Cəbinin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki qərarlarında və bu Qərarında formalaşdırdığı hüquqi mövqelərə əsasən inzibati xəta haqqında iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının preyudisiallığı, barəsində qərar çıxarılan şəxslərin dairəsi ilə məhdudlaşır.

Konstitusiyanın 71-ci maddəsinin X hissəsinin və İnzibati Xətalar Məcəlləsinin 18.6 və 18.7-ci maddələrinin tələbləri:

- Səlahiyyətli orqanlar tərəfindən vəzifəli şəxs barəsində inzibati xəta haqqında iş üzrə qərar qəbul edildikdən sonra eyni inzibati xəta hadisəsi ilə bağlı hüquqi şəxs barəsində inzibati xəta haqqında protokol (inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar) tərtib edilərək baxılması üçün məhkəməyə göndərilməsini;
- Eyni inzibati xəta hadisəsi ilə bağlı inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarlar tərtib edilərək həm məhkəməyə (hüquqi şəxs barəsində), həm də səlahiyyətli orqana (vəzifəli şəxs barəsində) göndərilməsini istisna edir.

İnzibati Xətalar Məcəlləsinin 18.3, 18.6 və 18.7-ci maddələrinin mənasına görə, eyni inzibati xəta hadisəsi ilə bağlı hüquqi şəxslə yanaşı, onun xeyrinə və ya onun maraqlarının qorunması üçün hərəkət və ya hərəkətsizlik edən vəzifəli şəxsin də əməllərində inzibati xəta tərkibinin olmasına kifayət qədər əsaslar mövcud olduqda, hər iki subyekt barəsində eyni vaxtda inzibati xəta haqqında protokollar (inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarlar) tərtib edilərək baxılması üçün məhkəməyə göndərilə bilər.

Belə hallarda inzibati xəta haqqında işin tam və obyektiv araşdırılmasının təmin edilməsi, prosessual qənaət prinsipinin gözlənilməsi və ziddiyyətli qərarların qarşısının alınması məqsədi ilə hüquqi və vəzifəli şəxsin inzibati məsuliyyətinə dair məsələlərə məhkəmələrdə bir icraat daxilində baxılmalıdır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Azərbaycan Daşkənd neft-qaz sərgisində



**Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf Daşkənd şəhərində keçirilən “Özbəkistanın nefti və qazı (OGU-2026)” 28-ci beynəlxalq sərgi-konfransında iştirak edib.**

Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev Rövşən Nəcəfi, bp şirkətinin baş vitse-prezidenti Ariel Floresi, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofolini qəbul edib.

Rövşən Nəcəf Prezident Şavkat Mirziyoyevə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını çatdırıb. Prezident Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Rövşən Nəcəf bp şirkətinin baş vitse-prezidenti Ariel Flores və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofoli ilə birgə Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov və “Uzbekneftegaz” ASC İdarə Heyətinin sədri Abdugani Sanginov ilə üçtərəfli görüşlər keçirib.

Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən müəyyənləşdirilən uzaqgörən siyasətə uyğun olaraq, “Üstyurt” layihəsinin uğurla həyata keçirildiyi qeyd olunub. Müzakirələr zamanı “Üstyurt” investisiya blokları üzrə kəşfiyyat, işlənmə və hasilat fəaliyyətlərinin icrasına, tərəflər arasında əməkdaşlığın genişləndirilməsinə dair məsələlər barədə fikir mübadiləsi aparılıb. Sonra bp şirkətinin “Üstyurt” investisiya bloklarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Pay Bölgüsü Sazişinə qoşulmasına dair sənədlər imzalanıb.

Rövşən Nəcəfin “MOL Group” şirkətinin icraçı vitse-prezidenti Zsombor Marton ilə görüşündə şirkətlər arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub.

Soydaşımız OGU-2026 sərgisi ilə də tanış olub. ARDNŞ sərgidə öz pavilyonu ilə təmsil olunur. Şirkətin pavilyonu OGU2026 beynəlxalq sərgisində “Ən Yaxşı Milli Stend Dizaynı” nominasiyası üzrə mükafata layiq görülüb.

***XQ***

# Slovakiyalı qonaqlar Ulu öndərin məzarını ziyarət ediblər






**Ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyəti mayın 13-də Fəxri xiyabanı ziyarət edib.**

Nümayəndə heyəti xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər güllər düzüb.

Nümayəndə heyəti həmin gün Zəfər parkını da ziyarət edib. Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Milli Şurasının sədri Zəfər abidəsinin önünə əklil qoyub.

***XQ***

# Azərbaycan–İran diplomatik məsləhətləşməsi

**Mayın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.**




Telefon danışığı zamanı Azərbaycan-İran ikitərəfli əlaqələri, regionda mövcud vəziyyət və bu çərçivədə danışıqlar prosesinin gedişatı, İran ətrafında vəziyyətin diplomatik və siyasi həll perspektivləri ətrafında müzakirə aparılıb.

Abbas Əraqçi danışıqlar prosesi barədə ətraflı məlumat verib.

Ceyhun Bayramov münaqişənin sülh və danışıqlar yolu ilə həlli istiqamətində səyləri dəstəklədiyimizi diqqətə çatdırıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Energetika nazirinin vətəndaş qəbulu



**Energetika naziri Pərviz Şahbazovun iştirakı ilə nazirlikdə növbəti dəfə vətəndaşlarla görüş olub.**

Görüş zamanı elektrik enerjisi və qaz təchizatı, qaz sayğaclarının dəyişdirilməsi ilə bağlı müraciətlər dinlənilib, vətəndaşları narahat edən məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Bolqarıstandakı səfirimiz etimadnaməsini təqdim edib

**Azərbaycanın Bolqarıstandakı səfiri Elmar Məmmədov etimadnaməsini bu ölkənin Prezidenti İliana Yotovaya təqdim edib.**



Etimadnamənin təqdimetmə mərasimində Elmar Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Bolqarıstan Prezidentinə çatdırıb. Prezident İliana Yotova iki ölkə arasında əməkdaşlığın uğurlu inkişafını yüksək qiymətləndirib.

Tərəflər 2015-ci ildə Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında qurulan strateji tərəfdaşlığı bir daha təsdiqləyib və ikitərəfli gündəliyin müxtəlif sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar.

***XQ***

# Sülhün Azərbaycan ünvanı: Cənubi Qafqaz və barış naminə əzm

## *Siyasi varisliyin Zəfəri, məhv olmuş 200 illik plan və regionda növbəti durum*

**"Bu gün ulu öndər Heydər Əliyevin doğum günüdür və bizim görüşümüzün məhz bu gündə keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Ulu öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik". Bu fikirləri Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə səsləndirib.**



Bəli, ümummilli lider Heydər Əliyevin xalqa həsr olunmuş mənalı ömründə Qarabağ davası həmişə ön planda dayanmışdı. Bu dahi şəxsiyyət respublikamıza rəhbərlik etdiyi ilk dönəmdə də erməni millətçilərinin Qarabağ avantürasının gerçəkləşməsinə imkan verməmiş, bölgənin Azərbaycana məxsusluğunu vurğulayan çoxşaxəli fəaliyyət gerçəkləşdirmiş, müstəqil Azərbaycanın Prezidenti kimi isə müxtəlif beynəlxalq platformalarda Qarabağ həqiqətlərini təbliğ etmiş, işğal amilini dünya ictimaiyyətinin diqqətinə çatdırmış, habelə, ölkəmizin ictimai rəyinə təcavüzlə barışmamaq mesajları vermiş, ən əsası isə haqqın Zəfər çalacağına dərin inam hissi formalaşdırmışdı.

Yeri gəlmişkən, erməni millətçilərinin Qarabağ avantürası Azərbaycanın Heydər Əliyevsizlik dövründə başlamış, separatizmin tərəfdarları bu dahi şəxsiyyətin SSRİ-nin hakimiyyət olimpindən uzaqlaşdırılmasından dərhal sonra özlərinin məkrli siyasətlərinin icrasına start vermişdilər. Bu siyasət nəticəsində isə yekunda torpaqlarımız işğala məruz qalmış, 1 milyona yaxın vətəndaşımız məcburi köçkün düşmüşdür...

"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!". Ulu öndər Heydər Əliyev bütün fikirləri kimi, bu fikri də böyük dahilik və uzaqgörənliklə səsləndirmişdi. Tam əminliklə deyə bilərik ki, ölkəmizə və xalqımıza Qarabağ Zəfərini Heydər Əliyev kursu, Prezident İlham Əliyevin bu siyasəti yüksək dəqiqlik və böyük səriştə ilə davam etdirməsi və zənginləşdirməsi qazandırdı.

Zəfərimiz Heydər Əliyev şəxsiyyətinin siyasi səhnədəki məğlubedilməzliyinin ən parlaq nümunəsinə çevrildi. Həm də ona görə ki, məhz Qarabağ Zəfəri 200 illik erməni planının pozulması reallığını doğurdu. O plan ki, eyni zamanda, Azərbaycanın müstəqil dövlət kimi əbədiliyini əngəlləmək, ölkəmizi yenidən əsarət burulğanına qaytarmaq, neoimperializmi fərqli şəkildə reallaşdırmaq məqsədi daşıyırdı. Nəzərə alaq ki, neoimperializmin qulları Ermənistanı kölə halında saxladılar və ölkə, eləcə də bütövlükdə erməni cəmiyyəti hələ də keçmişin qalıqlarından qurtula bilmir. Orada keçmişin tör-töküntüləri yenə ağızlarını köpükləndirib səfeh, ucuz populizm dolu bəyanatlar səsləndirməkdədirlər.

"Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. …Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq".

Bu fikirləri Prezident İlham Əliyev 2020-ci il noyabrın 16-da işğaldan azad olunmuş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı bildirmişdi. Dövlətimizin başçısı həmin il noyabrın 24-də Ağdam məscidinin qarşısında çıxışı zamanı isə belə demişdi: "Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. …Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını belə soxa bilmədilər".

Hazırda parlament seçkilərinə hazırlıq dövrünü yaşayan Ermənistanda ölkənin üçüncü prezidenti Serj Sarkisyanın səsi bir o qədər çıxmasa da, ikinci prezident, Xocalı qatili Robert Koçaryanın ortaya düşdüyünü görürük. Eləcə də onlar kimi, Rusiyanın bəzi dairələrinin buyruq qulları diqqətimizdən yayınmır.

Bəli, Ermənistandakı siyasi kölələr sərsəm bəyanatları sıralayıb erməni xalqında Azərbaycana qarşı nifrət körükləmək, əslində isə haqqında söz açdığımız 200 illik məkrli planı yenidən işə salmağa səy göstərirlər. Axı bu manqurtlar Şimaldan direktivlər alıblar. Şübhəsiz, içərilərində bilavasitə Qərbin dirijor çubuğu ilə hərəkətə gətirilənlər də var.

Ermənistandakı revanşist və şovinist kəsim məhz tarixin zibilliyindəki planı dirçəltmək üçün aciz cəhdlər göstərir. Prezident İlham Əliyev mayın 10-da Zəngilan sakinləri ilə görüşündə belələrinə də mesaj ünvanladı. Əslində, dövlətimizin başçısının mesajı erməni xalqına sülhə qarşı çıxan kal təfəkkür sahiblərinin yenidən siyasi səhnəyə qayıtmalarına imkan verməməklə bağlı çağırış mahiyyəti daşıdı: "Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Tam əminliklə onu da demək olar ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi kursa sadiq, Prezident İlham Əliyevin qlobal idarəçilik fəlsəfəsinin təntənəsinə çevrilmiş bu günün Azərbaycanı tarixi ədalətin sülh trayektoriyasını müəyyənləşdirən dünyanın hesablaşdığı regional aktordur. Bu aktorluq missiyası, eyni zamanda, barış üçün müstəsna təminatdır. Bu təminat isə özündə, təzahür formalarından asılı olmayaraq, bütün anti-sülh meyillərini sıradan çıxarmaq immunitetini yaşadır.

Yəni Azərbaycanın gücü və qətiyyəti sayəsində siyasi səhnədən silinmişlər yenidən o səhnəyə qayıtmamalı, 200 illik hay planını işlək hala gətirmək üçün fürsət tapmamalı, regionun rifah və inkişafına maneçilik törətməklə varlıqlarını sürdürməməlidirlər. Xaricdə kimlərinsə Ermənistandan "sülh qaranquşu" düzəltmələrinə də ehtiyac yoxdur. Çünki regionda sülhün Azərbaycan adlı nəinki böyük, hətta nəhəng ünvanı var. O ünvan ki, barış mühitini ədalət qılıncının gücü və yenilməz ruhu ilə yaradıb.

Sonda onu da deyək ki, bir hadisə və prosesin mütləq mənada vətəndaşlıq hüququ qazanması üçün müəyyən zaman kəsiyinə ehtiyac var. Hesab edirik ki, Heydər Əliyevin qurucusu olduğu Azərbaycanın müstəqillik illərində tutduğu mövqe, Prezident İlham Əliyevin Ulu öndərin kursunu müdrikliklə davam etdirərək apardığı çoxşaxəli siyasət, həmçinin bu siyasət nəticəsində əldə edilmiş müqəddəs Zəfər bütövlükdə Cənubi Qafqaz coğrafiyasının axarını dəyişib. İndi regionun önündə inkişaf mərhələsi açılıb. Nəsillərə miras qalacaq əbədi inkişaf və tərəqqi mərhələsi.

Elə bir mərhələ ki, təkcə Azərbaycanın və Azərbaycan xalqının deyil, bütövlükdə mövcud coğrafiyada yaşayan xalqların hər birinin həyatında tamamilə yeni səhifə deməkdir. Elə bir səhifə ki, onda imperializm təmayüllərinə yer yoxdur. Zaman bu coğrafiyada yaşayan xalqların hər birinin öz talelərini özlərinin müəyyənləşdirməli olduqları zamandır. Zaman həm də parlaq gələcək uğrunda əzm və iradə nümayişi zamanıdır. Cənubi Qafqazda əbədi sülh şansı kimlərinsə imperiya xislətinin girovuna çevrilməməli, əldən verilməməlidir.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ermənistanın geosiyasi asılılığı və Fransanın regional oyunbazlığı

*(əvvəli 1-ci səhifədə)*

Gümrüdə yerləşən Rusiya hərbi bazası, sərhədlərin rus sərhədçiləri tərəfindən qorunması, KTMT çərçivəsində kollektiv müdafiə mexanizmlərinə inteqrasiya və enerji sektorunun Moskvanın nəzarətinə keçməsi Ermənistanın klassik təhlükəsizlik protektoratı modelinə daxil olduğunu göstərirdi. Əslində, Ermənistanın əsas problemi təhlükəsizlik tərəfdaşına malik olması deyil, dövlət idarəçiliyinin həmin xarici dayaqlardan asılı psixologiya üzərində qurulması idi. Prosesin ən təhlükəli nəticələrindən biri siyasi elitanın "təhlükəsizlik məsuliyyətinin ötürülməsi" sindromuna uyğunlaşması oldu. Başqa sözlə, dövlət təhlükəsizliyinin təminatı xarici patronun hərbi-siyasi müdaxilə imkanları ilə əlaqələndirildi. Belə model isə dövlətçilik reflekslərini zəiflədir. 2020-ci il müharibəsi və sonrakı regional transformasiya bu modelin böhranını açıq şəkildə ortaya qoydu.

**

Ukrayna müharibəsindən sonra Moskvanın resurslarının bölünməsi və Cənubi Qafqazda əvvəlki təsir imkanlarının zəifləməsi İrəvanı yeni geosiyasi dayaqlar axtarmağa sövq etdi. Lakin burada diqqətçəkən əsas məqam Ermənistanın təhlükəsizlik fəlsəfəsinin dəyişməməsidir. İrəvan yenə də yeni patronaj münasibətlərinə üstünlük verir. Hazırda Fransanın Ermənistan siyasətində artan rolu məhz bu kontekstdə qiymətləndirilməlidir. Paris son illər özünü Ermənistanın əsas siyasi himayədarı kimi təqdim etməyə çalışır. Fransa tərəfindən Ermənistana silah satışının genişləndirilməsi, Avropa İttifaqı platformalarında Azərbaycan əleyhinə təşəbbüslərin dəstəklənməsi, Makron administrasiyasının açıq şəkildə birtərəfli ritorika nümayişi və Ermənistanı "demokratiyanın müdafiəçisi" kimi təqdim etməsi yeni geosiyasi xəttin konturlarını göstərir. Burada əsas məsələ ondadır ki, Ermənistan yenə də təhlükəsizlik və xarici siyasət arxitekturasını öz daxili imkanları üzərində deyil, xarici siyasi patronaj üzərində qurmağa çalışır. Yəni dəyişən yalnız geosiyasi mərkəzdir; asılılıq modeli isə olduğu kimi qalır. Mövcud yanaşma region üçün də risk yaradır. Çünki xarici güclərin himayəsinə söykənən siyasət adətən kompromis imkanlarını zəiflədir və lokal problemləri böyük geosiyasi rəqabətin elementinə çevirir. Ermənistanın qərarvermə prosesində xarici aktorların təsirinin artması Cənubi Qafqazda möhkəm sülh perspektivini mürəkkəbləşdirir. Xüsusilə Fransa kimi regiondan kənar aktorların açıq tərəfkeş mövqeyi vasitəçilik imkanlarını zəiflədir və siyasi balansı pozur. Parisin region siyasətinə diqqətlə baxdıqda aydın görünür ki, Fransa Cənubi Qafqazı qlobal nüfuzunun saxlanılması üçün yeni təsir məkanı kimi qiymətləndirir.

**

Son onillikdə Fransanın ən ciddi problemlərindən biri ənənəvi təsir coğrafiyalarında mövqelərinin zəifləməsidir. Xüsusilə Afrika qitəsində baş verən proseslər Parisin "postkolonial nüfuz sistemi"nin ciddi böhran yaşadığını göstərdi. Mali, Niger, Burkina Faso kimi ölkələrdən Fransa hərbi kontingentlərinin çıxarılması, anti-Fransa etirazlarının güclənməsi və yerli hakimiyyətlərin Parisə qarşı sərt ritorikaya keçməsi Makron xarici siyasətinin strateji məğlubiyyətlərindən biri kimi qiymətləndirilir. Yerli cəmiyyətlərdə Fransanın terrorla mübarizə adı altında uzunmüddətli geosiyasi nəzarət həyata keçirdiyi barədə fikirlər geniş yayıldı. Belə şəraitdə Fransa yeni geosiyasi fəallıq zonaları axtarmağa başladı və Cənubi Qafqaz bu strategiyada xüsusi yer tutdu. Regionun Avropa ilə Asiya arasında



strateji məkanda yerləşməsi, enerji və nəqliyyat marşrutları baxımından əhəmiyyəti, həmçinin Rusiya–Qərb rəqabətinin yeni cəbhələrindən birinə çevrilməsi Paris üçün əlavə imkanlar yaratdı. Fransa burada özünü Avropa təhlükəsizlik arxitekturasının aktiv aktoru kimi təqdim etməyə çalışır. Bu siyasətdə Ermənistan xüsusi funksional rol oynayır. Çünki Ermənistanın təhlükəsizlik baxımından həssas vəziyyətdə olması və xarici dəstəyə ehtiyac duyması onu böyük güclərin təsirinə daha açıq edir. Paris də məhz bu zəiflikdən istifadə edərək İrəvan üzərində siyasi təsir imkanlarını genişləndirməyə çalışır. Fransa–Ermənistan münasibətlərində müşahidə olunan intensiv siyasi təmaslar, hərbi əməkdaşlığın genişlənməsi və Avropa platformalarında koordinasiyalı ritorika bu strategiyanın tərkib hissəsidir. Burada diqqətçəkən məqamlardan biri Fransanın regiona münasibətdə tərəf kimi davranmağa başlamasıdır. Ənənəvi diplomatik praktika vasitəçilik edən dövlətin balanslı mövqe sərgiləməsini tələb edir. Lakin Paris son illər bu balansı qorumaq əvəzinə, daha çox Ermənistanın siyasi tezislərinə yaxın xətt nümayiş etdirir. Məhz bu kontekstdə Azərbaycanın Fransaya qarşı "neokolonial siyasət" ittihamları beynəlxalq siyasi diskursun bir hissəsinə çevrilib.

*

Bakı son illər kolonializm və neokolonializm məsələsini beynəlxalq platformalarda sistemli şəkildə gündəmə gətirən aktorlardan biridir. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti burada mühüm siyasi elementə çevrilib. Qrupun Fransanın dənizaşırı ərazilərində yaşayan xalqların hüquqları, siyasi təmsilçilik problemləri və müstəmləkəçilik irsi ilə bağlı çıxışları Paris üçün əlavə reputasiya təzyiqi yaradır. Əslində, Azərbaycan bu platforma vasitəsilə ilk dəfə Qərbin kolonial keçmişini və davam edən təsir mexanizmlərini qlobal siyasi müzakirə predmetinə çevirməyə çalışır. Fransanın siyasətində əsas paradoks da məhz burada ortaya çıxır. Paris bir tərəfdən beynəlxalq hüquq, insan hüquqları və demokratik dəyərlərdən danışır, digər tərəfdən isə geosiyasi maraqları naminə selektiv yanaşma nümayiş etdirir. Makron administrasiyasının Cənubi Qafqaz siyasətində emosional və birtərəfli ritorikaya üstünlük verməsi bu böhranı daha görünən edir. Çünki regionda sabitliyin əsas şərtlərindən biri balanslı diplomatiya və neytral vasitəçilikdir. Xüsusilə Cənubi Qafqaz məsələsində Parisin nümayiş etdirdiyi aktivlik daxili siyasi dinamika ilə xarici siyasət arasında birbaşa əlaqənin mövcud olduğunu göstərir. Makron hakimiyyətinin ikinci mərhələsi Fransada ciddi sosial və siyasi gərginliklə müşayiət olundu. Pensiya yaşının artırılmasına qarşı kütləvi etirazlar, iqtisadi inflyasiya, enerji qiymətlərinin artması, miqrasiya məsələləri və sosial bərabərsizliklə bağlı narazılıqlar cəmiyyətdə hakimiyyətə qarşı etimadı zəiflətdi. Küçələrdə aylarla davam edən etiraz aksiyaları göstərdi ki, Fransa siyasi sistemi uzun müddətdir dərin struktur böhran yaşayır. Sağ və sol populist qüvvələrin güclənməsi, parlamentdə siyasi parçalanmanın artması və hökumətin qərarvermə imkanlarının məhdudlaşması Makron administrasiyasının daxili siyasi dayanıqlılığını zəiflədir.

Bir çox siyasi təhlillərdə qeyd olunur ki, Makron artıq əvvəlki kimi konsensus yarada bilən lider obrazını qorumaqda çətinlik çəkir. Belə şəraitdə xarici siyasət aktivliyi daxili legitimlik problemini kompensasiya edən vasitəyə çevrilə bilir. Ermənistan məsələsi isə Fransa üçün həm geosiyasi, həm də daxili siyasi baxımdan əlverişli mövzuya çevrilib. Fransada güclü və təşkilatlanmış erməni diasporu mövcuddur və bu amil ölkənin daxili siyasi balansında müəyyən təsir imkanlarına malikdir. Xüsusilə seçkilərdə müxtəlif siyasi qüvvələrin erməni icmasının dəstəyini qazanmağa çalışdığı müşahidə olunur. Makron administrasiyasının Ermənistanla bağlı ritorikasında emosional tonun yüksək olması, müəyyən mənada, daxili siyasi auditoriyaya hesablanmış addım kimi də görünür.

Son olaraq qeyd edək ki, Cənubi Qafqazda yeni siyasi arxitektura formalaşır. Bu mərhələdə Ermənistanın qarşısında əsas seçim dayanır: ya yenidən böyük güclərin geosiyasi alətinə çevrilmək, ya da region dövlətləri ilə qarşılıqlı maraqlara əsaslanan normal münasibətlər quraraq real suverenlik modelinə keçmək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# NATO-nun yeni enerji doktrinası

*(əvvəli 1-ci səhifədə)*



Bərpaolunan enerji mənbələri isə daha sabit, daha az geosiyasi risk daşıyan və uzunmüddətli perspektivdə daha təhlükəsiz sistem kimi təqdim olunur. Lakin bu strateji dəyişiklik ABŞ daxilində birmənalı qarşılanmır. Vaşinqtonun enerji siyasəti ənənəvi olaraq neft və qaz sektorunun güclü iqtisadi və siyasi təsiri altında formalaşıb. Xüsusilə enerji ixracatçısı statusunun güclənməsi ABŞ üçün həm iqtisadi üstünlük, həm də geosiyasi təsir aləti kimi qəbul edilir. Ona görə də NATO-nun bərpaolunan enerjiyönümlü təhlükəsizlik yanaşması ABŞ-ın müəyyən siyasi və iqtisadi dairələri tərəfindən ehtiyatla qarşılanır və bəzən açıq şəkildə tənqid olunur. Yəni NATO daxilində enerji keçidi təhlükəsizlik prioriteti kimi təqdim edilərkən, ABŞ-da prosesin sürətləndirilməsi iqtisadi sabitlik və enerji bazarlarının qorunması baxımından riskli hesab olunur. Beləliklə, eyni məsələyə iki fərqli prizmadan baxış – biri təhlükəsizlik və dayanıqlılıq, digəri isə iqtisadi effektivlik və bazar balansı üzərindən formalaşır.

ABŞ–NATO böhranının daha da dərinləşməsi ehtimalı yüksəkdir. Çünki qlobal enerji bazarlarında baş verən dəyişikliklər, Yaxın Şərqdə və digər enerji regionlarında qeyri-sabitlik, həmçinin Avropanın enerji təhlükəsizliyi ilə bağlı narahatlıqlar NATO-nu alternativ mənbələrə daha sürətli keçid etməyə sövq edir. ABŞ isə bu keçidin sürətini daha çox daxili enerji sənayesinin maraqları ilə uzlaşdırmağa çalışır.

Avropa ölkələri də getdikcə daha çox enerji müstəqilliyi və strateji avtonomiya məsələsinə önəm verir. Ona görə də ABŞ-ın alyans daxilindəki ənənəvi liderlik rolu, müəyyən mənada, təzyiq altına düşür. Çünki Avropa enerji təhlükəsizliyi məsələsini, həm də siyasi müstəqillik və strateji seçim azadlığı kimi görür.

Məsələnin digər mühüm tərəfi qlobal iqlim siyasəti ilə bağlıdır. NATO-nun enerji təhlükəsizliyi konseptini iqlim dəyişiklikləri ilə əlaqələndirməsi alyansın fəaliyyət sahəsini daha da genişləndirir. Alyansın yanaşması hərbi blokun funksional çərçivəsini ənənəvi müdafiə modelindən çıxararaq daha kompleks təhlükəsizlik sisteminə çevirir. ABŞ isə bu genişlənmənin institusional balansı dəyişdirə biləcəyini düşünən dairələrlə qarşı-qarşıya qalır.

NATO daxilində enerji siyasəti strateji güc balansının tərkib hissəsinə çevrilir. Proses ABŞ ilə alyans arasında mövcud olan fərqləri daha görünən və daha sistemli edir. Əgər əvvəllər bu fikir ayrılıqları əsasən taktiki səviyyədə idisə, indi struktur səviyyəyə keçməkdədir. Bütün bu amillər göstərir ki, ABŞ-NATO münasibətlərində yeni bir mərhələ formalaşır. Hazırda qarşılıqlı asılılığın davam etdiyi, eyni zamanda, strateji prioritetlərin getdikcə fərqləndiyi bir dövrdür. Gələcəkdə proseslərin necə tənzimlənəcəyi həm alyansın daxili bütövlüyü, həm də transatlantik münasibətlərin sabitliyi baxımından həlledici rol oynayacaq.

Sonda bir xatırladaq ki, ABŞ-NATO arasındakı soyuq küləklərin əsməsinin bir səbəbi də maliyyə məsələsidir. Trampın dəfələrlə Avropa müttəfiqlərini müdafiə xərclərini artırmağa çağırması, hətta bəzi hallarda açıq təzyiq ritorikasında istifadə etməsi ABŞ-ın alyans daxilindəki roluna daha utilitar və iqtisadi prizmadan yanaşdığını göstərirdi. Amma nəzərə alınmalıdır ki, NATO klassik beynəlxalq təşkilat modeli üzrə üzvlük haqqı ilə işləyən struktur deyil. Bu gün alyansın mövcudluğu daha çox ABŞ-ın maliyyə dəstəyi ilə təmin olunur. ABŞ, həmçinin NATO-ya hərbi gücü, logistik imkanları, Avropada yerləşən bazaları və alyans əməliyyatlarına texniki və strateji dəstəyi ilə töhfə verir. Mövcud fikir ayrılıqları kontekstində ABŞ-ın NATO-dakı hərbi mövcudluğunu azaltması, Avropadakı qoşunlarının sayını dəyişməsi, bəzi əməliyyat və missiyalardan çəkilməsi, müdafiə xərclərinin bölgüsündə daha sərt şərtlər irəli sürməsi ehtimalı yüksəkdir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Yusif BAĞIRZADƏ,**
**politoloq**



Həqiqətən də NATO ilə ABŞ arasında son dövrlər müşahidə olunan fikir ayrılıqları artıq iqtisadi və enerji təhlükəsizliyi müstəvisində də özünü göstərməyə başlayıb. Alyansın son strategiyalarında "yaşıl təhlükəsizlik", enerji dayanıqlılığı və bərpaolunan enerji mənbələrinin təşviqi xüsusi yer tutur. Bu yanaşma xüsusilə Avropa ölkələrinin enerji asılılığını azaltmaq və kritik infrastrukturun təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Lakin Vaşinqtonda, xüsusilə respublikaçı siyasi dairələrdə bu siyasətə münasibət fərqlidir.

Əsas məsələ geosiyasi və iqtisadi maraqların toqquşmasıdır. Avropa İttifaqı və NATO üçün enerji təhlükəsizliyi artıq milli təhlükəsizliyin ayrılmaz hissəsi hesab olunur. Rusiya–Ukrayna müharibəsi göstərdi ki, enerji asılılığı siyasi təzyiq alətinə çevrilə bilər. Ona görə Avropa ölkələri alternativ enerji mənbələrinə keçidi sürətləndirməyə çalışırlar. NATO da, öz növbəsində, hərbi bazaların enerji dayanıqlılığını artırmaq, orduların yanacaq asılılığını azaltmaq və iqlim risklərini təhlükəsizlik strategiyasına daxil etmək istiqamətində fəaliyyət göstərir. Tramp hakimiyyəti isə prosesi iqtisadi maraqlara zidd hesab edir. ABŞ dünyanın ən böyük enerji istehsalçılarından biridir və maye qaz ixracı Vaşinqton üçün həm iqtisadi, həm də siyasi təsir vasitəsidir. Bu baxımdan, NATO-nun fosil yanacaqlardan uzaqlaşmanı təşviq etməsi Vaşinqton tərəfindən ABŞ enerji sektorunun maraqlarına dolayısı zərbə kimi qiymətləndirilir.

Prosesin NATO daxilində daha dərin siyasi mübahisələrə səbəb olması mümkündür. Xüsusilə Vaşinqtonun Alyans qarşısında daha sərt maliyyə tələbləri irəlisürmə ehtimalı var. Tramp dəfələrlə NATO üzvlərinin kifayət qədər maliyyə yükü daşımadığı və ABŞ-ın əsas xərcləri ödəməsinin ədalətsiz olduğuna dair bəyanatlar səsləndirib. İndi enerji siyasəti ilə bağlı fikir ayrılıqları həmin narazılıqları daha da artıra bilər. Bununla belə, ABŞ-ın NATO-ya maliyyə dəstəyini tam kəsməsi hazırkı mərhələdə real görünmür. Çünki NATO Vaşinqton üçün həm də qlobal təsir mexanizmidir. ABŞ Avropadakı hərbi mövcudluğu sayəsində transatlantik təhlükəsizlik sisteminə nəzarəti öz əlində saxlayır. Maliyyə dəstəyinin dayandırılması ABŞ-ın öz geosiyasi maraqlarına da zərbə vura bilər. Lakin müəyyən maliyyə təzyiqləri, büdcə məhdudiyyətləri və Avropa ölkələrindən daha çox öhdəlik tələb olunması ehtimalı kifayət qədər yüksəkdir.

# Moskva "valı" niyə dəyişir?

## *Ermənistanın balans siyasəti və Azərbaycanın logistik strategiyası*



**Cənubi Qafqazda formalaşan yeni geosiyasi dinamika region dövlətlərinin xarici siyasət kurslarını dəyişdirib. Bu dəyişikliyin əsas göstəricisi Ermənistanın bir tərəfdən Avropa İttifaqı (Aİ) ilə yaxınlaşması, digər tərəfdən isə Rusiya ilə tarixi-strateji bağlılıqlarını qorumağa çalışmasıdır. Bu ikili xətt Ermənistanı regionun ən həssas geosiyasi keçid zonalarından birinə çevirərək, rəsmi İrəvanı daimi balans axtarışına məcbur edir. Paralel olaraq, Azərbaycan da Rusiya və Qərb arasında praqmatik, lakin getdikcə həssas xarakter alan tarazlıq siyasətini davam etdirir.**

Moskvanın bu proseslərə münasibəti Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə dördüncü departamentinin direktoru Mixail Kaluqinin açıqlamalarında əks olunub. Kaluqin TASS-a müsahibəsində vurğulayıb ki, Ermənistanın "Avropa yolu" kimi təqdim edilən inteqrasiya kursu, sadəcə, xarici siyasət dəyişikliyi deyil, həm də Cənubi Qafqazda qüvvələr balansına birbaşa təsir göstərən strateji transformasiyadır. Kreml hesab edir ki, Brüsselin daxili proseslərə müdaxiləsi, müşahidə missiyaları və anti-Rusiya ictimai rəyinin formalaşdırılması məqsədli strategiyadır. Bununla belə, Moskva iddia edir ki, Qərb Ermənistana təhlükəsizlik və enerji (xüsusilə Metsamor AES) sahəsində real alternativ təqdim edə bilmir, vəd olunan investisiya paketləri isə hələ də praktiki nəticə verməyib.

Bu gərginlik fonunda Vladimir Putinin Ermənistanın "Ukrayna, Moldova və ya Gürcüstan ssenarisinə" yaxınlaşa biləcəyi barədə eyhamları Rusiyanın bu inteqrasiyanı ciddi strateji risk kimi gördüyünü ortaya qoyur. Bir növ xəbərdarlıq mahiyyəti daşıyır. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan yaxşı başa düşür. Hökumət başçısının "heç nəyi qəfil etməyəcəyik" və "AİƏ-dən (Avrasiya İqtisadi İttifaqı) çıxış planlı olacaq" kimi mesajları xüsusi maraq doğurur. Əslində, Ermənistan radikal dönüşdən ziyada, idarə olunan transformasiya xətti seçib. Paşinyan nə Rusiyadan qopmağa tələsir, nə də Qərblə əlaqələri dayandırır. Onun çıxışlarında Gürcüstan və Moldova kimi ölkələri dost dövlətlər kimi təqdim etməsi Ermənistanın ideoloji bloklaşmadan qaçaraq praqmatik diplomatiya yürütdüyünü nümayiş etdirir. Eyni zamanda, Paşinyanın "AİƏ-dən çıxışa hazırda ehtiyac yoxdur" mesajı İrəvanın iqtisadi reallıqları nəzərə aldığını və Rusiyadan enerji-iqtisadi asılılığın hələ də ciddi faktor olaraq qaldığını təsdiqləyir.

Moskvanın son dövrlər sərgilədiyi və beynəlxalq analitiklər tərəfindən bəzən "şərti şantaj" elementləri kimi xarakterizə edilən ritorikası İrəvanın suveren qərarvermə müstəqilliyini ciddi sual altına qoyur. Bəs təhlükə nədir? Ermənistanın siyasi və ekspert dairələrində artıq belə bir qənaət kök salıb ki, xarici siyasət kursunun deklarativ səviyyədə sərbəst müəyyənləşdirilməsi real praktikada aşılması çətin olan infrastruktur, logistika və hərbi-siyasi maneələrlə üzləşir. Xüsusilə enerji təchizatı zənciri, mühüm nəqliyyat qovşaqları və bazar imkanları üzərindəki nəzarət Moskvanın əlində güclü təzyiq rıçaqlarıdır.

Münasibətlərin daha soyuq, hətta sanksiya və ya iqtisadi məhdudiyyətlərlə müşayiət olunan təzyiqyönlü mərhələyə keçmə ehtimalı var. Bunun açıq şəkildə vurğulanması beynəlxalq münasibətlər leksikonunda "şərti asılılıq modeli" kimi izah edilir. Bu model çərçivəsində Ermənistanın daxili və xarici inkişaf layihələri, beynəlxalq maliyyə institutları ilə əlaqələri yalnız Rusiyanın regional strateji maraqları ilə ziddiyyət təşkil etmədiyi təqdirdə, normal inkişaf edə bilər. Əks halda, Moskva tərəfindən gömrük baryerlərindən tutmuş enerji qiymətlərinin artırılmasına qədər geniş spektrdə təzyiq mexanizminin işə düşməsi reallığı gündəmdədir.

Bu vəziyyət Ermənistanın istənilən müstəqil addımını potensial geosiyasi və iqtisadi böhran riski ilə üz-üzə qoyur. Belə bir mühitdə ölkənin suveren inkişaf perspektivləri qlobal güclərin rəqabət meydanında daha da həssaslaşır və rəsmi İrəvanın "çoxvektorlu siyasət" cəhdləri hər keçən gün daha böyük bədəllər ödəmək təhlükəsi yaradır. Şübhəsiz ki, Ermənistan hazırda tam seçim mərhələsində deyil, daha çox idarə olunan balans siyasəti yürüdür. Bu isə ölkəni həm geosiyasi risklərin, həm də yeni imkanların kəsişməsində saxlayır. Eyni zamanda, Cənubi Qafqazda ümumi tendensiya göstərir ki, Ermənistan getdikcə daha çox Rusiya və Qərb arasında rəqabətin, paralel olaraq isə çoxqütblü beynəlxalq sistemin təsir məkanına çevrilir

***



N.Kaluqinin Azərbaycanla bağlı açıqlamaları da maraq doğurur. O, Bakı ilə iqtisadi əlaqələrin, yüksək səviyyəli səfərlərin və beynəlxalq forumlarda fəal iştirakın əhəmiyyətini vurğulayaraq "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizini strateji layihə kimi qiymətləndirib. Bu layihə Azərbaycanın Avrasiyanın əsas logistik qovşaqlarından birinə çevrilməsində mühüm rol oynayır və Rusiya üçün Bakı ilə əməkdaşlığı qlobal ticarət marşrutları üzərindən möhkəmləndirən strateji mexanizm kimi çıxış edir.

Kaluqinin mesajları, eyni zamanda, göstərir ki, Rusiya Ermənistan istiqamətində yaranan geosiyasi boşluqları Azərbaycanla genişlənən praqmatik iqtisadi və nəqliyyat layihələri vasitəsilə kompensasiya etməyə çalışır. Son illər Rusiya ilə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələr müəyyən sabitliyi qorusa da, mədəni-humanitar sahədə əvvəlki dinamika zəifləyib. Məhz bu fonda Moskva humanitar bağları yenidən aktivləşdirməyə çalışır. Həm də "yumşaq güc" alətləri vasitəsilə mədəni təsir imkanlarında maraqlıdır. Bu ritorikada diqqətçəkən əsas məqam təhsil və mədəniyyət layihələrinin tamamilə "saf niyyətli dostluq addımı" kimi təqdim edilməsidir. Sankt-Peterburq Dövlət Universitetinin filialının açılması və ya səfirliklər nəzdində məktəblərin yaradılması kimi təşəbbüslər zahirən akademik əməkdaşlıq kimi görünsə də, mahiyyət etibarilə postsovet məkanında rusdilli təhsil modelini və Kremlin ideoloji nüfuzunu qorumağa xidmət edir.

Əslində, Cənubi Qafqazda formalaşan ziddiyyətli geosiyasi dinamika, xüsusilə Ermənistanın Qərblə sürətli yaxınlaşması Moskvanı Bakı ilə humanitar bağları möhkəmləndirməyə sövq edir. Bu çərçivədə Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin fəaliyyətinin bərpası, qarşılıqlı abidələrin ucaldılması və gənclər forumları kimi layihələr dövlətlərarası münasibətlərdə süni müsbət fon yaratmaq məqsədi daşıyır. Lakin Kremlin bu "pozitiv" gündəliyi çox vaxt daha kəskin geosiyasi təzyiq mexanizmlərini ört-basdır edən diplomatik pərdə rolunu oynayır. Rusiya üçün humanitar təsir rəqabət şəraitində strateji əhəmiyyət kəsb edir və "ortaq tarixi miras" narrativi vasitəsilə region ölkələrini öz orbitində saxlamağa hesablanıb.

Azərbaycan isə bu təşəbbüslərə daha həssas yanaşaraq, xarici siyasətdəki çoxvektorlu balansını qorumağa üstünlük verir. Bakı Rusiyanın bu mədəni ekspansiyasını praqmatik çərçivədə saxlayaraq, milli maraqları və Türkiyə-Qərb balansı fonunda humanitar layihələri idarə olunan səviyyədə qəbul edir. Gələcək nəsillər arasında sosial bağların qorunması adı altında təqdim olunan bu diplomatiya, əslində, böyük güclərin regiondakı nüfuz savaşına xidmət edən özünəməxsus bir "yumşaq" mübarizə cəhdidir.

Beləliklə, istənilən halda Cənubi Qafqaz tədricən Rusiya mərkəzli təhlükəsizlik modelindən çıxaraq, regional və qlobal maraqların üst-üstə düşdüyü çoxqütblü geosiyasi məkana çevrilir. Bu isə regionda sabitlik, enerji təhlükəsizliyi və sülh quruculuğu proseslərinə ciddi təsir göstərir.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Tələsmə, cənab Simonyan!

*(əvvəli 1-ci səhifədə)*

**Birincisi,** Simonyan bildirdi ki, Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə Qarabağ məsələsinə görə bağlanmışdı. Doğrudur, amma mövzunun sırf bu şəkildə ifadə olunması çox ümumidir. Çünki söhbət Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən, qəsbkarlıq siyasəti yürütməsindən gedib. Axı işğalın arealı mübahisə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə məhdudlaşmayıb.

Yada salaq ki, Ankara sərhədləri bağlamaq qərarını məhz Kəlbəcərin işğalından sonra vermişdi. Kəlbəcərin, Laçının, Şuşanın və digər torpaqlarımızın sabiq muxtar vilayətə aidiyyəti yox idi. Simonyanın bunun üzərindən keçib birbaşa Qarabağ məsələnin həllinin reallaşmasından söz açması yolverilməzdir. Nəinki yolverilməzdir, üstəlik, belə təəssürat yaranır ki, o, beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir. Axı işğal Azərbaycan xalqına olmazın məşəqqətlər yaşatmışdı.

**İkincisi,** 44 günlük müharibədə məğlubiyyətə uğramış Ermənistan 2020-ci ildən 2023-cü ilədək itirilmişlərin bərpasına çalışdı. Ölkə iqtidarı Qarabağdakı separatçı rejimin qorunmasına, yəni Azərbaycana qarşı ərazi iddiasının davamına cəhd göstərdi. Hətta 2023-cü ildən sonra da bu cəhdlərin şahidi olduq.

Yəni hazırda sülhü aşkar siyasi ritorika şəklinə gətirmiş Ermənistanın barışa doğru yolu heç də rəvan deyildi. Bu, o deməkdir ki, indiki durum ölkənin bəraət qazanması baxımından yetərli deyil. Çünki prinsipial məqamlar var. Heç şübhəsiz, 2020-ci ildən sonra Ermənistan konstruktiv mövqe tutsaydı, həm sülhü tezləşdirər, həm də Türkiyə ilə sərhədlərin açılmasını...

**Üçüncü məqam.** Bilavasitə Türkiyə ilə quru sərhədinin açılmasının Ermənistan üçün əhəmiyyətindən danışaq. Məlumdur ki, bu, ölkənin dənizə çıxışı deməkdir. Söhbət Qara dənizə çıxışdan gedir. Şübhəsiz, belə bir üstünlüyə malik olmaq böyük dividenddir. Dividend yalnız sülhün fundamentallığı şəraitində mümkündür. Sülhün fundamentallığı üçün isə Ermənistanın atmalı olduğu bir böyük addım var. Bütövlükdə erməni cəmiyyəti qonşulara qarşı ərazi iddiası məntiqindən tam geri durmalı, mövcud istiqamətdə iradə nümayiş etdirməlidir. İradə meydanının referendum – ümumxalq səsverməsi olduğu məlumdur. O referendum ki, ölkənin yeni konstitusiyasını qəbul etməlidir. O konstitusiya ki, orada işğalçı mahiyyətə söykənmiş İstiqlaliyyət Bəyannaməsinə istinad olmasın.

**Dördüncü məqam.** Bəli, sülhün konseptuallığı üçün onun bütün seqmentləri reallaşdırılmalıdır. Burada Türkiyənin bir dövlət kimi öz maraqlarını da vurğulamaq lazımdır. Bəli, Naxçıvana maneəsiz yol Azərbaycana nə qədər lazımdırsa, bir o qədər də Ankaraya lazımdır. Deməli, Ermənistan ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin ruhuna uyğun davranmalı, əməli fəaliyyət gerçəkləşdirməlidir.

Axı elementar məntiq var. Türkiyə Ermənistanla sərhədi yalnız ucuz işçi qüvvəsinin, yaxud erməni mallarının öz ərazisinə doluşması üçün açmaz. Ölkə daha böyük miqyaslı daşımalarda maraqlıdır. Bunun üçün Zəngəzur dəhlizi, qlobal anlamda isə 8 avqust Birgə Bəyannaməsinin TRIPP məntiqi gerçəkləşməlidir.

Beşinci məqam. A.Simonyan deyir ki, Qarabağ məsələsini həll edən Ermənistan Azərbaycanla ticarətə başlayıb və belə bir şəraitdə ölkənin Türkiyə ilə quru sərhədinin bağlı qalması nonsensdir. Əlbəttə, spiker prosesin müsbət nəticələnəcəyini vurğulayıb xoş mesaj səsləndirməyi də unutmur. Amma...

Hesab edirik ki, Simonyan sırf bu deyimdə də tələskənliyə yol verir. Çünki Azərbaycanın Ermənistanla ticarətə başlaması Bakının xoş məram ifadəsidir. Azərbaycan ərazisi vasitəsilə Ermənistana üçüncü ölkələrdən yüklərin çatdırılması da həmçinin. Yəni Bakı sülh yolunda jestlər edir. Rəsmi İrəvanın isə bu baxımdan hazırda ortaya qoyduğu real fəaliyyət yoxdur. Yəni Paşinyan administrasiyasının yalnız barış yönümlü bəyanatlarını eşidirik. Bəyanatların əməli fəaliyyət müstəvisinə keçməsi üçün haqqında söz açdığımız Naxçıvana maneəsiz yol təmin edilməlidir.



Onu da deyək ki, indiki durumda cənab Simonyan həm tələsməməli, həm də məsələləri bir-birinə qatmamalıdır. Axı erməni iqtidarının Naxçıvana maneəsiz yolu verməkdən boyun qaçırdığını, Paşinyanın alternativ kimi Laçın-Kornidzor–Marqara xəttindən danışdığını, böyük anlamda isə "Dünyanın kəsişməsi" və ya "Sülhün kəsişməsi" adlı təşəbbüsləri ortaya atıb Azərbaycana qarşı çıxdığını görmüşük. Yeri gəlmişkən, "Sülhün kəsişməsi" kazusu mayın 5-də İrəvanda imzalanmış Ermənistan–Avropa İttifaqı Birgə Bəyannaməsində də yer alıb. Paşinyanın seçki qalibi olduqdan sonra həmin sənədə istinad əzminin TRIPP-ə qarşı yönəlib-yönəlməyəcəyini söyləmək çətindir...

Sözümüz ondadır ki, Simonyanın timsalında erməni iqtidarının təmsilçiləri Türkiyə-Ermənistan sərhədinin açılmasına dair fikir bildirəndə bütün bunları nəzərə almalı, düşüncələrini korrekt şəkildə ifadə etməlidirlər. Fransa Prezidenti Emmanuel Makronun həmin quru sərhədindən keçib Türkiyəyə getmək kimi rəmzi jestinə icazə verilmədisə, deməli, bu xına o xınadan deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Rusiyanın "ekran bülbülü"nün köhnə palan içi tökməkliyi

## *Paşinyan Qarabağdan əlini çəkib, Solovyov isə separatizmi körükləyir*

**Cənubi Qafqazda baş verən hadisələr regionun həm siyasi xəritəsini, həm də informasiya məkanını tamamilə dəyişib. Uzun illər münaqişə, işğal və qeyri-müəyyənlik üzərində qurulan köhnə düzən artıq mövcud deyil.**

Azərbaycan 2020-ci ildən sonra ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə yanaşı, bölgədə yeni siyasi reallığın da əsasını qoydu. Qarabağ üzərində tam nəzarətin təmin olunması illərlə formalaşdırılmış mifləri, geosiyasi hesabları və siyasi saxtakarlıqları sarsıtdı.

Məhz buna görə də uzun müddət Qarabağ məsələsindən təsir və təzyiq vasitəsi kimi istifadə edən dairələr yeni vəziyyətlə barışmaqda çətinlik çəkirlər. Bu narahatlıq yalnız diplomatik kabinetlərdə deyil, televiziya studiyalarında, media platformalarında və informasiya savaşının müxtəlif cəbhələrində də hiss olunur. Köhnə miflər yenidən dirçəldilir, tarix manipulyasiya olunur, reallıq isə görməzdən gəlinir.




**Rusiyalı teleaparıcı Vladimir Solovyovun** "Rossiya 1" kanalında Qarabağ və Gəncəsər monastrı ilə bağlı səsləndirdiyi fikirlər də məhz belə düşüncədən qaynaqlanır. Bu, sadəcə, bir aparıcının emosional çıxışı və ya növbəti televiziya qalmaqalı deyil. Burada daha böyük siyasi xəttin, davam edən informasiya mübarizəsinin və yeni regional reallıqlarla barışmaq istəməyən dairələrin narahatlığı açıq görünür.

Solovyov efirdə Qarabağda, guya, "ermənilərin qədimliyi" barədə danışarkən tarixi faktlardan çox emosional saxtakarlıqlara üstünlük verdi. O, Nikol Paşinyanın Qarabağın Ermənistan ərazisi olmadığı barədə fikirlərinə etiraz edərək köhnə təbliğat tezisini yenidən gündəmə gətirdi. Guya Gəncəsər məbədi xristian kilsəsidirsə, Qarabağ da ermənilərindir. Bu yanaşma ciddi tarixi arqumentdən çox, televiziya şousu səviyyəsində qurulan primitiv məntiq təsiri bağışlayır. Çünki bölgənin dini və siyasi tarixini bir məbədin üzərindən izah etməyə çalışmaq elmi yox, siyasi maraqdan irəli gəlir.

Əslində, Solovyovun yalan və saxtakarlığı ondadır ki, Gəncəsər məbədi onun ermənilərə məxsusluğunun sübutu deyil, əksinə, həmin iddiaları rədd edən ən mühüm tarixi faktlardan biridir. Tarixi mənbələr və kitabələr monastırın Qafqaz Albaniyası ilə bağlılığını açıq şəkildə göstərir. Gəncəsər məbədi əsrlərlə Alban Katolikosluğunun əsas dini mərkəzlərindən biri olub. Monastırın kitabəsində onun Alban kilsəsi ilə bağlı olduğu qeyd edilir. Məbəd 1241-ci ildə Həsən-Cəlal Dövlənin dövründə inşa olunub və onun titulunun "Xaçın Atabəyi" kimi göstərilməsi bu tarixin ermənilərə qətiyyən dəxli olmadığını birbaşa təsdiqləyir.

Azərbaycan tarixşünaslığında Qarabağın alban-türk irsi ilə bağlı çoxsaylı faktlar mövcuddur. Məsələn, akademik Yaqub Mahmudovun araşdırmalarında qeyd olunur ki, Qarabağda alban-qıpçaq etnik-mədəni əlaqələri xüsusilə güclü olub. Mənşəcə türk olan Alban-Xaçın hakimlərinin xristian-qıpçaq nəsilləri ilə qohumluq əlaqələri yaratması bölgədə türk-xristian mədəniyyətinin dərin köklərə malik olduğunu göstərir. Maraqlıdır ki, Qarabağdakı xristian-qıpçaq xanımları özlərini "xatun" titulu ilə təqdim edirdilər. Alban hökmdarları isə "xaqan", "xan" və "işxan" titulları daşıyırdılar. Alban-qıpçaq kilsələrinin kitabələrində rast gəlinən Mama xatun, Hurişah xatun, Arzu xatun, Vaxtanq Təkin kimi adlar və türk boylarına aid ifadələr bölgənin etnik-mədəni mənzərəsini açıq şəkildə ortaya qoyur.

Bu faktlar göstərir ki, Qarabağın xristian irsini avtomatik şəkildə erməni kimliyi ilə eyniləşdirmək tarixi reallığı təhrif etməkdir. Çünki Qarabağda mövcud olmuş xristian irsi yalnız ermənilərə aid olmayıb. Bölgədə əsrlərlə yaşamış alban-türk icmalarının dini və mədəni izləri bu gün də qalmaqdadır.

**Yaqub Mahmudovun** qeyd etdiyi kimi, Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın hakimi Həsən Cəlal "Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu" kimi təqdim olunub. Bu kitabə onun mənşəyinin erməni deyil, qədim türk boylarından Ərsak soyu ilə bağlı olduğunu göstərir. Tarixi mənbələrdə "Ərsak" adı xüsusi yer tutur və bu fakt Qarabağdakı hakim sülalələrin etnik kökləri ilə bağlı erməni versiyasını ciddi şəkildə şübhə altına alır.

Maraqlıdır ki, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşamış alban xristian



məlikləri də Rusiya imperatorlarına ünvanladıqları məktublarda özlərini erməni deyil, alban türkləri kimi təqdim ediblər. Sonradan həmin sənədlər erməni tarixçiləri tərəfindən saxtalaşdırılıb, "Alban türkləri" ifadəsi "Ağvan müsəlmanları", "Alban Ərsaki nəsli" isə "erməni rəisləri nəsli" ilə əvəz olunub. Bu iddialar ətrafında uzun illər mübahisələr aparılsa da, fakt budur ki, Qarabağın tarixi irsi üzərində informasiya müharibəsi yeni hadisə deyil və bu proses uzun illərdir davam edir.

Qafqazşünas Türkan İlqar isə qeyd edib ki, işğal dövründə Gəncəsər monastırının divar yazıları korlanıb, Alban dövrünə aid ornament və simvolların bir hissəsi məhv edilib, memarlıq quruluşuna müdaxilələr olunub. 2000-ci ildən etibarən "təmir" adı altında aparılan dəyişikliklər nəticəsində kompleksin interyer və fasadında ciddi dəyişikliklər baş verib, qəbiristanlıq hissəsində yeni xaç daşları və əlavələr yerləşdirilib.

Bütün bu dəyişikliklərə baxmayaraq, Gəncəsər monastır kompleksinin memarlıq planı, kompozisiya həlli, heykəltaraşlıq nümunələri və diofizit xüsusiyyətləri onun Qafqaz Albaniyası memarlıq məktəbinə aid olduğunu göstərir.

Ermənilərin Qarabağın yerli əhalisi olmadığını göstərən başqa mühüm faktlardan biri də XIX əsrdə baş verən köçürmə siyasətidir. Türkmənçay müqaviləsindən sonra çar Rusiyası tərəfindən minlərlə erməni İran və Osmanlı ərazilərindən Şimali Azərbaycana köçürüldü. Hətta sovet dövründə separatçı dairələrin özləri də bunu etiraf etmişdilər. 1978-ci ildə Ağdərədə ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə "Marağa-150" abidəsinin ucaldılması bunun ən bariz nümunələrindən biri idi. Maraqlıdır ki, həmin abidə 1988-ci ildə separatçı hərəkat başlayandan sonra elə ermənilərin özləri tərəfindən dağıdıldı. Çünki bu abidə onların "Qarabağda minilliklər boyu yaşamaq" barədə irəli sürdükləri siyasi mifologiya ilə uyğun gəlmirdi.

Qarabağın xristian əhalisinin tarixində ən ağır dönüş nöqtələrindən biri isə 1836-cı ildə baş verdi. Türkmənçay müqaviləsindən cəmi bir neçə il sonra erməni-qriqorian kilsəsi çar hakimiyyətinin dəstəyi ilə Azərbaycan-Alban xristian kilsəsinin ləğvinə nail oldu. Çar hökuməti Alban kilsəsinin bütün əmlakını erməni-qriqorian kilsəsinə verdi. Bundan sonra alban irsinin sistemli şəkildə dəyişdirilməsi, saxtalaşdırılması və erməniləşdirilməsi prosesi başladı. Qarabağın xristian-alban əhalisinin mühüm hissəsi qriqorianlaşdırıldı və zaman keçdikcə erməniləşdirildi. Bu proses regionun tarixi yaddaşına və etnik mənzərəsinə ciddi təsir göstərdi.



Məhz buna görə bu gün Solovyov kimi təbliğatçıların Qarabağdakı bütün xristian irsini "erməni tarixi" kimi təqdim etməyə çalışması XIX əsrdən başlayaraq formalaşdırılmış siyasi və ideoloji xəttin davamıdır. Lakin müasir dövrdə bu yanaşma artıq əvvəlki kimi təsirli deyil. Çünki həm tarixi sənədlər, həm də bölgədə aparılan tədqiqatlar Qarabağın çoxqatlı etnik və dini tarixini açıq şəkildə ortaya qoyur.

Son dövrlərdə sosial şəbəkələrdə yayılan görüntülər də erməni tərəfinin tarixi saxtalaşdırma siyasəti ilə bağlı müzakirələri yenidən gündəmə gətirib. Gəncəsər monastırında xüsusi qoruma altında saxlanıldığı deyilən bəzi "qədim erməni kitablarının" əslində süni şəkildə hazırlanmış materiallar olduğu məlum olub. Kadrlarda "tarixi irs" kimi nümayiş etdirilən bəzi nümunələrin cəmi bir neçə səhifədən ibarət olduğu və qədim görüntüsü yaradıldığı görünür. Bu görüntülər tarixi irs ətrafında aparılan ideoloji manipulyasiyaların hansı həddə çatdığını göstərən nümunələrdən biri kimi təqdim olunur.

Onu da deyim ki, burada əsas məsələ Solovyovun şəxsiyyəti də deyil. Əsas məsələ onun hansı siyasi və informasiya sisteminin məhsulu olmasıdır. Müasir Rusiyada federal televiziya kanalları artıq yalnız media platforması deyil, həm də ictimai rəyin idarə olunması və xarici siyasi mesajların ötürülməsi üçün istifadə edilən ideoloji vasitələrdir. Solovyov da illərdir bu sistemin əsas simalarından biri kimi çıxış edir. Bu səbəbdən onun Qarabağla bağlı səsləndirdiyi fikirləri sırf şəxsi təşəbbüs kimi təqdim etmək inandırıcı görünmür. Solovyov sadə bir şeyi başa düşməlidir: efirdə hay-küy salmaq faktları dəyişdirmir. "Erməni kilsəsi" haqqında istədiyi qədər qışqıra bilər, amma bu, Alban irsinin yox olmasına və Qarabağın Azərbaycan olmaqdan çıxmasına səbəb olmayacaq.



Bütün bunlar onu göstərir ki, Cənubi Qafqazda hərbi mərhələnin başa çatması informasiya və ideoloji qarşıdurmanın bitməsi demək deyil. Əksinə, regionda yeni reallıqlar möhkəmləndikcə, bu vəziyyətlə barışmaq istəməyən dairələrin media və təbliğat vasitələri üzərindən daha fəal fəaliyyət göstərirlər. Qarabağ məsələsində artıq əsas mübarizə yalnız hərbi və diplomatik deyil, həm də tarixi narrativlər, informasiya savaşı və ictimai rəy üzərində gedir. Lakin reallıq dəyişməz olaraq qalır: Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Gəncəsər isə regionun çoxqatlı alban-xristian irsinin və ümumilikdə, Cənubi Qafqazın tarixi-mədəni yaddaşının ayrılmaz hissəsidir. Bu abidəni yalnız siyasi məqsədlərlə erməni kimliyi çərçivəsinə salmağa çalışmaq nə tarixi mənbələrlə, nə də elmi faktlarla uzlaşır. Tarixi həqiqətlər emosional şüarlar və təbliğat ritorikası ilə dəyişdirilə bilməz. Televiziya efirində yüksək səslə danışmaq, manipulyativ tezislər irəli sürmək və ya tarixi saxtalaşdırmaq cəhdləri də reallığı dəyişmir. Qarabağ Azərbaycan olaraq qalır. Abidələrimiz mənəvi bağların və tarixi davamlılığın daşıyıcısıdır.

***Hazırladı:***
***P.ƏFƏNDİ***
***XQ***

# Harri Kasparov və kölə təfəkkürlü sərsəm

## *Yaxud onu ortaya atanların məqsəd və niyyətləri puç olacaq*

**Ondan başlayaq ki, özünü "insan hüquqları müdafiəçisi" adlandıran, şahmat üzrə keçmiş dünya çempionu, Bakı əsilli Harri Kasparov yenidən gündəmə daxil olmaq cəhdində bulunmaqdadır. Liberal ziyalı donuna girmiş, bir müddət əvvəl Bakı üçün, guya, burnunun ucunun göynədiyini söyləyərək, saxta nostalji qarışıq sentimentallığını sərgiləyən bu məxluqun 2022-ci ildən fəaliyyətini yalnız "Youtube" platforması üzərindən davam etdirən "Exo Moskvı"da görünməsi heç də təsadüf sayılmamalıdır. Tam aydındır ki, Rusiyanın bəzi dairələri Ermənistanda gələn ayın 7-də keçiriləcək parlament seçkiləri ilə bağlı özlərinin "təsir elementlərini" bütün gücü ilə işə salıblar. Kasparovun nələrdən söz açdığını, daha doğrusu, konkret nə deyib sərsəmlədiyini, kimin bostanına daş atdığını diqqətə çatdıracağıq.**



### Ən həssas məqam

Məlum olduğu kimi, Rusiya Ermənistan xüsusunda yenə "Qarabağ kartı"nı işə salıb. Bunu ölkə Prezidenti Vladimir Putin də bir müddət əvvəl Baş nazir Nikol Paşinyan Moskvada olarkən vurğuladı. Əlbəttə, o, dərhal cavabını da aldı. Paşinyan rəsmi İrəvan üçün "Qarabağ hərəkatı"nın bitdiyini açıqladı. Lakin Kremlin bu mövzuya yanaşması ilə Ermənistandakı revanşist və şovinist kəsimin mövqeyinin üst-üstə düşdüyü sirr deyil. Bu kəsimin davranışları onu deməyə əsas verir ki, parlament seçkilərində mübarizə sülh və müharibə tərəfdarları arasında gedəcək və Kasparovun ikincilərin düşərgəsində yer aldığı birmənalıdır.

Bəli, "Exo Moskvı"nın efirindən özünü, guya, müstəqil müşahidəçi kimi göstərən H.Kasparov Rusiyanın Ermənistanla bağlı siyasi narrativini vurğulayaraq, Qarabağ münaqişəsindən söz açır, tarixin təhrifinə girişir, bu yolla erməni elektoratına təsir göstərmək məqsədi güdür. Kasparovun münaqişəni əsaslandırmaq üçün ortaya atdığı ilk tezis isə qondarma "erməni soyqırımı"dır.

Sən demə, Osmanlı dövlətində "həyata keçirilmiş "erməni soyqırımı" gələcək hay nəsillərinin genefonduna təsir göstəribmiş. Kasparov bu sərsəmləməsi ilə kifayətlənmir, eyni zamanda, bildirir ki, "soyqırımı" bütün türkdilli məmləkətlərdə məskunlaşmış ermənilərin düşüncələrində travma buraxmış faktordur. Belə çıxır ki, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, yaxud Türkiyənin özündə yaşayan hansısa erməni daim soyqırıma məruz qalmaq təhlükəsini hiss edir. Bundan böyük cəfəngiyyat ola bilməz ki, görünür, "ağıllı" Kasparov üçün təxribatçı daşnak təfəkkürünün ən mücərrəd guşəsini işə salmaq çətinlik törətmir.

Ənənəvi daşnak-hay təbliğatı erməniləri yaşadığımız regionun aborigen sakinləri kimi görür. Kasparov bu tezisi bir kənara qoyur, deyir ki, min il əvvələ nəzər salmaq lüzumsuzdur. Niyə? Çünki ona "Rusiyanın köməyi ilə Qafqazda məskunlaşmış erməni" amilini qabartmaq lazımdır. On il bundan əvvəl Kremlə, Putin iqtidarına qarşı qatı müxalifətdə olan, bu gün isə özəl maraqları naminə Moskvanın Ermənistan ssenarisinə züy tutan xorun solistinə çevrilmiş Harri Kasparovun sözlərinə görə, ermənilər ruslar tərəfindən köçürüldükdən sonra bölgə əhalisinin 90 faizini təşkil ediblərmiş. Reallıq isə tamamilə başqadır.

### Tarix yamaq götürmür

Məsələ ondadır ki, ermənilər Cənubi Qafqaza məhz Türk dünyasını parçalamaq üçün yerləşdirilmişdilər. 1828-ci ilin Türkmənçay müqaviləsindən sonra 1830-cu ildən başlayaraq gerçəkləşdirilmiş bu siyasət nəticəsində ermənilərin sayı tədricən artırılmış, bu, türk-müsəlman əhalinin sıxışdırılması hesabına olmuş, nəticə etibarilə bölgədə etnik tərkib dəyişdirilmişdi. Nəhayət, Çar Rusiyanın 1897-ci il siyahıyaalmasında ermənilərin yalnız İrəvan quberniyasındakı sayı 50 faizi ötmüşdü. Yəni hələ bu cür ciddi dəstək qarşılığında belə, ermənilərin mütləq say üstünlüyünü təmin etmək mümkün olmamışdı. Kasparovun əsl cəfəngiyyatı isə daha sonra dedikləridir.

Deməli, 1918-ci ildə Azərbaycanın əzəli torpaqları hesabına formalaşmış Ermənistan dövlətini bir kənara qoyan "Qarik" birbaşa sovet dövrünə keçid alıb və bildirib ki, guya, bolşevizmin lideri Lenin Türkiyə ilə ittifaq münasibətlərində olduğundan, Azərbaycana ərazi güzəşti ilə razılaşıb. Söhbət isə Naxçıvandan və Qarabağdan gedir. Sən demə, bu iki bölgənin Azərbaycana verilməsi, Kasparovun təbirincə desək, minalı sahə yaradıb.

Maraqlıdır ki, siyasətçi olmaq xəyalına düşmüş şahmat qrossmeysteri sovet Rusiyası, yəni Leninlə Mustafa Kamal Atatürk Türkiyəsinin yaxınlığının Azərbaycana ərazi güzəşti barədəki ağ yalanını Stalinin dövrünə də daşıyıb. Guya Stalin də Azərbaycana ərazi veribmiş. Halbuki, 1918-1920-ci illərdə



mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti işğala məruz qalanda, daha doğrusu, Azərbaycan Sovetlər Birliyinə qoşulanda ərazisi indikindən çox, Ermənistanın ərazisi isə indikindən az olmuşdu. Reallıq budur ki, 1920-ci ildən 1969-cu ilin mayınadək məhz keçmiş SSRİ rəhbərliyinin qeyri-qanuni əməlləri nəticəsində Ermənistan SSR-in ərazisi Azərbaycan SSR-in ərazisi hesabına böyümüşdü. Bu baxımdan yalnız 1929-cu ildə Ermənistan SSR tərkibində Mehri rayonunun yaradıldığını vurğulamaq bəs edər. Məhz bu rayonun formalaşdırılması ilə Naxçıvan eksklava çevrilmiş, bölgə ilə quru əlaqəmiz itmişdi.

XIX əsrin ikinci yarısında Cənubi Qafqazın demoqrafik mənzərəsinin Çar Rusiyasının köçürmə siyasəti ilə dəyişdirildiyini görürüksə, eyni siyasətin müəyyən korrektələrlə sabiq SSRİ dövründə də həyata keçirildiyi birmənalıdır. Sovetlər Birliyi rəhbərliyi, hətta, Bakının özündə belə ermənilərin say üstünlüyünə çalışmışdı ki, Kasparov məhz bu siyasət nəticəsində paytaxtımızda peydahlanmış şarlatanlardandır. O şarlatan ki, sonradan üzümüzə durdu. Halbuki, onun SSRİ miqyasında itib-batmamasında, şahmat tacı uğrunda savaşa çıxmasında ulu öndər Heydər Əliyevin müstəsna rolu olmuşdu...

Bəli, Heydər Əliyevin Azərbaycanda rəhbərliyə başlaması ilə ermənilərə torpaq hədiyyələrinin qarşısı alınmışdı. Bu dahi şəxsiyyət, respublikamıza başçılıq etdiyi illərdə dəfələrlə Qarabağda erməni fitnə-fəsadının qarşısını almış, habelə, reallaşdırdığı fəaliyyət kursu ilə bölgənin Azərbaycana məxsusluğu ideyasını möhkəmləndirmişdi. Təsadüfi deyil ki, məhz Ulu öndərin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra hay millətçilərinin Qarabağ avantürasına start verilmişdi. Əlbəttə, "Exo Moskvı"da sərsəmləyən Kasparov bu məqamın da üzərindən keçir və Qarabağla bağlı Sumqayıt səbəbi uydurmağa girişir. Yada salaq ki, Harri oxşar yuxunu əvvəllər də danışıb. Onun söylədiklərindən belə çıxır ki, Qarabağ münaqişəsinin yaranma səbəbi Sumqayıtla yanaşı, Gəncədə və Bakıda törədilmiş erməni qırğınlarıdır. Halbuki, əsl həqiqət başqadır.

Birincisi, erməni millətçilərinin Qarabağ avantürası daha əvvəldən start götürmüşdü. Bölgənin Azərbaycandan alınıb Ermənistana verilməsinin vacibliyini əsaslandırmaq üçün bu iki xalqın birlikdə yaşamasının mümkünsüzlüyü "sübuta yetirilməli" idi. Məhz buna görə də keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi qurumdakı daşnaklarla birgə Sumqayıtda qırğın planı hazırladı. Şəhərdə erməni millətçiləri tərəfindən sadə ermənilərə qarşı zorakılıq həyata keçirildi, öldürülənlər və yaralananlar oldu. Özü də o ermənilər öldürüldülər ki, onlar Qarabağ avantürası naminə, loru dildə desək, əllərini ciblərini salmaqdan imtina etmişdilər.

İkincisi, Qarabağ məsələsinin başlanğıcını məhz Sumqayıt hadisələri ilə bağlamaq birbaşa Kreml tərəfindən ortaya atılmış tezisdir. Yada salaq ki, bunu Rusiya Prezidenti Vladimir Putinin özü də 2023-cü ilə qədərki çıxışlarının birində dilə gətirmişdi. Həmin vaxt rəsmi Moskva Qarabağın statusu məsələsini sonraya saxlamaq ideyasını ortaya atmışdı ki, bu, faktiki olaraq, bölgədəki separatçı rejimin mövcudluğunu saxlamaq məqsədi daşımış, ancaq Azərbaycanın qətiyyəti və iradəsi sayəsində Kremlin istəyi puça çıxmışdı.

### SSRİ-nin dağılması labüd idi

Ümumən, Rusiyanın ATƏT-in artıq canını tapşırmış və Qarabağ üzrə danışıqlar formatı kimi seçilmiş Minsk qrupundakı fəaliyyəti status-kvonu qorumağa hesablanmışdı. Aydın idi ki, bu, yekunda ölkənin Cənubi Qafqazda təsir dairəsini saxlamaq planının tərkib hissəsi, böyük anlamda isə imperiya siyasətinin nəticəsi idi. Hazırda belə bir siyasət iflasa uğramış durumdadır.

Əlqərəz, "Exo Moskvı"nın tribunasından sərsəmləmələrini davam etdirən H.Kasparov misli görünməmiş həyasızlığa da baş vurub. O, 1990-cı ildə keçmiş SSRİ-də qəbul edilmiş qanuna istinad edib. Söhbət "SSRİ-dən müttəfiq respublikanın çıxması ilə bağlı məsələlərin həlli qaydası haqqında" (О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР) əhəmiyyətsiz kağız parçasından gedir. Daha doğrusu, sənəddəki muxtar respublikaların SSRİ-dən çıxma qaydasından. Həmin müddəada bildirilirdi ki, əgər ayrılmaq istəyən respublikanın tərkibində muxtar respublika, muxtar vilayət və ya muxtar dairə varsa, orada ayrıca referendum keçirilməli idi. Bu ərazilərə imkan verilirdi ki, onlar müttəfiq respublikadan ayrılıb SSRİ-nin tərkibində qalsınlar, ya da öz müqəddəratını müstəqil təyin etsinlər.

Aydın idi ki, 1990-cı il qanunu nəhəng imperiyanı parçalanmadan xilas etmək yönümlü aciz cəhd idi. Elə bir cəhd ki, prinsip etibarilə "boşanma"nı çətinə salır, hətta mümkünsüzləşdirirdi. Axı bir respublikanın tərkibindəki muxtar qurum nəyə görə ayrıca referendum keçirsin? Amma ermənilər Qarabağda belə bir referendumu düz-qoş etdilər. O referendum ki, orada Qarabağın azərbaycanlı əhalisi iştirak etmədi və beləliklə, 2023-cü ilədək mövcud olmuş separatçı qurum formalaşdı. O qurum ki, imperiyanın klassik "parçala və hökm sür" siyasətinin təzahüründən başqa bir şey deyildi və hazırda H.Kasparov kimi əbləh bu məsələni "Exo Moskvı"nın efirindən səsləndirirsə, eyni siyasətin yenidən işə düşdüyünü söyləmək mümkündür. Üstəlik, Prezident Putin Qarabağ səhifəsinin bağlanmadığına eyham vurursa, Rusiyanın Kasparov kimi buyruq qullarının ortaya düşmələri təəccüb doğurmamalıdır.

### DTK-nın Sumqayıt təxribatı

Onu da qeyd edək ki, saxtakarlıq və təhriflərlə zəngin müsahibəsində Harri Kasparovun Sumqayıt hadisələrindən söz açması onun yuxarıda haqqında söz açdığımız mənfur qanunun mübahisəli durum yaratdığı fikrini əsaslandırmaq istəyindən qaynaqlanır. O, deyir ki, belə durumlarda ilk qanı hansı tərəfin tökməsi önəmlidir. Əlbəttə, bu bədnam təfəkkür sahibi Sumqayıt olayları fonunda ilk qan tökənin azərbaycanlılar olduqlarını vurğulayır. Halbuki, belə yanaşmada da ağ yalan payı var.

Reallıq budur ki, Qarabağ münaqişəsinin aktiv, qanlı fazasının başlanğıcı və ilk insan itkiləri 1988-ci il fevralın 22-nə təsadüf etmişdi. Bundan iki gün əvvəl Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə verilməsi barədə qeyri-qanuni qərar qəbul etməsi regionda gərginliyi pik həddə çatdırmışdı. Bu qərara etiraz edən minlərlə azərbaycanlı Ağdamdan Xankəndi istiqamətinə dinc yürüşə başlamış, Əsgəran qəsəbəsi yaxınlığında yürüş iştirakçılarının qarşısı erməni silahlı qrupları və milis dəstələri tərəfindən kəsilmişdi. Tarixə "Əsgəran toqquşması" kimi düşmüş həmin hadisə zamanı iki azərbaycanlı gənc – Bəxtiyar Quliyev və Əli Hacıyev qətlə yetirilmişdilər. Sumqayıt hadisələri isə fevralın 27-29-da olmuşdu. Göründüyü kimi, Kasparov burada da manipulyativ yol tutur.

İlk qanın tökülməsindən söz düşmüşkən, ötən əsrin 60-cı illərində də erməni millətçiləri Qarabağda, konkret olaraq, Xankəndidə qanlı qarşıdurma törətmişdilər. Həmin vaxt, guya, erməni uşağını zorlayıb öldürmək kimi saxta ittihamlarla üzləşmiş üç azərbaycanlı məhkəmə binası qarşısında kütlənin hücumuna məruz qalmış və yandırılmışdı. Çox güman ki, Kasparov insanı diri-diri yandırmağı qan tökmək saymayacaq qədər ermənilik etməyə qadirdir.

Digər tərəfdən, bəlkə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Lənkəranda, Qubada, Şamaxıda və başqa bölgələrimizdə soyqırımı siyasətini gerçəkləşdirən, bu yolla bölgənin etnik tərkibini ermənilərin xeyrinə dəyişdirmək kimi azğın və qəddar planı gerçəkləşdirməyə cəhd göstərən daşnak-bolşevik quldurları olmamışdı. Yəni Kasparovun, belə demək mümkünsə, qan yaddaşını hər cür təzələyə bilərik. Onun ən böyük həyasızlığı isə məhz haqqında söz açdığımız qanunu əsas götürüb Azərbaycanın suverenliyinin, guya, şübhəli xarakter daşıması ilə bağlı dedikləridir.

Aydındır ki, Kasparovun sonuncu sərsəmləməsi də otuz ilə yaxın müddətdə Ermənistan rəhbərliyinin ideoloji xəttində başlıca halqanı təşkil edib. Yəni rəsmi İrəvan ondan Qarabağ ermənilərinin öz müqəddəratlarını təyinetmə hüququnun mövcudluğu kimi "yararlanıb" və məsələ Rusiya tərəfindən də dolayı yollarla müdafiə olunub.

### Erməni elektoratı sülhə səs verəcək

Haşiyə çıxaq ki, Rusiya siyasi düşüncə sisteminin İrəvan-Ankara normallaşması ilə bağlı da baxışı var. Həmin baxışa əsasən Ankara 1915-ci il qondarma "erməni soyqırımı"nı rəsmən tanımayanadək, Türkiyə-Ermənistan münasibətləri qaydasına düşə bilməz. Harri də sərsəmləməsinə bu yaramaz tezisi əlavə edib. Baxmayaraq ki, hazırda Ankara-İrəvan normallaşması xüsusunda nəzərəçarpacaq irəliləyiş var.

Sonda qeyd edək ki, keçmişin iyrənc klişelərini canlandırmağa çalışan Kasparovun meydana çıxmasının əsl səbəbinin Ermənistanda gələn ay keçiriləcək parlament seçkiləri olduğunu vurğuladıq. Əlavə edək ki, bu siyasi avantüristin Rusiyanın Ermənistanla əlaqəli narrativini gündəmə gətirməsi həm revanşist və şovinistlərin ideoloji tutacaq yerlərini möhkəmləndirməyə, həm də sülh və sabitliyə köklənmiş erməni elektoratının düşüncəsinə mənfi təsir göstərməyə, Paşinyan hakimiyyətini sadə ermənilərin dəstəyindən məhrum duruma salmağa hesablanıb. İnanmaq istərdik ki, belə ucuz siyasi gedişlərin heç bir təsiri olmayacaq və erməni xalqı qarşıdakı parlament seçkisində düzgün qərar qəbul edib sülhə, təhlükəsizliyə və qonşuluq münasibətlərinin bərpasını şərtləndirən əməkdaşlığa səs verəcək.

***XQ-nin Analitik Mərkəzi***

# Kreml miqrasiya qanununu sərtləşdirir

## *Rusiyadakı azərbaycanlı miqrantları nələr gözləyir?*



**Rusiya miqrasiya siyasətində yeni və daha sərt mərhələyə keçir. Dövlət Dumasında müzakirəyə çıxarılan son qanun layihələri göstərir ki, Moskva artıq miqrantları yalnız əmək bazarının iştirakçısı kimi deyil, həm də iqtisadi, sosial və siyasi nəzarət obyekti kimi qiymətləndirməyə başlayıb. Son aylar açıqlanan statistika və qəbul edilmək üzrə olan qanunlar Kremlin miqrasiya modelini kökündən dəyişdiyini göstərir.**

Dövlət Dumasından bu yaxınlarda bildirilmişdi ki, il ərzində 10 aydan az rəsmi işləyən miqrantların yaşayış icazəsi və müvəqqəti yaşamaq hüququ ləğv edilə bilər. Yeni təşəbbüsə əsasən, xarici vətəndaşlar yalnız ölkədə yaşamaqla deyil, həm də davamlı işləmək, vergi ödəmək və ailələrini minimum yaşayış səviyyəsində təmin etmək öhdəliyi ilə üzləşəcəklər. Bu, əslində, Rusiyanın miqrasiya siyasətində mühüm dönüş nöqtəsidir. Uzun illər postsovet məkanından gələn milyonlarla insan üçün əsas əmək bazarlarından biri olan Rusiya indi daha seçici və sərt modelə keçid edir. Əvvəllər əsas məqsəd ucuz əmək qüvvəsinin cəlb edilməsi idisə, hazırda prioritet dövlət nəzarəti, iqtisadi faydalılıq və siyasi loyallıqdır.

Bu siyasətin nəticəsi olaraq, 2026-cı ilin ilk rübündə 8 mindən çox yaşayış icazəsi ləğv edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 90 faiz artım deməkdir. Müvəqqəti yaşamaq icazəsinin verilməsi 27,5 faiz, daimi yaşayış üçün isə 27,8 faiz azalıb. Rəsmi rəqəmlər bu sərtləşmənin miqrasiya axınlarına birbaşa təsir etdiyini göstərir: həmin dövrdə Rusiyaya daxil olan miqrantların sayı 15 faiz azalıb.

Regionlar üzrə göstəricilər isə fərqlilik nümayiş etdirir. Məsələn, Xantı-Mansi Muxtar Dairəsinə daxil olan Yuqra regionunda 2026-cı ilin ilk rübündə sərhəd-keçid məntəqələri vasitəsilə ölkəyə daxil olan xarici vətəndaşların sayı 2025-ci ilin eyni dövrü ilə müqayisədə 34,4 faiz azalıb.

2025-ci ildə Rusiyada miqrasiya qeydiyyatına alınan xarici vətəndaşların sayı 12,9 faiz azalıb. Miqrasiya xidmətinin məlumatına əsasən, ölkəyə kənardan axın bir neçə hesabat dövrü ərzində ardıcıl şəkildə azalmaqda davam edir. Ən nəzərəçarpan azalma Surqut və Nijnevartovsk beynəlxalq hava limanlarında qeydə alınıb.

Bu statistika təsadüfi xarakter daşımır. Xatırladaq ki, son iki ildə Rusiya hakimiyyəti miqrantlarla bağlı onlarla yeni qanun qəbul edib. Bu qanunların əksəriyyəti nəzarət mexanizmlərinin gücləndirilməsinə, deportasiya əsaslarının genişləndirilməsinə və xarici vətəndaşların davranışlarının daha sərt şəkildə monitorinqinə yönəlib. Rusiya mediasında yayılan məlumatlara görə, deportasiya səbəblərinin sayı, demək olar ki, iki dəfə artırılır. İcazəsiz aksiyalarda iştirak, dövlət siyasətinə qarşı çağırışlar və hətta müəyyən siyasi mövqelər belə ölkədən çıxarılma üçün əsas kimi qiymətləndiriləcək.

Bu yanaşma göstərir ki, Kreml miqrasiya məsələsini artıq yalnız sosial və iqtisadi məsələ kimi deyil, milli təhlükəsizlik və siyasi sabitlik məsələsi kimi görür. Ukrayna müharibəsi fonunda daxili nəzarətin gücləndirilməsi bütün sahələrdə hiss olunur və miqrasiya siyasəti də bu tendensiyanın bir hissəsinə çevrilib. Yeni qanun layihələrində diqqətçəkən başqa məqam miqrant ailələrinin gəlirlərinə nəzarətin gücləndirilməsidir. Təklifə əsasən, miqrant özünü və ailəsini yaşayış minimumu səviyyəsində təmin edə bilmirsə, onun iş patenti və icazə sənədləri uzadılmayacaq. Bundan sonra isə həmin şəxsin 15 gün ərzində ailəsi ilə birlikdə ölkəni tərk etməsi tələb olunacaq.

Digər mühüm dəyişiklik isə maliyyə baryerlərinin yüksəldilməsidir. Mayın 4-də Rusiya hökuməti miqrasiya sahəsində dövlət rüsumlarının əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutan qanun layihəsini Dövlət Dumasına təqdim edib. Yeni təkliflərə görə, Rusiya vətəndaşlığının alınması üçün ödəniş 4 min 200 rubldan 50 min rubla yüksələcək. Müvəqqəti yaşamaq icazəsi üçün rüsum təxminən səkkiz dəfə artırılaraq 15 min rubla çatdırılır. Yaşayış icazəsinin alınması isə artıq 30 min rubla başa gələcək. Yaşayış icazəsinin dəyişdirilməsi üçün 6 min, şəxsiyyəti təsdiq edən sənədin itirilməsi səbəbilə müvəqqəti yaşamaq icazəsinin yenidən verilməsi üçün isə 5 min rubl tələb olunacaq.



Bununla bağlı **iqtisadçı-ekspert Mahir Zeynalov** XQ-yə bildirdi ki, bu qərarlar iqtisadi baxımdan diqqət çəkir: "Şübhəsiz ki, sanksiyalar, hərbi xərclərin artması və iqtisadi təzyiqlər fonunda Rusiya əlavə büdcə mənbələri axtarışındadır. Miqrasiya sistemi isə getdikcə daha çox gəlir gətirən sahəyə çevrilir. Eyni zamanda, yüksək rüsumlar aşağı gəlirli miqrantların hüquqi status əldə etməsini çətinləşdirir və beləliklə, ölkəyə yalnız iqtisadi cəhətdən daha "faydalı" hesab edilən əməkçi qüvvənin cəlb olunması məqsədi güdülür.

Lakin burada ciddi paradoks yaranır. Çünki Rusiya iqtisadiyyatı hələ də miqrant əməyindən böyük ölçüdə asılıdır. Tikinti, logistika, kənd təsərrüfatı, kommunal xidmətlər və ictimai iaşə kimi sahələrdə ciddi işçi çatışmazlığı mövcuddur. Hərbi səfərbərlik, demoqrafik geriləmə və əmək qabiliyyətli əhalinin azalması bu problemi daha da dərinləşdirib. Bu baxımdan sərt miqrasiya siyasəti qısa müddətdə ictimai dəstək qazansa da, uzunmüddətli perspektivdə iqtisadiyyatda əlavə problemlər yarada bilər".

Ekspert hesab edir ki, Moskvanın əsas məqsədi miqrant sayını tam azaltmaq deyil, onları daha idarəolunan sistemə salmaqdır: "Rusiya artıq "kütləvi əmək miqrasiyası" modelindən "filtrlənmiş və nəzarət olunan miqrasiya" modelinə keçməyə çalışır. Bu isə gələcəkdə daha çox ixtisaslı, daha çox vergi ödəyən və siyasi baxımdan passiv miqrantların seçilməsi deməkdir".

Yeni qaydalar Rusiyada fəaliyyət göstərən Azərbaycan vətəndaşlarına da ciddi təsir göstərəcək. Soydaşlarımızın əksəriyyəti ticarət, tikinti, xidmət və logistika sahələrində, həmçinin mövsümi işlərdə çalışdıqları üçün dəyişikliyə daha həssasdırlar. Ailə vəziyyəti və ya biznes maraqları səbəbindən mütəmadi olaraq Azərbaycana qayıdanların yaşayış icazəsinin, yaxud müvəqqəti yaşamaq hüququnun ləğv olunması riskini yaradır. Yeni qanunvericilik rəsmi məşğulluğun fasiləsizliyini və ildə 10 ay işləmə tələbini əsas şərt kimi irəli sürür. Rüsumların artması isə qanuni statusun qorunmasını maliyyə baxımından çətinləşdirəcək.

Bu sərtləşmə isə azərbaycanlı miqrantların Türkiyə, Avropa və Körfəz ölkələri kimi alternativ istiqamətlərə üz tutmasını sürətləndirə bilər. Rusiyada qalmağa davam edənlər üçün isə tam rəsmi məşğulluq və vergi intizamı artıq qaçılmaz zərurətə çevrilir.

Bütün bunlara baxmayaraq, Rusiyanın azərbaycanlı əməkçilərə olan ehtiyacı tam aradan qalxmır. Tikinti, logistika, ticarət və xidmət sektorlarında kadr çatışmazlığının davam etməsi Moskvanı çətin seçim qarşısında qoyur: bir tərəfdən miqrasiya nəzarətini sərtləşdirir, digər tərəfdən isə iqtisadiyyat üçün zəruri olan əmək qüvvəsini itirmək istəmir. Məhz buna görə də yaxın gələcəkdə Rusiyanın daha çox nəzarət edilən, seçilmiş və iqtisadi baxımdan "faydalı" hesab olunan miqrant modelinə üstünlük verəcəyi gözlənilir.

Beləliklə, Moskvanın son addımları göstərir ki, qarşıdakı illərdə Rusiya daha qapalı və daha sərt miqrasiya siyasəti yürüdəcək. Bunun iqtisadi nəticələrinin necə olacağı isə hələlik açıq qalır. Çünki bir tərəfdən Kreml miqrasiya axınını azaltmağa çalışır, digər tərəfdən isə ölkə iqtisadiyyatı milyonlarla xarici işçinin əməyinə ehtiyac duyur. Bu ziddiyyət yaxın illərdə Rusiyanın qarşılaşacağı ən mürəkkəb sosial-iqtisadi problemlərdən birinə çevrilə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Yeni Cənubi Qafqaz gerçəkliyi



## I MƏQALƏ

### Tomas Barakın “aprel tezisi”

İndi haqlı olaraq dünya mediası, o cümlədən Azərbaycan KİV-i ABŞ-ın Türkiyədəki səfiri, prezidentin xüsusi nümayəndəsi Tomas Barakın aprelin 28-də Qarsda keçirilən Gümrü-Qars dəmir yolunun bərpası və istismarı üzrə Ermənistan-Türkiyə birgə işçi qrupunun iclası ilə bağlı söylədiyi bir-iki fikri, demək olar ki, “mühüm aprel tezisi” kimi təqdim edirlər. Ən azından həmin fikirlərdə ehtiva olunmuş xoş və birləşdirici niyyət alqışa layiqdir. Son 300 ildə Cənubi Qafqazda gedən və dünyanın böyük güclərinin təsirinin çox olduğu proseslərin məntiqi prizmasında ABŞ-ın rəsmi təmsilçisi tərif edilə bilər. İki səbəbdən.

Birincisi, T.Barak Amerika da daxil olmaqla Qərbin böyük güclərinin əsrlərdir bu region istiqamətində yeritdikləri siyasətin 2020-ci ilin payızından başlayaraq iflasa uğradığını dərk etdiklərini incə və pozitiv auralı diplomatik dillə etiraf etmişdir.

İkincisi, “yeni Cənubi Qafqaz” ifadəsi kontekstində aparıcı yerli gücün ünvanını göstərmişdir: Azərbaycan Respublikası!

İkinci səbəb kimi göstərdiyimiz məqam sadəcə söz və ya kompliment deyildir – realpolitika müstəvisində davamlı və gərgin tempdə gedən regional proseslərin “geosiyasi, siyasi və hərbi anatomiyası”nın yığcam əksidir. Bu qənaəti sübut etmək üçün T.Barakın “aprel tezisi”nin semantikasına baxaq və onun fonunda regional geosiyasi proseslərin ümumi məntiqi işığında “aparıcı niyə Azərbaycandır?” sualına cavab axtaraq.

### “Sülh içində region”

T.Barakın fikrinin ümumi mətn mənzərəsi və əsas semantik anlamı Cənubi Qafqazın sülh içində yaşayacaq region kimi formalaşmağa başladığı ilə əlaqəlidir. Amerikalı diplomat gəldiyi qənaəti X-də yazdığı postda aşağıdakı kimi arqumentləşdirir: “Bu, regional kommunikasiyaların açılması və sülh üçün mühüm mərhələdir. Ermənistan və Türkiyə rəsmiləri Qarsda görüşərək, Gümrü-Qars dəmir yolunun təmiri üçün birgə işçi qrupunun yaradıldığını açıqladılar. Bu dəmir yolu regionu bir əsrdən çox müddət ərzində birləşdirən və sonuncu qatarın 1993-cü ilin iyul ayında Türkiyə-Ermənistan sərhədini keçənə qədər birləşdirən həyati əhəmiyyətli ticarət-tranzit xəttidir. Bu irəliləyiş “Tramp marşrutu” layihəsi və ABŞ Prezidenti Donald Trampın 2025-ci il avqustun 8-də Ağ Evdə ev sahibliyi etdiyi tarixi (Azərbaycan-Ermənistan) sülh sammitində müəyyən edilmiş vizyonu əks etdirir”.

Postda yer almış bundan sonrakı fikirlər diplomatın arqumentlərindən çıxardığı geosiyasi və siyasi xarakterli nəticələrdir. Öncə arqumentlərə nəzər salaq.

### Barakın arqumentləri

Birincisi, T.Barak məsələyə kommunikasiyaların açılmasının regional sülhün təminində mühüm mərhələ olması fonunda yanaşır.

İkincisi, həmin prosesdə Gümrü-Qars dəmir yolunun təmiri ilə bağlı qərarın qəbul edilməsini əhəmiyyətli addım hesab edir.

Üçüncüsü, bu qərarın Qarsda Türkiyə və Ermənistan rəsmilərinin görüşü nəticəsində alındığına xüsusi siyasi və geosiyasi məna verir.

Dördüncüsü, Gümrü–Qars dəmir yolu “həyati əhəmiyyətli tranzit xəttidir”, çünki “bu dəmir yolu regionu bir əsrdən çox müddət ərzində birləşdirən və sonuncu qatarın 1993-cü ilin iyul ayında Türkiyə–Ermənistan sərhədini keçənə qədər birləşdirir”.

Bu arqumentlərin bir-biri ilə semantik bağlılığı çox əhəmiyyətli bir siyasi məqamı aydınlaşdırır: Cənubi Qafqazda kommunikasiyaların açılması xoşniyyətli və səmimi rəsmi siyasi iradənin olduğu halda baş tutandır. O cümlədən Türkiyə və Ermənistan rəsmi dairələri bu hadisənin baş verməsini səmimi olaraq istəmişlər və həmin istiqamətdə addım atmışlar. Bu mənada, sonrakı mərhələlər üçün Azərbaycanın təşəbbüsləri ilə yanaşı, Gümrü-Qars dəmir yolunun təmiri regional sülh üçün bir rəmz ola bilər! Çünki bu istiqamətdə ilk təşəbbüs Azərbaycanın dəmir yolu vasitəsilə Ermənistana enerji və taxıl məhsulları göndərməsi ilə başlamışdır. Bu mənada, Gümrü-Qars onun davamıdır.

Eyni zamanda, burada Qars-Naxçıvan xəttini qətiyyən arxa plana atmaq olmaz. Ona görə ki, regional miqyasda həmin xəttin ümumi mənzərəsi belə alınır: Naxçıvan-Qars-Gümrü və sonra yenidən Azərbaycandan keçməklə (Gürcüstana da bir xətt ayrıla bilər) geniş məkana çıxış imkanları! Bununla regional kommunikasiya regionlararası və qlobal kommunikasiya şəbəkəsinin mühüm tərkib hissəsi halına gəlir.

Vurğulanan kommunikativ faktların fonunda regional miqyasda gözlənilən nəticələr nələr ola bilər? T.Barakın dediklərinə baxaq.

### Sabitlik və rifah

Amerikalı diplomat əmindir ki, bu proseslər “Türkiyə və Ermənistanın iqtisadiyyatlarını və xalqlarını yenidən birləşdirmək üçün”dür. Bu gedişatın arxasında duran siyasi iradə və onun başlıca məqsədi də belədir: “Prezident Trampın bölgədə sabitlik və rifaha sadiqliyinə uyğun olaraq, bir-birinə bağlı və sülh içində yaşayan yeni Cənubi Qafqaz yaranır”.

Buradan görünür ki, baş verən hadisələrin motivəedici faktoru Trampın bölgədə sabitlik və rifaha sadiqliyidir. Onun birbaşa təsiri ilə Cənubi Qafqaz ölkələri bir-birinə bağlanırlar və “sülh içində yaşayan yeni Cənubi Qafqaz yaranır!”.

Əlbəttə, Cənubi Qafqazda sabitlik və sülh yaranmışdır. Bu prosesə ABŞ kimi qüdrətli bir dövlətin müsbət təsirini də heç zaman kimsə inkar edə bilməz. Lakin bütün bu proseslərin əsas motivəedici faktoru ilə bağlı T.Barakın qənaəti ilə razılaşmaq çox çətindir. Çünki real olaraq Cənubi Qafqazda sabitlik və rifahın qalıcı sülh sayəsində bərqərar olması təməlində region dövlətlərindən birinin həlledici zəhməti, fəaliyyəti və çox cəsarətli müstəqil siyasi kurs yürütməsi dayanır. Bu, həm indi baş verənlərin əsl geosiyasi və siyasi mahiyyətini dərk etmək, həm də keçmişdə olan neqativ hadisələrin bir daha təkrarlanmaması naminə həqiqətləri aydınlaşdırmaq üçün vacib məqamdır. Konkret nələri nəzərdə tuturuq?

### Milli haqqımız və…

Son 300 il müddətində dünyanın böyük güclərinin Cənubi Qafqaz siyasətinin bir sıra özəlliklərini bu günün naminə bir daha xatırlamağa dəyər. “Böyük güclər” dedikdə, konkret olaraq ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Rusiya, Osmanlı və Səfəvini nəzərdə tuturuq. Bu qüvvələrin hər biri öz maraqlarını imperialist güc kimi güdmüşlər. Nəticədə, Səfəvi tamamilə parçalanmış, Osmanlı sıradan çıxarılmış, Cənubi Qafqaz ABŞ, Avropa imperialist gücləri və Rusiyanın vicdanına qalmışdır. Bu vəziyyətin geosiyasi faktları da aşağıdakı kimidir:

Cənubi Qafqazın ən böyük etnosu olan azərbaycanlılar (türklər və ona tarixi, siyasi, mədəni, mənəvi-əxlaqi qardaş olan, ortaq tale və qədəri əsrlərlə bölüşən etnik qruplar) tarixi coğrafi ərazilərini hissə-hissə itirmişlər, müxtəlif deportasiyalara və soyqırımlara məruz qalmışlar. Dövlətçiliklərinin ruhu əllərindən alınmış, başqalarının istəklərini yerinə yetirməyə məcbur edilmişlər. İkiyə parçalamışlar və Şimali Azərbaycanın neftini yadlar daşımış, milyardlar qazanmışlar. Lakin bu sərvətin əsl sahibi olan Azərbaycana çox cüzi yatırımlar etmişlər.

Bunlar həmin imperialist dairələrin Azərbaycan torpaqlarını (əsasən Qərbi Azərbaycanda olanları) güc və şantaj hesabına ermənilərə vermək əsasında qondarma “Ermənistan” dövləti yaratmaqla müşayiət olunmuşdur.

Bu, həm tarixi, həm də geosiyasi faktdır, kimsə gizlədə və ya ört-basdır edə bilməz. İndiki müsbət regional reallıqlar da bu faktı arxa plana ata və ya unutdura bilməz.

İndi həmin qlobal güclər gəlmişlər, bizə öz torpağımızda quraşdırdıqları ölkə ilə sülh yaratmağımızı təşviq edirlər. Onlar bütün bunları “böyük fəzilət”, “siyasi iradə”, “olmazın xeyirxahlıqla” etdiklərini aşılamağa çalışırlar.

Gürcüstanı da Azərbaycandan daim üstün tutaraq gah regionun siyasi-diplomatik, gah da mədəni mərkəzi etməyə çalışdılar. Xüsusilə çar Rusiyası və sovetlər bu istiqamətdə dəridən-qabıqdan çıxdılar. Əlbəttə, böyük Azərbaycan xalqı üçün Gürcüstan həmişə dost və çox yaxın ölkə olmuşdur və indi də elədir. Ancaq onun da bizə qarşı istifadə edildiyi inkar oluna bilməz! Müstəqil Azərbaycan Respublikası bu xətti də sındırdı!

Bütün bunların fonunda qlobal güclərin riyakarlıqları yenə də davam edir. Ancaq indi forması və məzmunu xeyli dəyişmişdir, çünki daim aşağılanan bir millət ayağa qalxıb onların əsrlərlə etdikləri neqativ əməlləri tarixin arxivinə atdı, ərazisinin şimal hissəsini tam azad edərək müstəqil dövlət kimi suverenliyini onun hər qarışında bərqərar etdi.

### Regional məsuliyyət

Regional miqyasda hər bir ciddi dəyişiklik bu hadisədən sonra başladı. Onun iki əlaməti Cənubi Qafqazda indiki sabitlik, rifah və sülh mühitinin yaradılması baxımından son dərəcə əhəmiyyətlidir.

Azərbaycan Prezidenti dövlətimiz üçün regional sülh və məsuliyyətin yüksək dərəcədə vacib olduğunu praktiki liderlik fəaliyyətində hər zaman nümayiş etdirmişdir. Azərbaycan müstəqil dövlət olaraq regional məsuliyyəti üzərinə götürdüyünü bəyan etdi və bu istiqamətdə qətiyyətli, davamlı addımlar atdı, indi də bu proses davam edir! Bununla bağlı faktlar çoxdur. Biz yalnız onlardan ikisini nümunə kimi göstərək.

### 2022-ci il: Cənubi Qafqazda əməkdaşlıq

Prezident İlham Əliyev ADA Universitetində 2022-ci il aprelin 29-da keçirilən “Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda çıxışı zamanı xüsusi vurğulamışdır: “…biz Qafqazda yeni eranı, sülh və əməkdaşlıq erasını fəal şəkildə təşviq edirdik. Nəhayət, biz bu yaxınlarda Ermənistandan müsbət cavab aldıq. Onların hökuməti Azərbaycanın irəli sürdüyü 5 təməl prinsipi qəbul etdi. Bu prinsiplər Ermənistanla sülh müqaviləsinin əsasını təşkil etməlidir”.

Fikirlərinə davam edərək dövlət başçımız başqa məqamı ifadə etmişdir: “Həmçinin Azərbaycanın təklifinə uyğun olaraq, Ermənistan sərhədlərimizin delimitasiya prosesinə başlamaq üçün Azərbaycanla birgə işçi qrupunun yaradılmasına, nəhayət, razılıq verib”.

Bu iki faktın işığında ölkə rəhbərinin prosesləri geosiyasi və siyasi kontekstlərdə ümumiləşdirməsi bugünkü reallıqlar prizmasında olduqca əhəmiyyətlidir. Prezident İlham Əliyev demişdir: “Fikrimcə, bunlar son hadisələrin mühüm təzahürüdür və onlar, həmçinin göstərir ki, hazırda, İkinci Qarabağ müharibəsindən ilyarım keçdikdən sonra Ermənistan rəhbərliyi və ümid edirəm ki, onun əhalisi sülhün zəruriliyini anlayır. Əgər sülh müqaviləsi imzalanarsa və həmin təməl prinsiplər həyata keçərsə, onda Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq. Niyyətimiz budur”.

Nəhayət, Qafqazda davamlı sülh məsələsində Azərbaycanın liderlik və dövləti iradəsi: “Hesab edirəm ki, nümayiş etdirdiyimiz və elan etdiyimiz addımlar Qafqazda sülhə töhfə vermək üçün iradəmizin bariz nümunəsidir. Biz Qarabağı yenidən qururuq, iqtisadiyyatımızı gücləndirmək üçün resurslarımızı səfərbər edirik, çünki onsuz gözəçarpan vəsaitləri ayırmaq asan olmaz. Eyni zamanda, biz Qafqazda sülh gündəliyini təşviq edirik. Hesab edirəm ki, bütün istiqamətlərdə təşəbbüs bizim əlimizdədir. Həmin təşəbbüs sülhə xidmət edir və etməlidir”.

İkinci fakt 2026-cı il martın 12-də “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusunda XIII Qlobal Bakı Forumunda Prezident tərəfindən səsləndirilmişdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycanın dinlərarası dialoq təşəbbüsü



**Mayın 13-də İstanbulda Avrasiya İqtisadi Zirvəsi çərçivəsində Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə G20 Dinlərarası Forum Assosiasiyasının prezidenti Kol Durham, Ekumenik Kilsəsinin baş Mitropoliti Emmanuel, Stirlinq Fondunun vitse-prezidenti Nikol Stirlinq və digər rəsmi şəxslər arasında görüş keçirilib.**

G20 Dinlərarası Forum Assosiasiyasının nəzdində Çoxdinli Məşvərət Şurasının təsis olunması haqqında geniş müzakirə aparılıb, üçtərəfli anlaşma memorandumu imzalanıb. Memoranduma əsasən, Qafqaz Müsəlmanları İdarəsi şurada təsisçi qurum kimi çıxış edəcək. Bu, Azərbaycanın dinlərarası dialoqa verdiyi töhfə baxımdan mühüm addım, eləcə də bu prosesdə yeni mərhələ kimi qiymətləndirilir.

Qafqazın şeyxi anlaşma memorandumunun imzalanmasının vacibliyini ifadə edərək deyib: “Bu gün mühüm sənədi imzalayırıq. G20 Dinlərarası Forum Assosiasiyası ilə artıq əməkdaşlıqla yanaşı, həm də Məşvərət Şurasının təsisçisi kimi çıxış edəcəyik”.

Görüşdə oktyabr ayında ABŞ-də keçiriləcək G20 Dinlərarası Forumuna hazırlıq, dəvət ediləcək qonaqlarla bağlı fikir mübadiləsi aparılıb.

***XQ***

# Səlibçi təfəkkürün çağdaş qəlibi

## *Parisin “binokl diplomatiyası” dirijorluğu neomüstəmləkəçiliyin davamıdır*

**Azərbaycan və Ermənistan liderlərinin 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişi paraflamalarına, ötən müddət ərzində şərti sərhəddə silahların susmasına, əsgərlərin kazarmalara qayıtmalarına, münasibətlərin nizama salınması yolunda müəyyən addımların atılmasına, bir sözlə, iki ölkənin, faktiki olaraq, 9 aydan çoxdur ki, sülh şəraitində yaşamasına baxmayaraq, bəzi dairələr hələ də, necə deyərlər, köhnə bayatıları oxumağa çalışırlar. Fransa Prezidenti Emmanuel Makron yenə belə dairələrin önündə getməyə uğursuz cəhdlər edir.**

Mayın 4-də Makron Ermənistanda dövlət səfərində “Avropa Siyasi Birliyi”nin VIII sammitində iştirak etdi. Həmin gün axşam onun şərəfinə verilmiş rəsmi ziyafət zamanı Makronun səsləndirdiyi fikirlər araqarışdırıcı xislətinə sadiq qaldığını göstərdi. Söhbət Makronun 2022-ci il oktyabrın 6-da Praqada keçirilmiş dördtərəfli görüşlə bağlı söylədiyi fikirlərdən gedir. O, ziyafətdə bunları demişdi: “Mən həmin gecədən heç nəyi unutmadım. Müharibənin başlanmasından cəmi 2 il keçmişdi. Vəziyyət son dərəcə qeyri-sabit idi və siz (Paşinyanı nəzərdə tutur–S.H.) ölkəniz üçün qərar qəbul edərkən böyük cəsarət nümayiş etdirdiniz. Amma bir sadə məqamı vurğulamaq istəyirəm. İlk növbədə, Fransa belə məqamlarda öz borcunu yerinə yetirib. Doğrudur, Avropada və başqa yerlərdə çoxları bizim Ermənistanı niyə qeyd-şərtsiz dəstəklədiyimizi anlamırdı. Əgər biz o zaman sizin yanınızda olmuşduqsa, bunun səbəbi həmin mövqenin ədalətli olması idi. Tarix boyu sizin ölkənizin və xalqınızın apardığı mübarizə həmişə ədalətli mübarizə olub – soyqırımına qarşı, işğallara qarşı və o çətin dövrdə ərazi bütövlüyünüzə və suverenliyinizə yönəlmiş təhdidlərə qarşı. Bizim sülh anlayışımız məhz beynəlxalq hüququn müdafiə olunduğu belə ədalətli mübarizələrin yanında olmaqdan ibarətdir...”.



Makron Fransanın “Ermənistanın aparmış olduğu ədalətli mübarizə”ni (?) müdafiə etdiyini qeyd etmiş, daha sonra “sənə hücum edilən bir vaxtda sülh istəmək böyük cəsarət tələb edir” kimi reallığa heç cür uyğun gəlməyən, əsassız cümlələr işlətmişdi. Gətirdiyimiz bu iqtibasdan göründüyü kimi, Makron uzun müddət oynadığı Ermənistanın siyasi mövqeyinin açıq müdafiəçisi rolunu davam etdirir. Onun çıxışında işlədilən “ədalətli mübarizə”, “sizə hücum ediləndə”, “Fransa sizin yanınızda idi” kimi ifadələr diplomatik balansdan uzaq olmaqla yanaşı, regionda onsuz da həssas olan sülh prosesinə ciddi zərbə vurur. Çünki BMT Təhlükəsizlik Şurasının daimi üzvü, veto hüququna malik dövlətin başçısının tərəflərdən birini açıq şəkildə “haqlı”, digərini isə dolayı formada “təcavüzkar” kimi təqdim etməsi danışıqlar mühitində etimadı sarsıdır və qarşıdurma ritorikasını gücləndirir. Makronun yanaşması xüsusilə ona görə təhlükəlidir ki, o, Cənubi Qafqazdakı mürəkkəb reallığı birtərəfli siyasi narrativlə əvəz etməyə çalışır. Halbuki bölgədə davamlı sülh yalnız beynəlxalq hüquqa, qarşılıqlı suverenliyə və balanslı diplomatiyaya əsaslana bilər. Fransa Prezidentinin emosional və qərəzli çıxışları Ermənistan daxilində revanşist dairələrin ruhlandırılmasına xidmət etdiyi də diqqətdən yayınmamalıdır.

*

Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdə belə düşüncədə olan qüvvələrə tutarlı cavablar verdi. Dövlətimizin başçısı yüksək siyasi mədəniyyət nümayiş etdirərək ad çəkməsə də, hər kəs onun kimi, kimləri nəzərdə tutduğunu dərhal anladı. Prezident bildirdi ki, bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik: “Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi”.

Dövlətimizin başçısının toxunduğu digər məsələ özü mülki adlansa da, yarımhərbi struktur olan Avropa İttifaqının Mülki Missiyasının bu gün də Azərbaycan–Ermənistan sərhədində keşik çəkmələri ilə bağlı oldu. Prezident onları haqlı olaraq dırnaqarası müşahidəçilər adlandıraraq dedi: “Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu “aqressiv, təcavüzkar Azərbaycan” Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq”.

Sülhün bərqərar olmasına baxmayaraq, hələ də Ermənistan ərazisində fəaliyyət göstərən avropalı müşahidəçilərin təhlükəsizlik təşəbbüsündən çox siyasi alət olduqları gün kimi aydındır. Xüsusilə Fransanın bu missiyanın əsas himayədarı kimi çıxış etməsi onun mahiyyəti ilə bağlı sualları artırır. Bu struktur praktikada regionda birtərəfli yanaşmanın elementinə çevrilib. Azərbaycanda təsadüfi deyil ki, buna uzun zamandır “binokl diplomatiyası” deyilir – sərhədə yaxınlaşıb müşahidə aparmaq adı altında siyasi mesaj vermək, informasiya toplamaq və Ermənistanda anti-Azərbaycan ovqatını qidalandırmaq cəhdləri açıq hiss olunur.

Makron administrasiyasının son illər nümayiş etdirdiyi xətt bu missiyanın neytrallığına inamı daha da zəiflədir. Rəsmi Paris bir tərəfdən özünü Bakı ilə münasibətləri qaydaya salmağa cəhd edən tərəf kimi göstərir, digər tərəfdən isə Ermənistanı “ədalətli tərəf”, bizi isə dolayı formada təhdid mənbəyi kimi təqdim edən ritorikadan istifadə edir. Bu yanaşma klassik səlibçi təfəkkürünün müasir siyasi forması təsiri bağışlayır: region xalqlarına bərabər tərəf kimi deyil, geosiyasi layihələrin obyekti kimi baxmaq cəhdi. Paralel olaraq Fransa Afrikada zəifləyən təsir imkanlarını kompensasiya etmək üçün Cənubi Qafqazda fəallaşmağa çalışır ki, bu da neomüstəmləkəçi siyasi davranış elementləri ilə müşayiət olunur.

Ən təhlükəli məqam isə budur ki, belə xarici dəstək Ermənistan daxilində revanşist qüvvələri ruhlandıra bilər. Əgər gələcəkdə hakimiyyətə daha radikal və avantürist dairələr gələrsə, sərhəddə yeni təxribatlar və ölkəmizə qarşı ərazi iddiaları istisna deyil. Azərbaycan isə dəfələrlə birmənalı şəkildə nümayiş etdirib ki, öz təhlükəsizliyi və suverenliyi məsələsində passiv mövqe tutmayacaq. Ölkəmizə qarşı real təhdid yaranarsa, Bakı beynəlxalq hüquqa əsaslanan zəruri və önləyici addımlar atmaq iradəsinə və imkanına malikdir. Regionda davamlı sabitlik isə yalnız qərəzsiz yanaşma və qarşılıqlı məsuliyyət şəraitində mümkündür.

***Səxavət HƏMİD***
***XQ***

# Heydər Əliyev müasir Azərbaycanın şanlı tarixini yaradan qüdrətli liderdir

**Bəşəriyyətin sosial-iqtisadi, mədəni tərəqqisini şərtləndirən əsas amillər sırasında şəxsiyyət amili həlledici yerə malikdir. Heç bir dövlətin, cəmiyyətin inkişafını dahi şəxsiyyətlərin həyat və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyil. Tarixin təlatümlü çağlarında məhz belə şəxsiyyətlər irəliyə çıxaraq öz liderlik və xilaskarlıq missiyasını yerinə yetirməklə həm öz xalqının, həm də bəşəriyyətin tarixində misilsiz iz qoyurlar. Belə tarixi şəxsiyyətlər, bir qayda olaraq, lideri olduğu xalqın gələcək inkişaf strategiyasını müəyyənləşdirməklə onun sonrakı taleyinin təyin edilməsi məsuliyyətini də öz üzərinə götürmüş olurlar.**



Bu mənada, XX əsr Azərbaycan tarixinin yetirdiyi ən parlaq və nadir şəxsiyyətlərdən biri olan xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın müstəqillik tarixində müstəsna rol oynamış və onun qorunub inkişaf etdirilməsində misilsiz xidmətlər göstərmişdir.

Azərbaycanın mürəkkəb keşməkeşli, eyni zamanda, şərəfli hadisələrlə zəngin olan çağdaş tarixinin çox böyük və mühüm hissəsi məhz Heydər Əlirza oğlu Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlıdır. Tariximizin ən təlatümlü, mürəkkəb dövrlərində Heydər Əliyev xalqına rəhbərlik məsuliyyətini və missiyasını öz üzərinə götürmüş, onun yaradıcılıq potensialını düzgün istiqamətləndirməklə, real faciələrdən və fəlakətlərdən qorumağa nail olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyevin mənəvi və siyasi varisi İlham Əliyevin qeyd etdiyi kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir".

Azərbaycan xalqının bəxti onda gətirib ki, Tanrı onun qismətinə dünyanın ən güclü şəxsiyyətlərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevi bəxş edib. Heydər Əliyev istər totalitar sovet rejiminin sərt qaydaları çərçivəsində, istərsə də müstəqil Azərbaycan dövlətinin ağır sınaqlarla üzləşdiyi bir şəraitdə millətin lideri kimi ona rəhbərlik məsuliyyətini öz üzərinə götürərək, milli lider statusuna və adına layiq olduğunu təsdiq etmiş, xalqın yaddaşında əbədi qalmaq hüququnu qazanmışdır.

Böyük intellektə, geniş dünya görüşünə, qeyri-adi rəhbərlik və idarəçilik qabiliyyətinə malik olan ulu öndər Heydər Əliyevin imza atdığı bütün qərarlar məhz Azərbaycanın gələcək sosial-iqtisadi, mədəni-mənəvi tərəqqisinin təmin edilməsinə yönəlmiş, dövlətimizin dünya birliyində layiqli yer tutmasına hesablanmışdır.

Ümummilli lider Heydər Əliyevin həyatı öz xalqına təmənnasız xidmətin bariz nümunəsidir. Harada fəaliyyət göstərməsindən, hansı vəzifə tutmasından asılı olmayaraq onun başlıca amalı doğma xalqının rifahı və maraqları olmuşdur.

Heydər Əliyev fəaliyyət göstərdiyi bütün dövrlərdə üzərinə götürdüyü missiyanı şərəflə daşımış, xalqını ən çətin və bəzi hallarda çıxılmaz vəziyyətlərdən xilas etmişdir. Onu bir lider kimi fərqləndirən əsas xüsusiyyətlərdən biri öz xalqına inanması və xalqının ona olan etimad və hörmətini uca tutması idi. Azərbaycan xalqı da, öz növbəsində, böyük övladına dəyər vermiş, tarixinin ən ağır anlarında ona üz tutmuş, öz nicat yolunu yalnız onda görmüşdür. Məhz bu qarşılıqlı inam və qarşılıqlı etimad, "Xalq-Heydər Əliyev" birliyi dövlətimizi və millətimizi ən ağır faciələrdən qorumuş, onu tərəqqi və rifah yoluna çıxarmışdır.

Əksər sovet rəhbərləri kimi, Heydər Əliyev də yüksək partiya və sovet orqanlarında vəzifələrə yüksələnə qədər xüsusi xidmət orqanlarında çalışaraq adi işçidən sovet respublikalarının birinin Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general-mayor rütbəsinə çatmışdır. Əyalətdə doğulub boya-başa çatmış bir gəncin bu orqanlarda ən yüksək vəzifəyə qədər çatmasında, ilk növbədə, Heydər Əliyevin şəxsi keyfiyyətləri, bilik və bacarıqları, peşəkarlığı mühüm rol oynamışdır. Bununla bağlı o, 2001-ci ildə verdiyi müsahibələrdən birində qeyd edirdi ki, "...Mən fəaliyyətimin ilk illərindən həmişə çalışqanlığımla, işə vicdanlı münasibətimlə fərqlənmişəm. Odur ki, məni cavanlıqdan ardıcıl sürətdə vəzifəyə irəli çəkirdilər. Xatirimdədir, mən hələ 1945-ci ildə leytenant rütbəsində dövlət təhlükəsizliyi orqanlarında bir bölmənin rəisi olarkən tabeliyimdə podpolkovniklər, mayorlar, kapitanlar vardı. Bilirsiniz, leytenant olaraq pillə-pillə irəliləyib general rütbəsinə çatmaq zabit üçün müstəsna haldır". Doğurdan da, sadə bir azərbaycanlının, müsəlmanın o dövrün reallıqları şəraitində təhlükəsizlik orqanlarında yüksək vəzifəyə gəlməsi həmin dövr üçün görünməmiş hadisə idi.

DTK-da işlədiyi müddətdə Heydər Əliyev təhlükəsizlik orqanlarının milli kadrlarla təmin edilməsi, milli ziyalıların (Bəxtiyar Vahabzadə, Xəlil Rza, Ziya Bünyadov və b.) təqib və təzyiqlərdən qorunması, milli şüurun möhkəmləndirilməsi istiqamətində mühüm işlər həyata keçirdi. Stalin repressiyalarına məruz qalmış insanların reabilitasiya olunmaları üçün ciddi addımlar atıldı. Eyni zamanda, Heydər Əliyevin Azərbaycan DTK-na rəhbərlik etdiyi dövrdə SSRİ-nin dövlət təhlükəsizliyinə qarşı xaricdən gələn təhdid və təxribatların, xüsusən ifrat millətçiliyin və separatçı meyillərin qarşısının alınması ilə bağlı operativ işlər də həyata keçirilmişdi. Məhz respublika DTK-nın sədri işləyərkən Heydər Əliyevin SSRİ-nin bir çox rəhbər xadimləri ilə, xüsusən o vaxt SSRİ DTK-nın sədri olan Yuri Andropovla sıx əlaqələri yaranmış, onun fəaliyyəti haqqında mərkəzdə çox yüksək fikir formalaşmışdı. Bütün bunlar onun gələcək siyasi karyerasına öz müsbət təsirini göstərmişdi.

1960-cı illər SSRİ-nin tarixinə nisbi siyasi sabitlik dövrü kimi daxil olsa da, bu illərdə Azərbaycan SSR-in sosial-iqtisadi vəziyyəti, əhalinin rifahı getdikcə pisləşirdi. İnkişafın bir sıra göstəricilərinə (milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, əmək məhsuldarlığına və s.) görə Azərbaycan SSR SSRİ-nin digər respublikalarından dəfələrlə geri qalırdı. 1969-cu ildə SSRİ-də ümumi məhsul 43 faiz artdığı halda, Azərbaycan SSR-də bu artım cəmi 22 faiz təşkil etmişdi. Bu göstərici bütün SSRİ respublikaları arasında ən aşağı göstərici idi. Ümumi məhsulun adambaşına düşən istehsal göstəricisi də başqa sovet respublikaları ilə müqayisədə ilbəil azalırdı. Azərbaycan SSR milli gəlirin həcminə görə Ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı.

Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Neqativ proseslərin iqtisadi və sosial tənəzzülün qarşısını almaq üçün Azərbaycan rəhbərliyində artıq köklü kadr dəyişikliklərinə zərurət yaranmışdır. Bu zərurət mərkəzdə–SSRİ rəhbərliyində də artıq dərk edilmişdir. Ona görə də hələ 1969-cu ilin əvvəllərindən Kremlin kuluarlarında Azərbaycandakı vəziyyət müzakirə edilir, respublikanın ovaxtkı rəhbəri Vəli Axundovun yerinə namizəd axtarılırdı. Həmin dövrdə kadr siyasəti ilə bağlı məsələlərdə həlledici mövqeyə malik SSRİ DTK-nın sədri, Siyasi Büronun üzvü Yuri Andropov Heydər Əliyevi yaxşı tanıdığından onun namizədliyini irəli sürmüşdü. Yuri Andropov Heydər Əliyevi Moskvaya dəvət edərək onunla söhbət aparmış və onun namizədliyinin daha münasib olduğunu bildirmişdir. Lakin Heydər Əliyev respublikada vəziyyətin ağır olduğunu, özünün bu vəzifəyə hələlik hazır olmadığını bildirərək təklifdən imtina etmişdi. Lakin görünür, mərkəzi hakimiyyət Heydər Əliyevlə bağlı artıq qəti qərara gəlmişdi. Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul plenumunda Heydər Əliyev KP MK-nın birinci katibi seçildi. Beləliklə, təqribən 13 il ərzində–1969-cu ilin iyulundan 1982-ci ilin noyabrına qədər Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etdi. Bir çox parametrlərinə görə bu illər Azərbaycanın siyasi və iqtisadi tarixində mühüm mərhələ təşkil edir.

Bu dövrdə Heydər Əliyev SSRİ rəhbərliyindəki böyük nüfuzundan və şəxsi əlaqələrindən istifadə edərək Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üçün Sovet İttifaqı hökuməti tərəfindən beş xüsusi qərarın qəbul edilməsinə və böyük həcmdə vəsaitin ayrılmasına nail oldu. Bu qərarlarda XX əsrin 70-80-ci illər arasında və daha sonrakı dövrdə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən iqtisadi və sosial siyasət nəticəsində uzunmüddətli geriliyə son qoyulmuş, iqtisadiyyatın əksər sahələrində dinamik artım əldə edilmiş, siyasi sabitlik təmin edilmişdi. Bu illər ərzində Azərbaycan SSR-də milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə, kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmışdır.

70-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elm və mədəniyyəti də özünün ən yüksək inkişaf səviyyəsinə qalxdı. Bu dövrdə ölkədə təhsil müəssisələrinin şəbəkəsi genişləndirilmiş, onların strukturunda mühüm dəyişikliklər baş vermiş, təhsilin forma və məzmunun yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmiş, əhalinin ümumtəhsil səviyyəsi sürətlə yüksəlmişdi. Elmin inkişafında çox böyük müsbət dəyişikliklər baş vermişdi. 70-ci illərdə Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması, elmi müəssisələrin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi gələcəkdə Azərbaycanın müstəqil inkişafı üçün zəruri intellektual zəmin yaratmışdı.

Bu dövrdə Azərbaycan SSR-in əldə etdiyi nailiyyətlər sovet rəhbərliyinin də diqqətini cəlb etmiş, respublika iki dəfə SSRİ-nin ali mükafatı olan "Lenin" ordeni ilə təltif edilmişdir.

O, 1982-ci ildə Moskvaya SSRİ ali siyasi rəhbərliyinə təyin olunarkən bizə çiçəklənən bir ölkə qoyub getmişdir. Bu uğurların əldə edilməsində xalqımız, birinci növbədə həmin dövrdə respublikaya rəhbərlik etmiş, Heydər Əliyevin fövqəladə və cahanşümul liderlik istedadına borcludur. Hələ o zaman sovet Azərbaycanına rəhbərlik etdiyi zaman bir çox siyasətçilər, analitiklər onun başqa sovet rəhbərlərindən fərqli mübarizliyi, kreativliyi, rejimin mahiyyətindən irəli gələn məhdudiyyətləri dəf edərək qarşıya qoyduğu məqsədlərə necə nail olmağın strategiya və taktikasına malik olan bir lider olduğunu sezmişlər.

Düzdür, o zamanlar yəni sovet dövründə hansısa liderin qeyri-adi idarəçilik keyfiyyətləri haqqında açıq danışmaq qəbul edilməsə də, siyasi kuluarlarda onun gələcəyin əsas fiqurlarından biri olacağı haqqında çox söhbətlər gedirdi. Bir sovet respublikası çərçivəsində xalqın sosial-iqtisadi problemlərini uğurla həll etməsi, qısa müddət ərzində öz respublikasını sovet respublikaları arasında öncüllər sırasına çıxarması onun liderik keyfiyyətlərinin heç də tam olmayan təzahürü idi. Sonrakı proseslər bunu bariz şəkildə təsdiq etdi. Heydər Əliyevin unikal idarəçilik qabiliyyəti, yüksək mənəvi və xarizmatik liderlik keyfiyyətləri onun sovet dövlət idarəçiliyinin zirvəsinədək yüksəlməyinə imkan vermişdir.

Yeri gəlmişkən, sovet rəhbərliyi Heydər Əliyevin Azərbaycanda apardığı siyasətin nəticələrindən təbii ki, xəbərdar idi və onun Moskvaya – SSRİ rəhbərliyinə gətirilməsi Kremldə geniş müzakirə olunurdu. Burada Sov.İKP MK-nın baş katibi L.Brejnevin mövqeyi, onun Heydər Əliyev ilə şəxsi tanışlığı (Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Brejnev Azərbaycana 3 dəfə səfər etmişdir), ona simpatiyası da mühüm amil oldu. Kadr siyasətində həlledici sözə malik olan Yuri Andropov da Heydər Əliyevin Moskvaya yüksək vəzifəyə təyin edilməsinin əsas təşəbbüskarlarından biri idi.

1982-ci ilin noyabrında Heydər Əliyev ilə bağlı siyasi qərar qəbul olundu. 59 yaşlı Heydər Əliyev Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O dövrdə SSRİ-nin siyasi elitasından yazan bir çox müəlliflər Heydər Əliyevin təyinatını Yuri Andropovun onu Nazirlər Sovetinin gələcək sədri kimi görməsi ilə əlaqələndirirdilər. Lakin SSRİ-də yazılmamış qanunlar da hökm sürürdü. Həmin qanunlara görə dövlətin və hökumətin başına keçən şəxs yalnız slavyan millətinin nümayəndəsi ola bilərdi. Elə belə də oldu. 1985-ci ildə N.Tixonovun istefasından sonra onun yerinə Qorbaçovun təkidi ilə N.Rıjkov təyin edildi. Bu təyinatı yalnız, Qorbaçovun Heydər Əliyev şəxsiyyətinə qarşı patoloji dözümsüzlüyünün bariz ifadəsi kimi izah etmək olar.

Sovet ali siyasi rəhbərliyində təmsil olunduğu 1982-1987-ci illərdə də Heydər Əliyev öz siyasi və mənəvi prinsiplərinə sadiq qalmış, Qorbaçovun və ətrafının şovinist, ermənipərəst siyasətinə qarşı daim etirazını bildirmiş, nə yüksək vəzifədə işlədiyi illərdə, nə də 1991-ci ilə qədər təqiblərə məruz qaldığı dövrdə öz xalqının maraqlarına heç vaxt xilaf çıxmamışdır. O, Kremldə çalışdığı dövrdə Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra qərarların qəbul edilməsinə nail olmuş, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkrli torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuşdur.

Həmin illərdə Heydər Əliyev yenə də öz fitri istedadı ilə insanlarda ruh yüksəkliyi yaratmaq, yeni işlərə həvəsləndirmək, novatorluq və kreativliyi ilə ətrafındakı inert rəhbərlərdən kəskin şəkildə fərqlənirdi. Məhz bu fərqləndirici xüsusiyyətlərinə görə Heydər Əliyev bir sıra xarici ekspertlərin diqqətini cəlb etmiş, bir sıra nüfuzlu nəşrlərdə onun haqqında yazılar dərc olunmuşdu. Təsadüfi deyildir ki, Çernenko və Andropovdan sonra o, sovet rəhbərliyinə ən layiqli namizəd hesab edilirdi. Lakin Qorbaçovun onun dünya və SSRİ məkanındakı formalaşmış yüksək nüfuzuna qısqanclıqla yanaşması, Heydər Əliyevin müstəqilliyi, baş verən proseslərə özünün fərqli münasibəti son nəticədə bu böyük şəxsiyyətin Kremldən uzaqlaşdırılmasına gətirib çıxardı. Lakin o tam şəkildə təcrid olunmasına baxmayaraq, Azərbaycanla bağlı proseslərə biganə qalmamışdır.

1990-cı ilin yanvarında Azərbaycan xalqının azadlıq hərəkatını boğmaq üçün Moskva Bakıya qoşun göndərərək qırğınlar törətdi. Kremlin bu hərəkətinə qarşı Heydər Əliyev kəskin etiraz etmiş, Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyinə gələrək öz mövqeyini bildirmişdir. Təqaüddə olmasına baxmayaraq, M.Qorbaçov Heydər Əliyevin Azərbaycandakı böyük nüfuzundan xəbərdar idi və respublikadakı qarşısıalınmaz prosesləri dayandırmaq üçün ona müraciət etməli olmuşdur. Lakin Heydər Əliyev öz mövqeyindən dönməmiş, xalqının yanında olduğunu bildirmişdir.

Ozamankı SSRİ və Azərbaycan SSR rəhbərliyinin siyasi təqib və təzyiqlərinə məruz qaldığına görə öz doğma vətəninə Naxçıvana pənah gətirdi. 1991-1992-ci illərdə müstəqillik əldə etmiş Azərbaycanda bəlkə də ən ağır vəziyyət Naxçıvanda yaranmışdır. Bu qədim türk diyarı Ermənistanın işğalı və real məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı. Belə bir ağır şəraitdə Naxçıvan bölgəsini Heydər Əliyevin dühası, dünya səviyyəsində etiraf olunan diplomatik və siyasi qabiliyyəti xilas etdi. Naxçıvana rəhbərlik etdiyi qısa müddət ərzində bütün siyasi, diplomatik imkan və vasitələrdən istifadə edərək Azərbaycanın bu kiçik torpağının yaşadığı problemləri bütün dünya ictimaiyyətinə məharətlə çatdırmağa nail olmuşdu.

Beləliklə, Heydər Əliyevin yüksək siyasi diplomatik və strateji keyfiyyətləri bu müqəddəs diyarı real işğal təhlükəsindən xilas etmişdi ki, bu isə onun xalqı qarşısında ən böyük xidmətlərindən biri olmaqla çox böyük tarixi hadisə idi. Yeri gəlmişkən, 1991-1993-cü illərdə dünya KİV-ində Heydər Əliyevin Naxçıvana məharətlə rəhbərlik etdiyini, onun çoxşaxəli fəaliyyətinin bu kiçik diyara sığmadığını etiraf edirdilər. Ölkədə baş verən sonrakı proseslər bu fikrin həqiqiliyini bir daha təsdiq etdi.

1993-cü ildə Azərbaycan parçalanmaq, dünya siyasi xəritəsindən bir müstəqil dövlət kimi silinmək təhlükəsi ilə üzləşəndə onu bu təhlükədən məhz Heydər Əliyev dühası xilas etdi. Öz müdrik qərarları ilə ölkəni vətəndaş qarşıdurmasından, etnik toqquşmalardan, siyasi xaosdan, iqtisadi böhrandan xilas edən və bütün dünyanın diqqətini Azərbaycana cəlb etməyi bacaran böyük siyasətçi, həm də Azərbaycanın ağır dərdi olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində siyasi, diplomatik və hərbi səciyyəli addımlar atmaqla gələcək qələbələrimizin əsasını qoydu.

Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi, yenilməz iradəsi sayəsində yaradılmış sabit, ictimai-siyasi vəziyyət Azərbaycan Respublikasının gələcək milli inkişaf strategiyasını müəyyənləşdirməyə, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına imkan verdi.

Bütövlükdə, ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə ölkənin iqtisadi inkişafının əsası qoyuldu, ordu quruculuğu sahəsində işlər sürətləndirildi, dövlətimizin suveren yaşayışını təmin edən layihələr həyata keçirildi. Azərbaycan regionda və dünyada baş verən mürəkkəb proseslər fonunda öz milli təhlükəsizliyini təmin etməklə dünya birliyinin bərabərhüquqlu üzvünə çevrildi.

Əcəl milli liderimizin qarşısına qoyduğu işləri başa çatdırmağa imkan verməsə də, bu müqəddəs vəzifələri yerinə yetirmək missiyası onun siyasi və mənəvi varisi, dövlət başçısı İlham Əliyevin üzərinə düşdü. İlham Əliyev prezidentliyi dövründə genişmiqyaslı fəaliyyəti, gördüyü işlər, əldə etdiyi böyük uğurlar onun bu missiyanı necə şərəflə yerinə yetirdiyinin əyani sübutudur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin müdrik və uzaqgörən sosial-iqtisadi inkişaf strategiyasının, mükəmməl islahatlar proqramının ardıcıl və yüksək səviyyədə davam və inkişaf etdirilməsi sayəsində Azərbaycanın öz tarixində görünməmiş tərəqqi yoluna çıxmasını təmin etmişdir. İqtisadi sahədə islahatlar prosesinin dərinləşməsi sosialyönümlü siyasətin miqyasını daha da gücləndirdi.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə demokratik inkişaf yolunda həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi kimi ölkəmizdə təkmil siyasi sistem bərqərar olmuş, hüquqi dövlət quruculuğu başa çatmış, milli təhlükəsizliyimiz və ordumuz yüksək səviyyəyə çatdırılmışdı. Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilmişdir. Bütün bunların nəticəsi kimi XXI əsrin II onilliyinin sonunda Azərbaycan iqtisadi, siyasi və hərbi cəhətdən güclü dövlət səviyyəsinə çatdırıldı. Artıq əsas vəzifə ölkənin ərazi bütövlüyünün təmin edilməsi məsələsi idi ki, Prezident İlham Əliyev bu vəzifənin də öhdəsindən ləyaqətlə gəldi. 44 günlük İkinci Qarabağ müharibəsində möhtəşəm qələbədən sonra Ermənistanın Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin tanınmasına məcbur edilməsi İlham Əliyevin hərbi diplomatik bacarığının daha bir nümunəsi oldu.

2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycan özünün tarixi əraziləri üzərində tam suverenliyini bərpa etməklə dünyada etnik separatizmi və münaqişələri tamamilə aradan qaldırmaq təcrübəsini nümayiş etdirdi.

Beləliklə, bu qələbə çox böyük dəyər kəsb etməklə yanaşı, Azərbaycan və bütövlükdə regionun gələcək inkişafına öz təsirini göstərmiş və göstərməkdədir.

Bu gün Prezidentimiz İlham Əliyevin və onun sadiq silahdaşı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan xalqı daha qüdrətlə və daha inamla irəliyə doğru addımlayır və ulu öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının həyata keçirilməsi istiqamətində daha möhtəşəm uğurlara imza atır. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin siyasi irsinə sadiqliyin, onun milli inkişaf strategiyasının uğurla həyata keçirilməsinin bariz nümunəsidir.

***Ədalət QASIMOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru***

# WUF13: Sahibkarlar və startaplar üçün yeni imkanlar

**3 gündən sonra–mayın 17-dən 22-dək Bakı şəhəri daha bir mötəbər tədbirə - Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) ev sahibliyi edəcək. WUF13 qlobal miqyasda dayanıqlı və innovativ şəhərsalma həllərinin müzakirə olunduğu, bu sahədə "yaşıl iqtisadiyyat" və dövlət-özəl sektor əməkdaşlığının prioritetləndirildiyi nüfuzlu platformadır. Bu tədbir yalnız şəhərsalma mütəxəssisləri üçün deyil, sahibkarlar və startaplar üçün də faydalıdır. Konfrans və sərgi ("Urban Expo") olmaqla iki hissədən ibarət forum biznes üçün nadir fürsət və imkanlar təqdim edəcək.**

Ölkəmizin biznes subyektləri və startaplar da WUF13-də fəal iştirak etməklə beynəlxalq təcrübədən yararlana, işgüzar əlaqələrini genişləndirə, məhsul və xidmətlərini qlobal auditoriyaya çatdıra bilərlər.

### Qlobal təcrübə və tərəfdaşlıq

WUF13 çərçivəsində təşkil olunacaq konfransda yerli və beynəlxalq ekspertlərin, dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə dayanıqlı şəhərsalma həlləri, "yaşıl iqtisadiyyat" və innovativ texnologiyalar mövzusunda geniş müzakirələr aparılacaq. Bunun sahibkarlar üçün faydaları beynəlxalq təcrübə və bilik mübadiləsi baxımından qlobal trendlərin, uğurlu layihələrin və innovativ həllərin öyrənilməsində özünü göstərir. Eyni zamanda, biznes şəbəkəsinin genişləndirilməsi yeni tərəfdaşlıqlar qurmaq və investisiya imkanlarını araşdırmaq imkanı yaradır. Beynəlxalq standartlara uyğunlaşma isə sahibkarlara biznes strategiyalarını qlobal bazara uyğun şəkildə təkmilləşdirməyə imkan verir.

Müxtəlif ölkələrdə təşkil olunmuş WUF-ların təcrübəsi göstərir ki, sahibkar və startaplar bu tədbirdə iştirak etməklə bir sıra müsbət geridönüşlər əldə edirlər.

### "Urban Expo": innovativ şəhərsalma həlləri

WUF13 çərçivəsində təşkil olunacaq "Urban Expo" sərgisi sahibkarlara innovativ məhsullarını, "ağıllı şəhər" texnologiyalarını və dayanıqlı inkişaf həllərini geniş beynəlxalq auditoriyaya təqdim etmək imkanı yaradacaq. Burada sahibkarlar beynəlxalq investorlar və tərəfdaşlarla birbaşa əlaqələr qurmaq, yeni bazarlara çıxış imkanlarını genişləndirmək, innovativ layihələrini tanıtmaq və qlobal auditoriya ilə paylaşmaq imkanı əldə edəcəklər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və WUF13 Əməliyyat Şirkətinin birgə əməkdaşlığı çərçivəsində sahibkarlar üçün WUF13-ün biznes üçün faydalarına dair "Bakı KOB evi"ndə məlumatlamdırma sessiyası təşkil olunub. KOBİA-nın təşkilatçılığı ilə forumun Biznes və İnnovasiya Mərkəzində mayın 21-də "Kiçik və orta bizneslərin dayanıqlı, inklüziv və davamlı şəhərlərin qurulmasında əsas iştirakçı kimi rolunun gücləndirilməsi" mövzusunda panel müzakirə təşkil olunacaq. Bu görüşün keçirilməsində məqsəd KOB-ların dayanıqlı şəhər inkişafında rolunun gücləndirilməsi, inklüziv və davamlı şəhər mühitlərinin formalaşdırılmasına töhfələrini artırmaqdır. Həmçinin "Urban Expo" sərgisində KOBİA və Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyasının birgə stendində tikinti və şəhərsalma sahəsində fəaliyyət göstərən sahibkarların məhsul və xidmətləri nümayiş olunacaq, eləcə də stenddə agentliyin sahibkarlara göstərdiyi dəstək və xidmətlər barədə forum müddətində məlumat veriləcəkdir.

### Biznes və İnnovasiya Mərkəzində təqdimatlar

Ümumilikdə, Biznes və İnnovasiya Mərkəzində "Şəhərsalma dəyər zəncirinin praktik tətbiqi" mövzusunda 15 sessiya keçiriləcək. Bu interaktiv sessiyalarda dayanıqlı şəhərsalma və layiqli mənzil təminatının tərəfdaşlar, şirkətlər və biznes assosiasiyaları tərəfindən həyata keçirilən real layihələr və təcrübələr sayəsində necə inkişaf etdirildiyi nümayiş etdiriləcək.

Özəl sektoru bütün müxtəlifliyi ilə əks etdirən mərkəz irimiqyaslı şirkətlərdən tutmuş




kiçik və orta bizneslər, startaplar və biznes assosiasiyalarına qədər geniş iştirakçı auditoriyasını ehtiva etməklə yanaşı, innovasiya, texnologiya və şəhərsalma problemləri ilə bağlı yeni yanaşmaları ön plana çıxaracaq. Mərkəz, həmçinin şəhərlər, investorlar və biliklərini təcrübədə tətbiq edən mütəxəssislər arasında mübadiləni təşviq edərək ideyaların icrayönümlü yanaşmalara çevrilməsinə və şəhərsalma üzrə dəyər zənciri sahəsində əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək.

Həmçinin Biznes və İnnovasiya Mərkəzində yeni yaradılmış şirkətlərin və gənc sahibkarların öz innovasiyalarını nümayiş etdirmələri üçün xüsusi məkan - Startap Pavilyonu təqdim olunacaq. Dünya üzrə 10 ölkədən seçilmiş 14 startap layihəsinin iştirakı etdiyi bu pavilyonun məqsədi yeni subyektlərin səsinə səs vermək və həm mənzil təminatının, həm də şəhərsalma problemlərinin həlli üçün miqyaslanan ideyaları ön plana çıxarmaqdır.

Sahibkarlar və startaplar WUF13-ün Biznes və İnnovasiya Mərkəzi və sərgi, ümumiyyətlə, forumun proqramı barədə ətraflı məlumat əldə etmək üçün linkə keçid edə bilərlər: https://wuf.unhabitat.org/main-events

Beləliklə, WUF13 şəhərsalma ilə bağlı yeniliklərin müzakirə olunduğu tədbir olmaqla yanaşı, həm də sahibkarlar və startaplar üçün qlobal trendlərlə tanış olmaq, innovativ ideya və məhsullarını təqdim etmək, yeni tərəfdaşlıqlar qurmaq, eləcə də dayanıqlı və "ağıllı şəhər" konsepsiyalarının inkişafında aktiv iştirak etmək üçün əlverişli platformadır.

*XQ*

**bp şirkəti Özbəkistan Respublikasının Şimali Üstyurd regionundakı 6 blok (Boyterak, Terengquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) üzrə hasilatın pay bölgüsü sazişinə qoşulduğunu açıqlayıb.**

# Özbəkistanla "neft" qardaşlığı

## *bp şirkəti də "Üstyurd" sazişinə qoşuldu*



Saziş Daşkənddə keçirilən "Özbəkistan Neft-Qaz Konfransı 2026" çərçivəsində Özbəkistan Respublikasının energetika naziri Jurabek Mirzəmahmudov, "Özbəkneftqaz" SC İdarə Heyətinin sədri Abduqani Sanginov, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli tərəfindən imzalanıb.

İmzalanma mərasimində çıxış edən Özbəkistan Respublikasının energetika naziri Jurabek Mirzəmahmudov bu layihənin həyata keçirilməsini ölkələrimizin rəhbərliyinin güclü siyasi iradəsi və hərtərəfli dəstəyi sayəsində mümkün olduğunu diqqətə çatdırıb. Bu səylərin qlobal investorlar üçün ən açıq və şəffaf şəraitin yaradılmasına yönəldiyini vurğulayan nazir deyib: "bp-nin Üstyurd regionunda hasilatın pay bölgüsü sazişinə qoşulması, sadəcə, bir kommersiya razılaşması deyil, bu, beynəlxalq investorların Özbəkistanda aparılan islahatlara və enerji sektorunun inkişafına yönəlmiş strateji kursumuza olan inamının birbaşa göstəricisidir".

SOCAR-ın prezidenti Rövşən Nəcəf Azərbaycan ilə Özbəkistan arasında enerji sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcək bu layihəni qardaş ölkələrin qarşılıqlı etimada, ortaq maraqlara və uzunmüddətli strateji hədəflərə əsaslanan münasibətlərinin bariz təzahürü kimi dəyərləndirərək bildirib: "Uzun illər ərzində SOCAR ilə sıx və səmərəli tərəfdaşlıq münasibətlərinə malik bp-nin bu layihəyə qoşulması birgə səmərəli fəaliyyətin təmin olunmasına geniş imkanlar açacaq. İnanırıq ki, SOCAR-ın və bp-nin enerji sektorundakı zəngin təcrübəsi, eləcə də "Özbəkneftqaz"ın imkanları və səyləri layihənin uğurla icrasına, həmçinin regionun enerji potensialının inkişafına mühüm töhfə verəcək".

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli isə deyib: "Özbəkneftqaz" və uzunmüddətli tərəfdaşımız olan SOCAR ilə yanaşı, Özbəkistandakı ilk layihəmizə qoşulmağımızdan çox məmnunuq. Özbəkistanın böyük resurs potensialına malik olduğuna inanırıq və bu layihəyə qoşulmağımızı ölkənin neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dəstək olaraq region üçün uzunmüddətli faydalar gətirmək imkanı kimi dəyərləndiririk. Bu hasilatın pay bölgüsü sazişinə qoşulmağımız, eyni zamanda, bp-nin uzunmüddətli artımına dəstək olaraq şirkətin öz geoloji kəşfiyyat portfelini daha da genişləndirdiyini göstərir".

"Özbəkneftqaz" SC İdarə Heyətinin sədri Abduqani Sanginov bp kimi qlobal bir iştirakçının Şimali Üstyurd bloklarında geoloji kəşfiyyat işlərinə qoşulmasını Özbəkistanın enerji sektorunun investisiyalar üçün çox cəlbedici olduğunu təsdiqlədiyini vurğulayıb. O, rəhbərlik etdiyi şirkətin təcrübəsinin bp və SOCAR-ın qabaqcıl texnologiyaları, bilik və səriştələri ilə birləşdirilməsinin regionun resurs potensialının maksimum səmərəliliklə açılmasına imkan verəcəyinə əminliyini ifadə edib.

Britaniya şirkəti SOCAR və "Özbəkneftqaz" SC-nin hər birindən 20 faiz iştirak payı almaqla bu hasilatın pay bölgüsü sazişinə 40 faiz payla qoşulub. Beləliklə, Şimali Üstyurd regionu üzrə hasilatın pay bölgüsü sazişində şirkətlərin iştirak payları bp – 40 faiz, "Özbəkneftqaz" SC – 30 faiz və SOCAR (operator) – 30 faiz olaraq müəyyənləşdirilib.

Qeyd edək ki, "Üstyurd" yataqlar bloku (və ya Üstyurd regionu) Özbəkistanın şimal-qərb hissəsində, Qaraqalpaqıstan Respublikasının ərazisində yerləşir. SOCAR və "Özbəkneftqaz" tərəfindən imzalanan hasilatın pay bölgüsü sazişi Boyterak, Terengkuduk, Birgori, Xaroy, Qaraqalpaq və Kulboy investisiya bloklarında geoloji-kəşfiyyat işlərinin aparılmasını nəzərdə tutulur. Bu region (xüsusilə də "Şərqi Üstyurd" hissəsi) yüksək neft-qaz potensialına malikdir. Buradakı yataqlar 3 min - 6 min 500 metr və daha çox dərinlikdə, Turan plitəsinin geoloji strukturunda yerləşir. Ümumilikdə, kəşfiyyat və hasilat işləri aparılan ərazi 1000 kvadratkilometrdən çox sahəni əhatə edir

Üstyurdda yerləşən yataqlar, xüsusilə Aşağı Surgil və digər sahələr Özbəkistanın karbohidrogen ehtiyatlarının artırılması üçün strateji əhəmiyyət kəsb edir. 2024-2025-ci illərdə aparılmış hesabatlara əsasən, Üstyurd regionunda yerləşən investisiya bloklarında, xüsusən də "Özbəkneftqaz" və beynəlxalq tərəfdaşların fəaliyyət göstərdiyi sahələrdə ilkin geoloji ehtiyatların yüksək olduğu güman edilir. İlkin proqnozlara görə, burada 100 milyon tona qədər neft və 35 milyard kubmetrdən çox təbii qaz ehtiyatının mövcudluğu ehtimal edilir. Artıq blokun 6500 metr dərinliyində böyük qaz yataqları da aşkar olunub.

Yeri gəlmişkən, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirib ki, 2027-ci ildə "Üstyurd"da qazılacaq ilk kəşfiyyat quyusunun gələcək işlərə çox böyük təsiri olacaq. Onun sözlərinə görə, quyuda kommersiya baxımından rentabelli karbohidrogen ehtiyatları aşkarlanarsa, bu, region üçün əhəmiyyətli hadisələrə gətirib çaxaracaq.

Xatırladaq ki, "Üstyurd" hasilatın pay bölgüsü sazişi isə 2025-ci il iyulun 24-də SOCAR, "Özbəkneftqaz" SC və Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında imzalanıb. Hazırda layihə SOCAR-ın operator olaraq həyata keçirdiyi seysmik tədqiqat işləri ilə ilkin mərhələdədir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Cəbrayıl və Zəngilanın beynəlxalq tranzit potensialı

## *Orta Dəhliz burada Zəngəzur marşrutuna qovuşacaq*



**Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın siyasi, sosial və iqtisadi tarixində mühüm yer tutan, müxtəlif mərhələlərdən keçmiş strateji regiondur. Bu ərazilər uzun illər boyu ölkənin tarixi, mədəni və iqtisadi potensialının ayrılmaz hissəsi olub.**

Lakin 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində region işğala məruz qalıb, yüz minlərlə insan doğma yurdlarından didərgin salınıb, şəhər və kəndlər viran edilib. Təxminən 30 il davam edən işğal dövrü Qarabağ və Şərqi Zəngəzurun inkişafını tamamilə dayandırmaqla yanaşı, bu əraziləri regionun ən böyük humanitar və ekoloji fəlakət zonalarından birinə çevirib.

2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün bərpası və 2023-cü ildə dövlət suverenliyinin tam təmin olunması ilə bölgədə yeni tarixi mərhələ başlayıb. Torpaqların geri qaytarılması ilə yanaşı, son bir neçə ildə dağıdılmış coğrafiya yenidən qurulur, sosial həyat bərpa olunur, həmçinin region ölkənin ümumi iqtisadi sisteminə inteqrasiya edilir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur hazırda Azərbaycanın ən böyük milli inkişaf layihəsinin mərkəzində dayanır.

2020–2026-cı illər ərzində işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması məqsədilə ümumilikdə 30,5 milyard manat vəsait ayrılıb. Bunun 22,3 milyard manatı 2020–2025-ci illəri əhatə edən dövrdə yönəldilib ki, həmin məbləğin də 18,5 milyard manatı birbaşa investisiya xərclərinin payına düşür. Dövlətin bu istiqamətdə maliyyə dəstəyi ardıcıl şəkildə davam etdirilir: 2025-ci il üçün 4,7 milyard manat, 2026-cı il üçün isə 3,5 milyard manat həcmində vəsait nəzərdə tutulub.

Azad edilmiş ərazilərdə "Böyük Qayıdış" proqramı çərçivəsində məskunlaşma prosesi də uğurla davam edir. Mayın 13-də növbəti köç karvanları Zəngilan şəhərinə və Cəbrayıl rayonunun Şükürbəyli kəndinə yola salınıb. Bu mərhələdə Zəngilan şəhərinə 59 ailə, ümumilikdə 235 nəfər, Şükürbəyli kəndinə isə 97 ailə, yəni 419 nəfər köçürülüb. Qeyd edək ki, mayın 10-da – Prezident İlham Əliyev Zəngilan şəhərində ilk yaşayış kompleksinə köçən ailələrlə görüşərək onlara mənzillərin açarlarını təqdim edib.

Bu hadisə uzun illərdən sonra Zəngilan şəhərinin öz doğma sakinlərinə yenidən qovuşmasının rəmzi kimi xüsusi əhəmiyyət daşıyıb. Bundan bir gün əvvəl isə Prezident İlham Əliyev və Mehriban Əliyeva Şükürbəyli kəndinə köç edən sakinlərlə görüşərək onların yeni yaşayış şəraiti ilə tanış olublar. Bu addımlar dövlətin "Böyük Qayıdış" siyasətinin mərhələli və sistemli şəkildə həyata keçirildiyini bir daha nümayiş etdirir. İşğaldan azad edilmiş ərazilərdə 40-dan çox yaşayış məntəqəsində 85 minə yaxın insan yaşayır. Bura doğma torpaqlarına qayıtmış keçmiş məcburi köçkünlərlə yanaşı, burada müxtəlif peşə sahələrində işləyən və təhsil alan insanlar da daxildir.

Dövlətin həyata keçirdiyi "Böyük Qayıdış" proqramı bu strateji yanaşmanın əsas sütunlarından biridir. Rəsmi məlumatlara görə, işğaldan azad edilmiş ərazilərdə artıq səkkiz şəhərin Baş planı, üç şəhərin Müfəssəl planı və 101 yaşayış məntəqəsi üzrə şəhərsalma əsaslandırmaları təsdiqlənib. Son 5 ildə Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər, Şuşa və digər azad edilmiş ərazilərdə görünməmiş miqyasda bərpa-quruculuq işləri aparılır.

Yeni avtomobil və dəmir yolları çəkilir, tunellər və körpülər inşa olunur, beynəlxalq hava limanları istifadəyə verilir, elektrik stansiyaları və su anbarları tikilir. Paralel olaraq, məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışı üçün müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, sosial xidmət mərkəzləri və istehsal müəssisələri yaradılır.

Regionun kənd təsərrüfatı, turizm, sənaye və logistika potensialı ölkənin uzunmüddətli inkişaf strategiyasında mühüm rol oynayır. Xüsusilə "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində burada günəş və hidroenerji layihələrinin həyata keçirilməsi Azərbaycanın enerji siyasətində yeni istiqamət müəyyən edir. Yaxın illərdə Qarabağ və Şərqi Zəngəzurun zəngin Günəş və su ehtiyatları hesabına bölgənin elektrik enerjisi istehsalı potensialının 700 meqavata yaxınlaşacağı gözlənilir.

Artıq Zəngilan, Laçın və Kəlbəcərdə ümumi gücü 300 meqavatdan çox olan su elektrik stansiyaları istifadəyə verilib. Bununla yanaşı, Cəbrayılda ölkənin ən iri günəş enerjisi layihələrindən biri həyata keçirilir. Burada inşa olunan üç günəş elektrik stansiyasının ümumi gücü 340 meqavat təşkil edəcək. Bu layihələr Azərbaycanın enerji təhlükəsizliyinin gücləndirilməsinə, "yaşıl enerji" strategiyasının reallaşdırılmasına və bölgədə yeni məşğulluq imkanlarının yaradılmasına mühüm töhfə verəcək.

Yaşayış və təhsil infrastrukturunun mərhələli şəkildə bərpası ilə paralel olaraq, azad edilmiş ərazilərdə məşğulluğun təmin edilməsi də dövlət siyasətinin əsas prioritetlərindən biri kimi həyata keçirilir. Bölgəyə qayıdan vətəndaşların dayanıqlı məşğulluğunun təmin olunması məqsədilə həm dövlət sektorunda yeni iş yerləri yaradılır, həm də özəl təşəbbüslərin genişlənməsi üçün əlverişli şərait formalaşdırılır. Xüsusilə kənd təsərrüfatı sahəsində – heyvandarlıq, əkinçilik və bitkiçilik istiqamətlərində fəaliyyət göstərmək istəyən sakinlər üçün geniş imkanlar açılır.

Bununla yanaşı, regionun sənaye potensialının inkişafı istiqamətində də mühüm addımlar atılır. Cəbrayıl rayonunda fəaliyyət göstərən Araz Vadisi İqtisadi Zonası bu baxımdan strateji layihələrdən biridir. Ümumi sahəsi 200 hektar olan sənaye zonasında hazırda 20 rezident fəaliyyət göstərir və bir sıra müəssisələr artıq istehsal prosesinə başlayıb. Paralel olaraq, Ağdam Sənaye Parkı da regionun iqtisadi dirçəlişində mühüm rol oynayır. Parkda müxtəlif istehsal və xidmət müəssisələrinin yaradılması həm yeni investisiyaların cəlbinə, həm də yüzlərlə yeni iş yerinin açılmasına şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzur əlverişli coğrafi mövqeyi ilə seçilən, mühüm strateji əhəmiyyətli regiondur. Bu ərazi regiondaxili və beynəlxalq nəqliyyat bağlantılarının kəsişdiyi vacib məkanda yerləşərək böyük tranzit potensialı formalaşdırır. Xüsusilə Cəbrayıl və Zəngilan rayonları beynəlxalq nəqliyyat dəhlizləri baxımından xüsusi önəm daşıyır. Perspektivdə reallaşması nəzərdə tutulan Zəngəzur dəhlizi məhz bu ərazilərdən keçərək Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa nəqliyyat bağlantısı yaradacaq, eyni zamanda, regionun beynəlxalq logistika və tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Gələcəkdə Ermənistanla sərhəd kommunikasiyalarının açılması və Zəngəzur dəhlizi layihəsinin reallaşması Zəngilanın geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Bu halda Zəngilan Azərbaycanın iki qonşu dövlətlə birbaşa sərhəd-keçid imkanlarına malik nadir və strateji rayonlarından birinə çevriləcək. Belə bir coğrafi mövqe bölgəni təkcə milli deyil, həm də regional və beynəlxalq nəqliyyat-logistika sisteminin mühüm halqasına çevirir.

Zəngilanın üstünlüyü ondadır ki, o, eyni vaxtda bir neçə beynəlxalq nəqliyyat marşrutunun kəsişmə nöqtəsində yerləşir. Bir tərəfdən, bu ərazi Orta Dəhliz çərçivəsində Şərq-Qərb nəqliyyat xəttinin vacib hissəsi kimi Naxçıvan üzərindən Türkiyə və daha sonra Avropa bazarlarına çıxışı təmin edir. Digər tərəfdən isə Şimal-Cənub marşrutu vasitəsilə Ağbənd üzərindən İran və Fars körfəzi istiqamətinə uzanan yeni tranzit imkanları yaradır.

Bu nəqliyyat və logistika imkanlarının formalaşması Zəngilanı gələcəkdə beynəlxalq ticarət, yükdaşıma və investisiya axınlarının cəmləşdiyi strateji mərkəzə çevirə bilər. Başqa sözlə, Zəngilan yalnız Qarabağın bərpaolunan rayonlarından biri deyil, həm də Azərbaycanın yeni regional iqtisadi arxitekturasında xüsusi yer tutacaq əvəzolunmaz logistika və tranzit qovşağı kimi nəzərdə tutulur. Mövcud infrastruktur layihələrinin tempi və dövlətin uzunmüddətli planları göstərir ki, bu strateji baxış mərhələli şəkildə reallığa çevrilməkdədir.

*Musa BAĞIRLI*
*XQ*

# Aqrar sığorta heyvandarlığı da ziyandan qoruyur

**Son zamanlar ölkəmizin müxtəlif bölgələrində vəhşi heyvanların kəndlərə və təsərrüfatlara hücumlarının artması müşahidə edilir. Ayrı-ayrı rayonlarda vəhşi heyvanlar təsərrüfatlara hücum edərək heyvanları tələf edir və ya onlara ağır xəsarətlər yetirirlər. Hər il təkrarlanan və daha çox qış-yaz aylarında baş verən belə hallar vətəndaşlara, o cümlədən fermerlərə ciddi maddi ziyan vurur.**

Aqrar Sığorta Fondu fermer və təsərrüfat sahiblərinin nəzərinə çatdırır ki, Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi təsərrüfatları belə risklərdən qorumağa imkan verir. Bu mexanizm vasitəsilə bitkiçilik və balıqçılıqla yanaşı, heyvandarlıq təsərrüfatlarını da sığortalamaq mümkündür.

Qeyd edək ki, aqrar sığorta mexanizmi kənd təsərrüfatı heyvanlarını müxtəlif risklərdən, o cümlədən təbiət hadisələri, yoluxucu xəstəliklər, ilan və həşərat sancması, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri və digər hallardan sığortalayır.

Sığorta haqqının 50 faizini dövlətin qarşılaması nəticəsində fermerlər cüzi məbləğ ödəməklə təsərrüfatlarını sığorta edə bilərlər. Məsələn, 300 manatlıq xırdabuynuzlu heyvanın (qoyun və ya keçi) illik sığortalanması fermerə cəmi 7-11 manata, 1000 manatlıq mal-qaranın sığortalanması isə cəmi 24-39 manata başa gəlir. Bu məbləğlər heyvandarlıq təsərrüfatlarının ümumi xərcləri daxilində çox kiçik yer tutur və fermerlər üçün ciddi maliyyə yükü yaratmır.

Artıq təsərrüfatlarını sığortalayan fermerlər artıq aqrar sığortanın faydalarını görməkdədirlər.



Aqrar Sığorta Fondu fəaliyyətə başladığı dövrdən indiyədək heyvandarlıq sığortası üzrə, ümumilikdə, 3,5 milyon manat zərər ödənişi həyata keçirib və bu rəqəm gündən-günə artmaqdadır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin ilk 4 ayında zərər görmüş heyvandarlıq təsərrüfatlarına 230 min manat kompensasiya ödənilib.

Bu səbəbdən də Aqrar Sığorta Fondu fermerləri dövlətin yaratdığı bu imkandan yararlanmağa, heyvanlarını çoxsaylı risklərdən qorumaq üçün sərfəli şərtlərlə sığortalamağa çağırır.

*XQ*

*“Şəhərsalma və Memarlıq İli”*

# Şəhərlərin davamlı su təchizatında süni intellektin rolu

## *Söhbət “ağıllı şəbəkə”lərin qurulmasından və çevik istismarından gedir*

**Müasir dövrdə şəhərlərin inkişafı təkcə iqtisadi göstəricilərlə deyil, həm də insan sağlamlığına, həyat keyfiyyətinə və sosial rifaha göstərdiyi təsirlərlə qiymətləndirilir. Bu baxımdan, şəhərsalma siyasətində sağlam həyat mühitinin formalaşdırılması, ekoloji tarazlığın qorunması və “yaşıl” məkanların inkişafı əsas prioritet istiqamətlər olaraq dəyərləndirilir.**

Azərbaycanın inkişaf modelindən danışarkən, ilk növbədə, bu modelin əsasında dayanan siyasi kursa xüsusi önəm vermək zəruridir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası bu gün də ölkəmizin bütün sahələrində, o cümlədən şəhərsalma və memarlıq istiqamətində sistemli və dayanıqlı inkişafın təməlini təşkil edir. Bu siyasi kursu hazırda Prezident İlham Əliyev uğurla həyata keçirir.

Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində respublikada şəhərsalma və memarlıq sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir, müasir urbanizasiya prinsiplərinə uyğun yeni yanaşmaların tətbiqi diqqətdə saxlanılır. Bu islahatlar paytaxtla məhdudlaşmayaraq regionları da əhatə edir, ölkənin bütün ərazilərinin balanslı və davamlı inkişafını gerçəkləşdirir.



**Dövlət İdarəçilik Akademiyasının dosenti Elşan Əhmədov** söhbətimizin əvvəlində Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı çərçivəsində nəzərdə tutulan tədbirlərə toxunaraq sənəddə şəhər və ətraf mühitin regenerasiyası, ictimai yaşıllıq sistemlərinin inkişafı, açıq məkanların qarşılıqlı əlaqələndirilməsi, göl və sahilyanı ərazilərin bərpası, eləcə də müasir şəhərsalmada suyun davamlı idarə edilməsində süni intellektin rolu barədə ətraflı söhbət açaraq dedi:

**– 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi dövlətimizin başçısının bu sahəyə verdiyi yüksək önəmin və uzunmüddətli inkişaf strategiyasının bariz nümunəsidir. Müasir şəhərsalma yanaşmaları çərçivəsində şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi, insanların daha sağlam, rahat və dayanıqlı yaşayış şəraiti ilə təmin olunması məqsədilə ictimai istifadəyə yönələn ərazilərin artırılması və təbii mühitlə balansın qorunması qarşıda mühüm vəzifələr kimi durur.**

Şəhərlərin inkişafı prosesində açıq və yaşıl məkanların genişləndirilməsi, ictimai yaşıllıqların artırılması və təbii mühitlə balansın qorunması mühüm əhəmiyyət kəsb edir. Elmi tədqiqatlar da göstərir ki, şəhər mühitində hava çirkliliyinin azalması, yaşıllıq sahələrinin artırılması ürək-damar və tənəffüs xəstəlikləri ilə bağlı narahatlıqları xeyli azaldır. Şəhərsalmanın artıq birbaşa ictimai sağlamlıq siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasətinin növbəti uğurlu nəticəsi kimi 12 yanvar 2026-cı il tarixli sərəncamı ilə təsdiqlədiyi “Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı” təkcə paytaxtın su təsərrüfatının yenilənməsi deyil, eyni zamanda, ölkənin sosial rifahına, ekoloji təhlükəsizliyinə və şəhər infrastrukturunun müasir standartlara uyğunlaşdırılmasına xidmət edən strateji yol xəritəsidir.

Məlumdur ki, su ehtiyatlarının məhdudluğu və qeyri-bərabər paylanılması artıq qlobal miqyasda ciddi çağırışa çevrilib. Dünyada iqlim dəyişikliklərinin təsiri, quraqlıqların artması, əhali sıxlığının yüksəlməsi və sənayeləşmə suya olan tələbatı kəskin artırır. Xüsusilə yarımsəhra iqlim xüsusiyyətlərinə malik Abşeron yarımadası üçün su təminatı strateji təhlükəsizlik məsələsi hesab olunur. Bakı şəhərində sürətli urbanizasiyanın yaşanması, əhalinin sayının artması və tikinti sektorunun genişlənməsi su infrastrukturuna olan yükü daha da artırır.



Məhz bu reallıqlar fonunda qəbul edilən adıçəkilən Dövlət Proqramı əhalinin rifah səviyyəsinin yüksəldilməsi, fasiləsiz içməli su təminatının gücləndirilməsi, kanalizasiya və tullantı suları sisteminin müasir tələblərə uyğunlaşdırılması, intensiv yağışlar zamanı subasma narahatlıqlarının minimuma endirilməsi kimi məqsədləri özündə birləşdirir.

**– “Şəhərsalma və Memarlıq İli”, eləcə də ölkə rəhbərinin müvafiq sərəncamı ilə təsdiqlənən Dövlət Proqramı çərçivəsində respublikada ekoloji sabitliyin gücləndirilməsi və sosial rifahın daha da yaxşılaşdırılması məqsədilə həyata keçiriləcək layihələr barədə nə deyə bilərsiniz?**

– Əvvəlcə, onu deyim ki, Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılmaqla uzunmüddətli strateji hədəflər və icra mexanizmləri əsasında hazırlanan sözügedən Dövlət Proqramının icrası iki mərhələdə planlaşdırılır. 2026–2030-cu illəri əhatə edən bu dövrdə su təchizatı və kanalizasiya infrastrukturunun əsaslı şəkildə yenidən qurulması nəzərdə tutulur. Mövcud şəbəkələrin təmiri və yenilənməsi, su itkilərinin azaldılması, yağış sularının idarə olunması üzrə yeni mexanizmlərin tətbiqi və tullantı sularının təkrar istifadəsi üçün müasir texnologiyaların tətbiqi bu mərhələnin əsas prioritetləri sırasında yer alır.

Birinci mərhələdə mərkəzləşdirilmiş kanalizasiya sistemi olmayan ərazilərdə yeni infrastrukturun yaradılması xüsusi əhəmiyyət daşıyır. Bu addım təkcə şəhər mühitinin sanitariya səviyyəsinin yüksəldilməsi deyil, eyni zamanda, ekoloji tarazlığın qorunması və əhalinin sağlamlıq risklərinin azalması baxımından mühüm nəticələr vəd edir. Eyni zamanda, “ağıllı” su şəbəkələrinin qurulması, sensor sistemlər vasitəsilə su axınının izlənməsi və itkilərin vaxtında aşkarlanması proqramın innovativ yanaşmalarından biri kimi ön plana çıxır.

Sonrakı mərhələ 2031–2035-ci illəri əhatə edir. Bu dövrdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması, xidmət keyfiyyətinin yüksəldilməsi və müasir idarəetmə modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyənləşdirilir. Bununla yanaşı, yağış sularının təkrar istifadəsi üçün yeni layihələrin həyata keçirilməsi, kanalizasiya və tullantı sularının emal imkanlarının genişləndirilməsi məsələləri də prioritet istiqamətlər olaraq önə çəkilir.

Proqramın icrası nəticəsində içməli su mənbələrinin dayanıqlılığının artırılması, su anbarlarının, supaylayıcı şəbəkələrin inkişaf etdirilməsi, suyun uçot sisteminin təkmilləşdirilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi, alternativ su mənbələrinin istifadəyə cəlb olunması nəzərdə tutulur. Bu layihələrin gerçəkləşdirilməsi ilə mövcud sahənin texniki baxımdan yenilənməsi sürətlənir, eyni zamanda, ekoloji sabitlik güclənir və şəhər həyatının keyfiyyəti yüksəlir.

Bu gün su problemi getdikcə təkcə ayrı-ayrı ölkələrin deyil, həm də bütün dünyanın ümumi probleminə çevrilir. Su ehtiyatlarına tələbatın artması, iqlim dəyişiklikləri və qeyri-sabit yağıntı rejimi su sektorunda struktur problemlərini daha da kəskinləşdirir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, suyun səmərəli idarə olunması, tullantı sularının təkrar istifadəsi və yağış sularının təbii üsullarla yönləndirilməsi su təminatının davamlılığını artırmaqla bərabər, ekosistemlərin qorunmasında da mühüm rol oynayır. Məsələn, inteqrasiya olunan su resursları idarəetməsi modeli Niderland və İsveçrə kimi ölkələrdə uğurla tətbiq olunur. Burada çayların və yeraltı su ehtiyatlarının qorunması üçün müasir texnologiyalardan geniş istifadə edilir.

İsveçrə şəhərlərində isə “yaşıl” infrastruktur yaradılaraq yağış sularının təbii yollarla torpağa hopması təmin olunur. Kanadanın Toronto şəhərində tətbiq olunan “yağış bağları” layihəsi də uğurlu nümunələrdən sayılır. Bu layihənin reallaşması ilə yağış suları təbii üsullarla süzülərək yeraltı su ehtiyatlarına daxil edilir. Nəticədə, daşqın riski 30 faizə qədər azalır. Sinqapurun “NEWater” proqramının həyata keçirilməsi nəticəsində isə tullantı suları içməli su keyfiyyətinə çatdırılır və təkcə bunun hesabına ölkədə su tələbatı, təxminən, 40 faiz ödənilir. Bu yanaşma həm suya qənaət, həm də ekoloji davamlılıq baxımından müasir idarəetmə modelinin nümunəsi hesab edilir.

Bu məqamda, xatırladım ki, İsraildə tətbiq edilən “ağıllı su şəbəkələri vasitəsilə su itkilərinin kəskin şəkildə azaldılması bu sektorda texnologiyanın rolunu açıq şəkildə ortaya qoyur. Səudiyyə Ərəbistanı duzsuzlaşdırma texnologiyaları hesabına gündə milyonlarla kubmetr içməli su istehsal etmək imkanına malikdir. Yaponiya isə sızmaların aşkarlanması üzrə qabaqcıl texnologiyalar sayəsində su itkilərini 10 faizə qədər azaltmaqla dünyanın ən uğurlu nümunələrindən biri kimi tanınır.

**– Son illər süni intellektin su sektorunda tətbiq edilməsinin zəruriliyi barədə də müxtəlif fikirlər səsləndirilir…**

– “Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı” çərçivəsində innovativ yanaşmaların tətbiqi xüsusi önəm daşıyır. Bu baxımdan süni intellekt texnologiyalarının su təchizatı sisteminə inteqrasiyası gələcək üçün mühüm perspektivlər açır. Süni intellekt böyükhəcmli məlumatları analiz etmək, proqnozlar vermək və optimallaşdırma aparmaq qabiliyyətinə malik olduğuna görə su təsərrüfatında səmərəli idarəetmə mexanizminin əsas komponentinə çevrilə bilər. Başqa sözlə, ölkəmizdə aparılan irimiqyaslı islahatların məntiqi nəticəsi olaraq, sözügedən Dövlət Proqramı çərçivəsində su resurslarının davamlı idarə olunması prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu kontekstdə süni intellekt texnologiyalarının tətbiqi su təchizatının optimallaşdırılması baxımından innovativ yanaşma kimi xüsusi əhəmiyyət daşıyır.

Su tələbatının proqnozlaşdırılması bu sahədə əsas istiqamətlərdən biridir. Süni intellekt modelləri iqlim dəyişiklikləri, əhali artımı, sosial-iqtisadi göstəricilər və istehlak vərdişlərini nəzərə alaraq daha dəqiq proqnozlar təqdim etmək imkanına malikdir. Xüsusilə davamlı inkişaf yolu keçən ölkələrdə “LSTM” və “ARIMA” kimi süni intellekt modellərinin hazırda geniş tətbiq edilməsi ilə su tələbatının hesablanması bunun bariz ifadəsidir.

Digər mühüm istiqamət su itkilərinin aşkarlanmasıdır. Supaylayıcı şəbəkələrdə itkilər bir çox şəhərlərdə aktual problem olaraq qalır. Abşeron yarımadasında köhnəlmiş infrastruktur bu narahatlığı daha da artırır. Süni intellekt əsaslı anomaliya aşkarlama sistemləri sensor məlumatlarını təhlil etməklə sızmaları erkən mərhələdə müəyyənləşdirir. Bu yanaşma real vaxt monitorinqi və “IoT” texnologiyaları ilə birləşdirildikdə daha səmərəli nəticələr verir.

Enerji sərfiyyatının optimallaşdırılması da mühüm sahələrdən biridir. Nasos stansiyaları və su təmizləmə qurğuları yüksək enerji sərf etdiyindən süni intellekt alqoritmləri vasitəsilə enerji yükünün optimallaşdırılması sistemin ümumi səmərəliliyini artırmağa imkan verir. Genetik alqoritmlər bu istiqamətdə mühüm tətbiq imkanlarına malikdir.

Su keyfiyyətinin monitorinqi də ictimai sağlamlıq baxımından xüsusi əhəmiyyət daşıyır. Süni intellekt sistemləri suyun fiziki, kimyəvi və bioloji göstəricilərini analiz edərək çirklənməni erkən mərhələdə aşkar edə, risklərin qabaqcadan qarşısını ala bilir. Bu sahədə məlumatları strukturlaşdıran və axtarışları asanlaşdıran süni intellekt metodları daha geniş istifadə edilir.

Bundan əlavə, süni intellekt əsaslı qərar dəstək sistemləri strateji planlaşdırmanı asanlaşdırır, müxtəlif ssenariləri süni şəkildə yenidən canlandırılmaqla (simulyasiya) optimal qərarların qəbulunu gerçəkləşdirir. Bu isə Dövlət Proqramının icrasında şəffaflığın və səmərəliyin yüksəldilməsi üçün mühüm amil kimi çıxış edir.

Ümumiyyətlə, süni intellektin su idarəetməsində həm nəzəri, həm də praktiki əhəmiyyəti olduqca böyükdür. Bu texnologiya mürəkkəb sistemlərin idarə olunmasında böyükhəcmli məlumatların təhlili, proqnozlaşdırma və optimallaşdırma imkanları təqdim edir. Su təsərrüfatı sistemləri qeyri-xətt və çoxparametrli xarakter daşıdığı üçün süni intellekt alqoritmləri bu sistemlərin modelləşdirilməsində səmərəli vasitə kimi xüsusi diqqət çəkir. Süni intellekt vasitəsilə maşın və dərin öyrənmə yanaşmaları su sistemlərinin vəziyyətini təhlil etməyə, gələcək ssenariləri dəqiqliklə proqnozlaşdırmağa imkan verir.

Nəticə etibarilə, süni intellekt texnologiyalarının Abşeron yarımadası və Bakı şəhərinin su təchizatı sistemlərinə inteqrasiyası su resurslarının səmərəli və davamlı idarə olunmasını gerçəkləşdirə bilər. Süni intellektin müxtəlif istiqamətlər üzrə çoxşaxəli alqoritmlərindən istifadə etməklə su itkilərinin azaldılması, enerji səmərəliliyinin artırılması, su keyfiyyətinin yaxşılaşdırılması və qərar qəbuletmə proseslərinin optimallaşdırılması kimi mühüm nəticələrə nail olmaq mümkündür.

Bir sözlə, süni intellekt və “ağıllı” su şəbəkələri kimi innovativ texnologiyaların tətbiqi Azərbaycanın su sektorunu müasir idarəetmə modelinə uyğunlaşdıraraq dayanıqlı inkişaf məqsədlərinə xidmət edəcək. Bununla da paytaxtımızın ekoloji təhlükəsizliyi, şəhər həyatının keyfiyyəti və əhalinin sosial rifahı daha da yaxşılaşacaq.

***Söhbəti qələmə aldı:***
***Vaqif BAYRAMOV***
***XQ***

# QHT və media təmsilçilərinin WUF13-ə hazırlıqla tanışlığı




**Mayın 13-də Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) hazırlıq işləri ilə tanışlıq məqsədilə WUF13 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən qeyri-hökumət təşkilatları, media nümayəndələri və blogerlərin tədbir məkanına - Bakı Olimpiya Stadionuna səfəri təşkil edilib.**

Tanışlıq turunda WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov, QHT-lərə Dövlət Dəstəyi Agentliyi İdarə Heyətinin sədri Aygün Əliyeva, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, eləcə də yerli və xarici media qurumlarının və QHT-lərin rəhbərləri iştirak ediblər.

Əvvəlcə akkreditasiya mərkəzi ilə tanışlıq olub. Adil Məmmədov bildirib ki, Bakı Olimpiya Stadionu və ətrafını əhatə edən tədbirin ümumi əməliyyat sahəsi 53 hektardır. Onun sözlərinə görə, bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə nəqliyyat terminalı və parklanma-transfer zonası üçün ayrılıb. Belə ki, stadion zonalara bölünüb. A Zonası 5 küçədən ibarətdir, hər küçəyə Azərbaycanın müxtəlif şəhərlərinin adı verilib.

Məlumat verilib ki, forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiyanın, görüş və tədbirin keçirilməsi planlaşdırılır. Qeyd edilib ki, tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda, əlilliyi olan şəxslər üçün beynəlxalq işarət dili xidməti nəzərdə tutulub.

Bütün tədbir ərazisi üzrə 35-dən çox iaşə məntəqəsi nəzərdə tutularaq, məkanlar və açıq hava zonalarında yerləşdirilməklə iştirakçı axınının müxtəlif istiqamətlər üzrə paylanmasına və məkanda xidmət əlçatanlığının təmin olunmasına imkan verir.

“Media Mərkəzi”nin ümumi tutumu 600 nəfərdir.

Qeyd edək ki, WUF13 mayın 17-22-də keçiriləcək.

***XQ***

# Halal zəhmətin şirin neməti



**Arıçılıq sənəti bizə ata-babalarımızdan qalan daha bir faydalı məşğuliyyətdir. Tərtərin Soyulan kəndində yaşayan və uzun illər dövlət qulluğunda çalışmış Əskinaz Məmmədova son illər fəaliyyətini bu sahə ilə bağlayıb.**

Təcrübəli arıçı bildirdi ki, o, hər yaz mövsümündə bal yığır, bu balı süzüb saxlayır, yayı isə yaylaqlarda keçirir. Əfsuslar olsun ki, ötən il Əskinaz xanım üçün ağır sınaq olub. Müəmmalı şəkildə 165 arı ailəsi tamamilə məhv olub. O, bu kütləvi itkinin əsas səbəbini ətraf mühitdə kənd təsərrüfatında istifadə olunan kimyəvi pestisid və herbisidlərdə görür. Buna baxmayaraq, o, ruhdan düşməyərək arıçılıq fəaliyyətini davam etdirir.

Əskinaz xanım deyir ki, arıçılar həmişə ona kömək əlini uzadıblar. Respublikanın fərqli bölgələrində çalışan arıçılar ona pulsuz olaraq yeni arı ailələri hədiyyə ediblər. Hazırda Əskinaz xanım 65 arı ailəsinin qayğısına qalır. Müsahibimiz may ayının sonunadək ailələrin sayını 80-ə, gələn ilədək isə 165-ə çatdırmağı planlaşdırır. Dediyinə görə, bu dəstək ona yeni ruh və güc verib.

Qeyd edək ki, Dövlət Aqrar İnkişaf Mərkəzində baytarlıq xidmətləri, müasir laboratoriyalar mövcud olsa da, onlardan düzgün istifadə edə bilən kadr çatışmazlığı var. Nəticədə, arı xəstəliklərini vaxtında aşkar etmək mümkün olmur, arıçılar isə köhnə üsullarla müalicəyə məcbur qalırlar. Belə olan halda, pətəklərdə xəstəliyin aşkar olunaraq tədbir görülməsi qeyri-mümkündür. Arıçılar köhnə qaydalarla xəstəlikləri müalicə etmək məcburiyyətində qalırlar ki, bu da hər zaman effekt vermir. Əskinaz xanım deyir ki, o, əksər hallarda təbii vasitələrdən istifadə etməklə baş verə biləcək xəstəliyin qarşısını almağa çalışır.

Bal satışında da arıçılar problemlə üzləşirlər. Belə ki, bəzi işbazlar saxta balı alıcılara bir qədər ucuz təklif edərək xalis balın bazarını bağlayırlar. Əskinaz Məmmədova təklif edir ki, balın satışına dövlət nəzarət etsin, satış bir nöqtədən idarə olunsun, məhsulun keyfiyyəti yoxlanılsın və istehlakçılar balın mənşəyi və keyfiyyəti haqda məlumatlandırılsın.

Müsahibimiz vurğulayır ki, ölkəmizin torpaqları işğaldan azad olunduqdan sonra arıçılıq üçün yeni imkanlar yaranıb. Hər il 100 minlərlə arı ailəsi Laçın və Kəlbəcər yaylaqlarına köçürülür. Bu il mayın sonunda o, arıları Kəlbəcərin yüksək yaylaqlarına aparacaq, avqustun sonunda toplanmış balı süzəcək. Yaydan sonra arılar evlərinə geri qayıdacaq və qışlamağa hazırlıq işlərinə başlanacaq.

***Vəli VƏLİYEV***
***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 126** **1 may 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının 2.4-cü bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Mərkəzi Bankının təklifini nəzərə alaraq yaşıl və aşağı karbonlu iqtisadiyyata keçidin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları (qurumları) dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, publik hüquqi şəxslər bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən “Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası”nın həyata keçirilməsi istiqamətində aidiyyəti üzrə zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 127** **1 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, №5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, №1, maddə 80, № 2, maddə 178; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 119 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1511 90 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1511 90 190 | – – – digərləri | | |
| 1511 90 190 1 | – – – – netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | – | 15 (31.12.2030-cu il tarixinədək 0%) |
| 1511 90 190 9 | – – – – digərləri | – | 15 |

1.2. 1511 90 990 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1511 90 990 | – – – digərləri | | |
| 1511 90 990 1 | – – – – netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | – | 15 (31.12. 2030-cu il tarixinədək 0%) |
| 1511 90 990 9 | – – – – digərləri | – | 15 |

1.3. 1513 29 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1513 29 190 | – – – – digərləri | | |
| 1513 29 190 1 | – – – – – netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | – | 15 (31.12. 2030-cu il tarixinədək 0%) |
| 1513 29 190 9 | – – – – – digərləri | – | 15 |

1.4. 1513 29 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1513 29 900 | – – – – – digərləri | | |
| 1513 29 900 1 | – – – – – – netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | – | 15 (31.12. 2030-cu il tarixinədək 0%) |
| 1513 29 900 9 | – – – – – – digərləri | – | 15 |

**2.** Bu Qərar 2026-cı il mayın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 133** **7 may 2026-cı il, Bakı şəhəri**

**“Müayinə və texniki xidmətlə bağlı tələblərə riayət olunmasına monitorinqin keçirilməsi Qaydası”nın təsdiq edilməsi və “Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.7-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Müayinə və texniki xidmətlə bağlı tələblərə riayət olunmasına monitorinqin keçirilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 874 (Cild I); 2024, № 3, maddə 305) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 136** **7 may 2026-cı il, Bakı şəhəri**

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 30 yanvar tarixli 31 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 30 yanvar tarixli 31 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 1, maddə 101) aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

“4. Bu Qərar 2026-cı il mayın 1-dən qüvvəyə minir.”.

**2.** Bu Qərar 2026-cı il fevralın 2-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 134** **7 may 2026-cı il, Bakı şəhəri**

**“İxtisas attestatının forması, attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi və ixtisaslaşmış podratçıların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi və “İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.8-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “İxtisas attestatının forması, attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi və ixtisaslaşmış podratçıların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I); 2024, № 3, maddə 305; 2025, № 5, maddə 507) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 135** **7 may 2026-cı il, Bakı şəhəri**

**“Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211 (Cild I); 2024, № 5 (II kitab), maddə 606, № 9, maddə 1106) ilə təsdiq edilmiş “Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”nin 2.1-ci bəndinin ikinci abzasında və 2.2-ci bəndinin üçüncü abzasında hər iki halda ismin müvafiq hallarında “icra məmuru” sözləri ismin müvafiq hallarında “dövlət icra məmuru” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 573 (Cild I); 2025, № 8, maddə 800; № 12 (II kitab), maddə 1231) ilə təsdiq edilmiş “Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydası və şərtləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissədə və 5-ci hissənin ikinci cümləsində “icra xidmətinin” sözləri “müvafiq olaraq icra xidmətinin və ya xüsusi icra məmurunun” sözləri ilə əvəz edilsin;

2.2. 16-cı hissəyə “yalnız icra qurumu rəhbərinin” sözlərindən sonra “(dövlət icra məmuruna münasibətdə)” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 50 (Cild I) ilə təsdiq edilmiş “İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicənin Şərtləri və Qaydaları”nın 1.3-1-ci bəndində “icra məmuru” sözləri “dövlət icra məmuru” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 862 (Cild I) ilə təsdiq edilmiş “İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi Qaydası”nın 15-ci hissəsində “ icra məmuru” sözləri “dövlət icra məmuru” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I); 2024, № 5 (II kitab), maddə 606, № 9, maddə 1106) ilə təsdiq edilmiş “Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndin birinci və ikinci cümlələrində “icra məmuruna” sözləri “dövlət icra məmuruna” sözləri ilə əvəz edilsin;

5.2. 2.2-ci bəndin birinci cümləsində “İcra məmuru” sözləri “Dövlət icra məmuru (bundan sonra - icra məmuru)” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 137** **8 may 2026-cı il, Bakı şəhəri**

**“Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 196-VIIQD nömrəli Qanununun tətbiqi və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyun tarixli 406 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024; № 2, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Elektron icra” informasiya sistemi haqqında Əsasnamə” üzrə:

2.1. 2.1.1-ci yarımbənddə “və yerli özünüidarəetmə orqanları” sözləri “orqanları (qurumları) və bələdiyyələr” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 6.1.1-1-ci və 6.1.11-1-ci yarımbəndlər əlavə edilsin:

“6.1.1-1. informasiya ehtiyatları və sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) və bələdiyyələr üçün informasiya sistemində yaradılmış elektron kabinetlərdə həmin dövlət orqanları (qurumları) və bələdiyyələr tərəfindən yerləşdirilmiş icra sənədlərinin qəbul edilməsi;”;

“6.1.11-1. “İcra haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda icra hərəkətlərinə dair bildirişin borclunun adına qeydə alınmış mobil telefon nömrəsinə (nömrələrinə) SMS-lə göndərilməsi;”;

2.3. 6.1.15-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz və aşağıdakı məzmunda 6.1.16-cı yarımbənd əlavə edilsin:

“6.1.16. icra sənədləri üzrə tələbin borclunun bank və digər kredit təşkilatlarında, elektron pul təşkilatlarında olan pul vəsaitlərinə icra sənədinin icrası üçün lazım olan miqdarda və həcmdə yönəldilməsi barədə icra məmurunun qərarının ötürülməsi, habelə bu qərarın bank və digər kredit təşkilatları, elektron pul təşkilatları tərəfindən qəbulu və icrasının nəticəsi barədə məlumatın ötürülməsi.”;

2.4. 11-ci hissə üzrə:

2.4.1. 11.1-ci bəndə “Banklar haqqında” sözlərindən sonra “, Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” sözləri əlavə edilsin;

2.4.2. 11.3-cü bənd üzrə:

2.4.2.1. 11.3.4-cü və 11.3.5-ci yarımbəndlərdə “borclu şəxslərin” sözləri “borclunun, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin” sözləri ilə əvəz edilsin;

2.4.2.2. 11.3.9-cu yarımbənddə “hüquqi şəxsin” sözləri “borclu hüquqi şəxsin icra orqanının” sözləri ilə əvəz edilsin;

2.4.2.3. 11.3.11-ci yarımbəndə “təşkilatlarında” sözündən sonra “, elektron pul təşkilatlarında” sözləri əlavə edilsin və həmin yarımbənddə “və hesabının” sözləri “, hesabının və vəsaitinin” sözləri ilə əvəz edilsin;

2.4.2.4. 11.3.30-cu yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə “əmrləri” sözündən sonra “və borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmə qərardadları” sözləri əlavə edilsin;

2.5. aşağıdakı məzmunda 13.3-1-ci bənd əlavə edilsin:

“13.3-1. İnformasiya ehtiyatları və sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) və bələdiyyələr icra sənədlərini informasiya sistemində həmin dövlət orqanları (qurumları) və bələdiyyələr üçün yaradılmış elektron kabinetlərdə yerləşdirməklə icraya yönəldirlər.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 139** **12 may 2026-cı il, Bakı şəhəri**

**İri istehlakçılar üçün illik qaz sərfiyyatının həddinin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İri istehlakçılar üçün illik qaz sərfiyyatının həddi 300 000 000 (üç yüz milyon) kubmetr və ondan yuxarı müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Fermerlərin yaz qayğıları



**Ölkəmizə allı-güllü yaz gəlib. Ağaclar çoxdan gül açıb, dağların yamacları, meşələr öz yaşıl libasını geyinib, dağ çaylarının suyu xeyli artıb. Sahələrə isə şum, becərmə traktorları çıxarılıb. Bəli, bu bərəkətli yaz günlərində əkin-biçin adamları hər yerdə iş başındadır. Hara baxırsan, hara boylanırsan, orada qaynar yaz-tarla işlərinin getdiyi görünür.**

Yazın gəlişi ilə kənd yerlərində sanki həyatın axarı, ritmi də sürətlənib. Aprel ayındakı kəskin yağıntılı havalar əhaliyə əlavə qayğı və problemlər yaşatsa da, sel və daşqınların törətdiyi fəsadlarla bağlı çətinliklər arxada qalıb. Deyirlər ki, hər zərərdə bir xeyir var. Qobustanlı bir qocaman taxılçılıq fermerinin sözləri yadıma düşdü. O, builki yağışların rayonun dəmyə torpaqlarındakı buğda və arpa sahələrinə dirilik suyu bəxş etdiyini söylədi.

Bu günlərdə ölkəmizin şimal bölgələri Quba və Qusarın meyvə bağlarında da işlərin qızğın çağıdır. Ağacların yaz budanması, onların diblərinin bellənməsi xeyli vaxtdır ki, başa çatıb. İndi meyvə bağlarında zərərvericilərə qarşı dərmanlama işləri gedir. Hər iki rayonda Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) təcrübəli mütəxəssisləri fermerlərdən faydalı məsləhət və tövsiyələrini əsirgəmirlər.

Milin, Muğanın yonca sahələrində birinci ot çalını artıq başa çatıb. Sahələrdən indi yeni biçilmiş yaşıl otun tanış ətri gəlir. Şirvanın nar bağlarında, Lənkəran və Astaranın çay plantasiyalarında, Qazaxın, Tovuzun üzüm bağlarında son günlər fermerlərin işləri başlarından aşır. Cəlilabad faraş çiyələyi çoxdan işi şəhərlərin bazarlarında müştərilərə gəl-gəl deyir. Bu il ölkəmizdə kartof da boldur.

Məlumdur ki, doğma Qarabağımız düşmənin işğalı altında olan illərdə heyvandarlar ilin bu günlərinə yaylaq yerləri ilə bağlı kəskin problemlərlə üzləşərdilər. İndi, xoşbəxtlikdən, bu sahədə vəziyyət tamamilə dəyişib. Yeri gəlmişkən, Kənd Təsərrüfatı Nazirliyinin (KTN) saytında qeyd olunur ki, bu günlərdə qoyunçuluq təsərrüfatlarını işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara aparmaq istəyən fermerlərin qeydiyyat prosesi davam edir.

Bu isə o deməkdir ki, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarından, yaxud İmişli, Beyləqan, Ağdaş, Yevlax, Mingəçevir, Ucar, Zərdab və Samux rayonlarından birində qeydiyyatda olan fermerlər qoyun-quzu sürülərini tezliklə Laçın və Kəlbəcər yaylaqlarına apara biləcəklər. Orada isə mal-qara üçün hətta yayın qızmar günlərində belə yem boldur.

Bundan başqa, 2026-cı il yaylaq mövsümü dövründə arıçılıq təsərrüfatlarının Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Laçın və Kəlbəcər rayonları ərazisinə köçürülməsinə icazə verilib. Bu halda, əlbəttə, təravətli dağ balının istehsalı artacaq. Yeri gəlmişkən, bu, şəkərsiz, qatqısız, yəni min bir dərdin dərmanı bal olacaq.

Bir müddət əvvəl Laçın rayonunda növbəti Aqrar Biznes Festivalı keçirilib. Artıq 92 bölgədə bu formatda festivallar təşkil olunub. Bu, çox müsbət haldır. Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rauf Minhacov hesab edir ki, KTN rəhbərliyinin bu təşəbbüsü aqrar sahənin inkişafına, regionlarda iqtisadi fəallığın artırılmasına və yerli istehsalçıların dəstəklənməsinə əhəmiyyətli töhfə verir.

Bir sözlə, ilin bu yaz günlərində bağ və tarlalarda iş çoxdur. Kənd sakinləri başa düşürlər ki, gərək torpaqda izin olsun ki, süfrədə də üzün olsun. Ümid edirik ki, aqrar sektorda əvvəlki illərdə olduğu kimi, bu il də ruzili-bərəkətli olacaq!

*XQ*

*Alim məsləhəti*

# Meyvə bağları körpə uşaq kimidir...

## *Bara yetişəndə aldığını birə-beş qaytarır*





**Respublikamızın əsas meyvəçilik bölgələrində (Quba-Xaçmaz, Şəki-Zaqatala, Qazax-Tovuz, Gəncə-Daşkəsən və s.) çəyirdəkli (gilas, şaftalı, alça, gavalı və s.) meyvə bağlarının həm ekstensiv (köhnə tipli), həm də müasir, intensiv texnologiyalar əsasında salınmış böyük əraziləri əhatə edən bağ sahələri becərilir. Statistik məlumatlara görə, respublika üzrə gilas 13 min 599 hektar, şaftalı 10 min 584 hektar, gavalı 5 min 591 hektar, ərik 4 min 612 hektar, alça 4 min 422 ha, albalı isə 2 min 112 hektar sahəni əhatə edir.**

**İlin bu fəslində çəyirdəkli meyvə bağlarında hansı işlər görülməlidir? XQ-nin eksperti, biologiya elmləri üzrə fəlsəfə doktoru Mədət Qurbanov sözügedən bağlarda həyata keçirilməsi zəruri olan tədbirlər barədə bunları bildirdi:**

– Cari ilin yaz aylarının olduqca yağıntılı və soyuq keçməsi ilə əlaqədar çəyirdəkli meyvə bağlarında monilioz, klasterosporioz, yarpaq qıvrımlığı, kokkomikoz və digər göbələk mənşəli, eləcə də bakterial xərçəng kimi qorxulu xəstəliklərin kütləvi surətdə yayıldığı müşahidə edilmişdir. Bu hal aqrotexniki qulluq işlərinin, həmiçinin xəstəliklərə qarşı kimyəvi mübarizə işinin zəif aparıldığı bağlarda daha çox müşahidə edilir.

Diqqətinizə çatdırmaq istərdik ki, göbələk mənşəli monilioz xəstəliyi bitkilərin birillik zoğlarını, tumurcuqlarını, çiçəklərini və yarpaqlarını yoluxdurmaqla onların qurumasına, solmasına səbəb olur. Bu hal yaz aylarında xüsusilə albalı bitkisində özünü aydın şəkildə büruzə verir və bitkinin 0,5-1 metr uzunluğunda olan birillik zoğları yanmış, qurumuş kimi görünür. Buna görə də bu xəstəliyi çox vaxt "moniliya yanığı" da adlandırırlar. Bunun nəticəsi olaraq bitkilər zəifləyərək qurumağa başlayır, məhsuldarlıq isə aşağı düşür.

Yaz aylarında çəyirdəkli meyvə bitkilərinin digər qorxulu xəstəliklərindən biri də klasterosporioz, yaxud deşikli qonur ləkə xəstəliyidir. Bu xəstəliyin törədicisi göbələk mənşəli olub, bitkinin zoğ, tumurcuq, çiçək meyvə və yarpaqlarını yoluxdurur. Xəstə zoğların qabığı üzərində nöqtəşəkilli, qəhvəyi rəngli kitrəaxmalar, tumurcuqların üzəri isə parlaq qəhvəyi rəngli, kitrə ilə örtülür və yaz vaxtı açılmır.



Xəstə çiçəklər soluxur, meyvələrin üzərində qırmızı haşiyəli, çökük ləkələr əmələ gəlməklə normal inkişaf etmir və əmtəə qabiliyyətini itirirlər. Xəstə yarpaqların üzərində isə qırmızı haşiyəli dairəvi ləkələr peyda olur. Belə ləkələrin toxumaları tədricən quruyaraq tökülür və yarpaqlarda çoxsaylı deşiklər əmələ gəlir.

Aprelin axırı və may ayı boyunca əsasən şaftalı bitkisində qorxulu xəstəliklərdən biri olan yarpaq qıvrımlığı müşahidə edilir. Bu xəstəlik də göbələk mənşəli olub, bitkinin yarpaqlarında rast gəlinir. Yoluxmuş yarpaqlar əvvəlcə qızarır, sonra isə qalınlaşaraq eybəcər, dalğavari forma alır. Belə xəstə yarpaqlar tökülür ki, bu da bitkinin zəifləməsinə və məhsuldarlığının aşağı düşməsinə səbəb olur.

Mayda gavalı və alça meyvələrində cibcibə, gavalıda polistiqmoz və digər xəstəliklər də müşahidə edilir ki, bunlar da bitkilərin məhsuldarlığına, normal fəaliyyətlərinə mənfi təsir edir.

Yuxarıda adlarını qeyd etdiyimiz xəstəliklərlə yanaşı, çəyirdəkli meyvə bağlarında müxtəlif mənənə növləri, şərq, alma və gavalı meyvəyeyənləri, albalı milçəyi, tut qalxanlı yastıcası, albalı selikli mişarçısı, akasiya yalançı çanaqlı yastıcası və digər qorxulu zərərvericilər də müşahidə edilir. Adları qeyd olunan zərərverici növlərindən mənənələr bitkilərin birillik zoğlarında təzə əmələ gəlmiş yarpaqların şirəsini soraraq qidalanırlar. Nəticədə yarpaqlar qıvrılır, səthləri qaralır və bitki inkişafdan qalır. Şərq meyvəyeyəni karantin zərərvericisi olub, mayda əsasən şaftalı, gilas, ərik və digər bitkilərin birillik zoğlarını uc hissədən zədələyir. Alma və gavalı meyvəyeyənləri isə bu ayda əmələ gələn meyvələri zədələməyə başlayırlar. Albalı milçəyi gilas və albalı meyvələrinin qızarmağa başladığı zaman meyvələrin lətinə yumurtalarını qoyaraq onları zədələyirlər.

Yuxarıda qeyd etdiyimiz xəstəlik və zərərvericilərə qarşı kompleks şəkildə mübarizə aparmaqla onların qarşısını almaq və gözlənilə biləcək zərəri minimuma endirmək olar.

Mayın 1-ci yarısında xəstəlik və zərərvericilər kompleksinə qarşı 1 ton suya ziram (2,5 kiloqram) + kaptan (2 kiloqram) +asetamiprid (0,5 kiloqram) + lambda - siqalotrin (0,5 - 1 kiloqram) preparatlarını qarışdırıb çiləmək lazımdır. Bitkilərin mikroelementlərə olan tələbatını təmin etmək məqsədilə bu qarışığa 2,5 kiloqram skaleks-kombi də əlavə etmək olar.

Xəstəlik və zərərvericilərin bioloji xüsusiyyətlərini, həmçinin hava şəraitini nəzərə alaraq may ayının ikinci yarısında bağlarda 1 ton suya mankozeb (2,5 kiloqram) + lambda – siqalotrin (0,5 killoqram) + asetamiprid (0,5 kiloqram) qarışığından istifadə edilməklə xəstəlik və zərərvericilərin qarşısını almaq olar.

Bağlarda müşahidə olunan xəstəlik və zərərvericilərə qarşı mübarizə ilə yanaşı, onların gübrələmə sisteminə də ciddi fikir verilməlidir. Belə ki, damcı suvarma sistemi olan bağlarda hər həftə monoammonium – fosfat (25 kq/ha), ammonium şorası (ammonium – nitrat – 25 kq/ha), kalium – nitrat (15 kq/ha), həmçinin bir dəfə olmaqla 6 faizli dəmir elementi (5 kq/ha) verilməsi vacibdir.

Sözümün canı budur ki, meyvə bağları körpə uşaq kimidir. Bara yetişəndə aldığını birə-beş qaytarır. Bütövlükdə, Azərbaycan torpağı zəhmət itirən deyil.

*Vurğun keçib bu yerlərdən*

# "Ovçuluğa meyil saldım..."

**Prezident sərəncamı ilə 120 illik yubileyi qeyd edilən unudulmaz Xalq şairi Səməd Vurğun poetik yaradıcılıq prosesindən və ictimai fəaliyyətindən vaxt taparaq ana təbiətin qoynuna getməyi, ovçuluq "bəhanə"si ilə dağları, meşələri, obaları gəzməyi çox sevərdi. Bu isə ona həm də yeni yaradıcılıq şövqü verərdi.**



Şairin "dillər əzbəri olan, aşıqların sevə-sevə oxuduqları "Ceyran" şeirinin belə uğurlu olmasının bir əsas səbəbi də elə müəllifin ovda ikən duyub-düşündüklərini qələmə alması olub.

***...On addım kənarda yatmayır təkə,***
***Gəzinir, oylağa baş çəkə-çəkə.***
***Gələn qaraltıdır, yoxsa təhlükə?***
***Bir özünə baxır, bir ona ceyran!***
***Ovçu, insaf elə, keçmə bu düzdən!***
***O çöllər qızını ayırma bizdən!***
***Qoyma ağrı keçə ürəyimizdən, -***
***Qıyma öz qanına boyana ceyran!***
***Nə gözəl yaraşır Muğana ceyran!***

Doğrudan da, əgər Səməd Vurğun Muğana gedib ova çıxmasaydı, gördüklərini qəlbinin süzgəcindən keçirməsəydi, bu misralar belə təbii, gözəl alınmazdı. Bu da var ki, ova çıxan şairi bölgələrdən olan dostları müşayiət edərdilər, o zaman başlarına gələn çoxlu əhvalat da illərdir ki, əfsanə kimi el arasında dolaşır. Hər kəs onunla ünsiyyətdən qürur duyub, xatirələrində Səməd Vurğunu sadə və səmimi bir şəxsiyyət kimi səciyyələndiriblər. Şahidlər söyləyirdilər ki, səhər saat 6-dan axşam 6-ya qədər kəklik ovuna çıxan şair dərələri, təpələri yorulmadan dolaşardı. Yəni 12 saat ovda olar, bəzən də əliboş qayıdardı. Ovu dəqiq nişan alsa da, şairanə bir hisslə atəş açmağa qıymazdı.

Yerlərdə görkəmli şairin yadigarları da qorunub saxlanmaqdadır. Məsələn, Ağdaş Rayon Tarix-Diyarşünaslıq Muzeyində aid guşədə dəfələrlə Ağdaşda olmuş və 1938-ci ildə bu rayondan respublika Ali Sovetinə deputat seçilmiş Səməd Vurğunun ov geyimi və çantası da qorunub saxlanılır.

Qələm dostum Faiq Sadıqovun dediyinə görə, tez-tez Kürqırağı meşələrə, Türyançay və Tuqay tərəflərə ova gələn şairin maşını bir dəfə palçığa batır. Ləki qəsəbəsinin sakini olan həvəskar ovçu Məhəmmədəli kişi ona kömək edir. Beləcə, aralarında dostluq münasibəti yaranır və Səməd Vurğun ov geyimi ilə çantasını ona bağışlayır. Məhəmmədəli kişi isə sonradan həmin əşyaları muzeyə verir.

Əslən Masallının Xırmandalı kəndindən olan tələbəlik dostum – yazıçı Nurəddin Ədiloğlu deyir ki, Səməd Vurğun 2 dəfə onların kəndində qonaq olub və Muğana ova çıxıb. Şairin arabaçı Qismətin Səmənd atına bədahətən dediyi şeirin iki misrasını yaddaşına həkk edən bir ovçu nəql edirdi ki, Ağçalada ocaq qalayıb, şairlə çörək də kəsib. Başqa bir ovçu deyirdi ki, özü ilə ov tulası gətirən şair təzə qoşalülə tüfəngini də ona bağışlayıb. Ovçuların bu sayaq söhbətlərinə hayıl-mayıllıqla qulaq asardım.

Bir dəfəsində, deyəsən, 1949-cu ildə Səməd Vurğun tüfəngini, patrondaşını götürüb Qismətin arabasına oturdu. Gecə yağan yağışın suyu yol-yolaqda xırda gölməçələr yaratmışdı. Çətinliklə də olsa, irəlilədilər. Araba ilişib dayananda Qismət kişi səmənd atını söydü. Şair əlini arabaçının çiyninə qoyub bədahətən dedi:

*– Sənin adın Qismət, atın Səmənddir,*
*Mən şair Vurğunam, adım Səməddir.*

Ardınca isə əlavə etdi: "Qismət, qağa, çörəyini bir şərtlə kəsərəm ki, bu atı innən belə söyməyəsən".

...İrəlidə, Ağçalada payız küləyinin meşə kimi yırğaladığı sıx qamışlığın ortasında kiçik tala yeri göründü. Arabaçı atların başını həmin səmtə döndərdi. Yaxınlıqda dalbadal açılan atəş göydə qanad çalan yaşılbaş ördəyi arabanın qabağına saldı. Yaralı quş qanadlarını çırpanda atlar hürküşdülər. Orada başqa ovçu da varmış.

Arabaçı üzünü şairə tutub: – Molla Balaşdır, buralarda şalaş qurub, – dedi, – bizim kənddə məsəl var: "Göydə quşu şalaş vurmur, Balaş vurur". Bir qolu anadangəlmə şikəst olsa da, Allah-taala ona fərasət verib. Tək qoluyla quş vurur, balıq ovlayır, kolaz çəpləyir, dəryaz götürüb ot da çalır. Adı Mərifətdi...

Balaşla tanış olanda şair xəfifcə gülümsünərək dedi:

– Mən Muğana ova çox gəlmişəm. Atam da ovçu olub, babam da... Yəni az-çox ovçuluq səriştəm var!..

Aradan düz 35 il ötüb-keçdi. Günlərin bir günü Vaqif Səmədoğlu da bizim kənddə ova gəldi. Arabaçı Qismətin oğlu Vəzahir müəllim Məmmədxanlı Qara İsrafillə birlikdə onu vaxtilə Səməd Vurğunun ova getdiyi Ağçalaya apardı.

Şairin daha bir ov macərası haqqında. 1946-cı ilin noyabr ayında, şair dostu Allahyar Cavanşirlə Kür çayının sağ sahilindəki Mehman meşəsinə ova gedirlər. Onlar çayın qalın cığ ilə örtülü körpə söyüd pöhrəliyində gəzdikləri vaxt, birdən iki qırqovul xoruzu havaya qalxır, Səməd sərrast atəşlə hər ikisini vurur. Xoruzlar çaya düşür. Su xoruzları axıdır. Reks və Heran adlı ov tulaları da onların dalınca üzür. Bir az keçdikdən sonra itlər xoruzları ağızlarına alıb geri qayıdırlar. Sonrakı bir dəfə onların maşını qəfil qabağa çıxan cüyürləri vurur. "Vay, biz nə etdik", – deyə şair pərişan və peşiman halda qışqırır.

Dostu onunla bağlı xatirəsində deyir ki, sonra kəkliklər pıqqıldayıb kol dibindən qalxdı, dağ keçiləri quşqonmaz qayaların sinəsini dırnaqlaya-dırnaqlaya gözdən itdi, dağ hind quşları qəribə səslər çıxardılar. Səməd Vurğun isə susurdu. Fikirləşdik ki, görəsən, şair nə üçün atmadı? Ovçu da bu fürsəti əldən verərdimi?

Mən yavaş-yavaş ona yan aldım:

– Səməd qağa, meşədə ov eləmək çətindir, quş qalxan kimi ağacın arxasında görünməz olur.

Səməd bığaltı gülümsədi, başı ilə təsdiq etdi:

– Ovçu, insaf elə … Buranın gözəllikləri bir-birinə elə yaraşır ki, meşəni onlardan məhrum etməyə adam qıymır. Mənə nə deyərlər, şairin birinci, bəlkə də axırıncı dəfə bu yerlərə ayağı düşür, onda da qırğın törədir.

Biz kəndə dönəndə, öz səxavətini hər yana səpələyən təbiətin seyrindən doymayan Vurğun dağın döşü ilə dolaylananda, Həsən kişi məni saxladı:

– Əliboş qayıdaq, ayə? Şair tüfəngi özünə havayı yük eləyib. Nə özü vurdu, nə də bizi qoydu.

Səmədin qulağı uzaqdan elə bil deyilənləri aldı. O, bizə baxıb gülümsədi:

– Deyəsən, qeybət qırırsınız, ayə? Ovçu insaf elə…

Doğrudan da, hər dəfə şair sanki ova deyil, təbiətin seyrinə çıxardı ki, yeni gözəl şeirlər yaratsın.

*Səhifəni hazırladılar:*
***Əli NƏCƏFXANLI,***
***Məsaim ABDULLAYEV***
***XQ***

# 33 illik Zəngilan həsrətinə son

**Bir qərinəlik ağrı-acılı ayrılıqdan sonra doğma yurda – Zəngilana əbədi dönüşün sevincini sözlə ifadə etmək çətindir. Sakinlərinin yolunu həsrətlə gözləyən torpaqlarda yenidən həyat başlayıb. Babaların ruhu dolaşan yerlərə insan nəfəsi, ocaq istisi qayıdıb.**



Zəngilanda vaxtilə viran qoyulmuş ərazilərdə indi müasir yaşayış kompleksləri salınıb, sakinlər öz yurdlarına dönüb. Ağalı və Məmmədbəyli kəndlərindən sonra rayon mərkəzində inşa olunan ilk yaşayış kompleksi də artıq sakinlərini qəbul edir. Rayonda yurda qayıdan yüzlərlə sakinin iştirakı ilə yeni yaşayış kompleksində tədbir keçirilib. İnsanların sevinc dolu göz yaşlarına bürünən köç karvanına tamaşa edirəm. Burada böyük bir həsrətin sonu və yeni bir həyatın başlanğıcı dayanır. Mənzillərin bütün açarları sakinlərə təqdim olunduqdan sonra ANAMA-nın əməkdaşı Mikayıl Əzizov mina təhlükəsizliyi ilə bağlı təmsil etdiyi təşkilatın məlumatlarını diqqətə çatdırıb.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilanda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Aqil Qurbanov bildirib ki, dövlət başçısının mayın 10-da Zəngilan şəhərində yeni mənzillər alan ailələrlə görüşməsi həmin insanların yaddaşına ömürlük yazılan unudulmaz gün olub.

Toplantıdan sonra sakinlərlə görüşüb təəssüratlarını öyrəndik. Həkim Səadət Həsənova dedi: "Biz yurdumuzu heç vaxt unutmadıq, harada yaşasaq da, ürəyimiz həmişə Zəngilanla döyünürdü. Bu gün isə yenidən öz evimizin çırağını yandırırıq. İnsan üçün bundan böyük xoşbəxtlik ola bilməz. Mənzilimizin açarını dövlət başçısının təqdim etməsi isə sevincimizi qat-qat artırıb".

Uzun illər müəllim işləyən Famil Nəcəfov isə bu günü həyatının ən böyük bayramı sayır. Birinci Qarabağ müharibəsinin iştirakçısı olan ağsaqqal müəllimin baxışlarında həm keçmiş döyüşlərin izi, həm də qələbənin qüruru var. Ən böyük arzumuz torpaqlarımızın azad olunması idi, - deyən müsahibim vurğulayır ki, bu gün doğma torpaqlarda yenidən ev sahibi olmaq insanın ömrünü rövnəqləndirir. Onunla yanaşı dayanan müəllim övladı Ləmanın da sevinc dolu baxışları dövlət siyasətinin xalqa xidmət etdiyini təsdiqləyir.

Söhbətə qoşulan müharibə veteranı, polkovnik-leytenant İdris Rəhimov isə doğma yurda dönüşün xüsusi hiss olduğunu vurğulayır. Uzun illər polis orqanlarında çalışmaqla rayonda şöbənin rəis müavini vəzifəsinə qədər yüksələn həmsöhbətim bu gün Zəngilanın dirçəlişini görəndə qəlbində tam rahatlıq yarandığını söylədi: "Bu torpaqlarda həyat yenidən başlayır. Uzun illər boyu arzusunda olduğumuz ən böyük sevincli anlara şahidlik edirik. Dövlət başçımızla görüş isə bizi qürurlandırdı".

Zəngilanın saf havası, yaşıl meşələri, dağ çayları ilə yenidən nəfəs aldığını ən çox hiss edənlərdən biri də arıçı Sərməs Bağırovdur. O, məcburi köçkünlük illəri vaxtı çətinliklə də olsa, rəhmətlik atasının arıçılıq ənənəsini digər ərazilərdə qoruyub saxladığına toxunur: "Uzun illər fermer təsərrüfatı ilə məşğul olduğumuza görə deyə bilərəm ki, arılar da insan kimi doğma yurdun çiçəyini, havasını tanıyır. Təsərrüfatımla əlaqədar 3 ildir rayona köçmüşəm və dağılmış evlərin birini təmir edərək orada qalırdım, indi isə tam şəraiti olan yeni mənzillə təmin olunmuşam".

Söhbətimizə vaxtilə "Xalq qəzeti"ndə çalışmış Nəriman Bəxtiyarovun oğlu Vidadi kişi də qoşuldu. O qeyd etdi: İllər əvvəl heç kim bu günləri təsəvvür edə bilməzdi. İndi Zəngilan yenidən insan nəfəsinə isinib və keçmiş məcburi köçkünlər isə doğma yurda qayıdaraq rahat mənzillərlə təmin olunublar.

...Zəngilan şəhəri bu gün simasını tamamilə dəyişib. İnsanların sevincindən hiss olunur ki, indi burada yalnız evlər tikilmir, qırılmış ümidlər bərpa olunur, uşaqlıq xatirələri canlanır, doğma ocaqlarımız yenidən isinir. Uğurla icra olunan "Böyük Qayıdış" proqramı nəticəsində Zəngilan artıq həsrətin yox, qayıdışın şəhəri olub.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Kosaların işğalı dinc əhaliyə qarşı müharibə cinayəti idi

## *Erməni quldurlarının hücumları qarşısında 5 il mərdliklə dayanmış bu qədim kənd 34 il əvvəl may ayındaköməksiz qalıb süqut etmişdi*

**Erməni millətçiləri ötən əsrin 80-ci illərinin sonunda Qərbi Azərbaycandakı yüz minlərlə soydaşımızı öz tarixi torpaqlarından zorla qovulması prosesini yekunlaşdırdıqdan sonra növbə "dənizdən dənizə böyük Ermənistan" xülyasının növbəti mərhələsini həyata keçirməyə çatmışdı. Cəzasızlıq, dəyirmanlarına su tökən qanlı sovet imperiyası rəhbərlərinin açıq dəstəyi azğınlaşmış ermənilərin iştahasını daha da artırır, onları onillərdir gizli hazırladıqları planlarının icrasına şirnikləndirirdi. Hədəf isə Qarabağın barlı-bərəkətli torpaqları, minillərdir bu torpaqlarda yaşayan dinc azərbaycanlılar idi.**

1988-ci ilin martında SSRİ rəhbərliyinin, daha dəqiqi ittifaqın ermənipərəst başçısı Mixail Qorbaçovun ermənilərin təsiri və təzyiqi ilə qəbul etdiyi "Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" xüsusi qərarı əzəli torpağımız olan Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılması kimi məkrli planın ilk addımı oldu.

Ermənipərəst Arkadi Volskinin başçılığı ilə qeyri-qanuni, birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarəetmə Komitəsinin (XİK) təşkil edilməsindən sonra Azərbaycan SSR-in bütün dövlət və ictimai orqanlarının Qarabağdakı səlahiyyətləri dayandırıldı. Əslində, bu qərar Ermənistan SSR ilə paralel Dağlıq Qarabağda da azərbaycanlıların kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi idi.

**Volskinin hakimiyyəti dövründə Xankəndi şəhərində yaşayan 12 min azərbaycanlı zorla öz evlərindən qovuldu. Bununla da torpaqlarımızın işğalının praktiki mərhələsinə start verildi. Daha sonra SSRİ Nazirlər Sovetinin 6 may 1989-cu il tarixli qərarı ilə cəmi 3 gün ərzində Dağlıq Qarabağın müəssisələri Ermənistanın müvafiq nazirliklərinin və idarələrinin tabeliyinə verildi, vilayətin tərkibində olan beş rayonun partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bayrağı, gerbi, blankı ləğv edildi, partiya komitəsinin Xankəndidəki inzibati binasının üzərində Ermənistanın bayrağı qaldırıldı...**

1989-cu il iyunun 13-dən Xüsusi İdarəetmə Komitəsinin birbaşa köməyi ilə azərbaycanlıların yaşadığı məntəqələrin blokadasına başlandı. Volskinin fəaliyyəti dövründə ermənilər tərəfindən Xankəndidə və keçmiş vilayətin digər rayon və kəndlərində yüzlərlə cinayət törədilmiş, dinc, mülki azərbaycanlıların qətlə yetirilməsi faktları artmışdı. Bütün bu faktlar isə təbii ki, ermənipərəst Volski və onun rəhbərlik etdiyi komitə tərəfindən ört-basdır edilir, ermənilərin yeni cinayətlər törətməsinə şərait yaradılırdı...

1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" bəyanat qəbul etdikdən sonra müstəqil Azərbaycan Respublikasının qanunu ilə Qarabağın muxtar vilayət statusu da ləğv edildi. Təəssüf ki, həmin qanunda nəzərdə tutulduğu kimi, keçmiş vilayətin ərazisində Azərbaycan qanunvericiliyini təmin etmək, silahlı erməni dəstələrinin işğalçılıq fəaliyyətinin qarşısını almaq artıq mümkün deyildi. Üstəlik, ölkəyə səriştəsiz rəhbərlik, qızışmağa başlayan hakimiyyət davası Qarabağı yenə də sahibsiz, dinc, əliyalın azərbaycanlıları isə gündən-günə azğınlaşan erməni faşistləri qarşısında Allahın ümidinə qoymuşdu...

Erməni separatçıları Xocalının azərbaycanlılar yaşayan kəndlərini ələ keçirmək üçün təxminən eyni taktikadan istifadə edirdilər. Yaşayış məntəqəsi əsasən gecənin qaranlıq vaxtı hər tərəfdən əhatəyə alınaraq çıxış yolları kəsilir, daha sonra Rusiya ordusuna məxsus zirehli texnikaların da köməyi ilə kənd güclü atəşə tutulur və bütün istiqamətlərdən hücum başlayırdı. 1991-ci il dekabrın 15-də Cəmilli, həmin ayın 22-də Meşəli, 29-da Kərkicahan kəndlərində və nəhayət, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində baş verənlər bir daha təsdiq edirdi ki, düşmənin məqsədi təkcə torpaqlarımızı işğal etmək deyil, dinc insanlara qarşı kütləvi qırğınlar törətmək, bununla da Qarabağın digər azərbaycanlı əhalisi arasında xof yaradaraq onların öz ata-baba yurdlarını müqavimətsiz tərk etmələrinə nail olmaq idi. Ancaq adıçəkilən kəndlərin işğalı nəticəsində üç istiqamətdən yarımmühasirə vəziyyətinə düşməyinə baxmayaraq, Kosalar ermənilər üçün Şuşanın, dolayısı ilə Qarabağın asan "açarı" olmadı.

**O zaman Kosalar Ərazi İcraiyyə Komitəsinin sədri olmuş kənd sakini Vaqif Ağayevin sözlərinə görə, ermənilər həmin proseslərə uzun illər ərzində gizli şəkildə hazırlaşmışdılar. Kosaların, həmçinin Qarabağın digər azərbaycanlılar yaşayan kənd və şəhərlərinin işğal altına düşməsini şərtləndirən ən mühüm amillərdən biri isə paytaxtda gedən hakimiyyət davası, ölkə rəhbərliyinin öz vətəndaşlarına sahib çıxmaması idi:**

– Ərazi vahidliyinə Kosalardan başqa Cəmilli və Meşəli kəndləri də daxil idi. Ermənilərin hücumları intensivləşdiyindən 1991-ci ilin dekabrında kömək istəmək üçün Bakıya getdik. Əksər dövlət və hökumət qurumlarına, güc strukturlarına – müdafiə və daxili işlər nazirliklərinə çoxsaylı müraciətlərimiz nəticəsiz qaldı. 15 gündən sonra 3 kəndin müdafiəsini təmin etmək üçün cəmi 3 ədəd avtomat ala bildik. Təsəvvür edin, başdan-ayağa silahlanmış, tam təchiz olunmuş ermənilərin hücumunun qarşısına biz yalnız müsadirə zamanı gizləyib saxlaya bildiyimiz ov tüfəngləri, bir də az sayda avtomatlarla çıxmağa məcbur idik.

Ancaq heç bir çətinlik Kosalar əhalisini qorxuda, onların əzmini qıra bilməmişdi. Qocalı-cavanlı, kişili-qadınlı hamılıqla kəndin müdafiəsinə qalxmışdılar. Həmin vaxt Kosalarda 319 ailə təsərrüfatında 1433 nəfər sakin yaşayırdı. Əhali sayı çox olmasa da özünümüdafiə dəstələri yaradılmış, işğal olunmuş Cəmilli, Meşəli və Kərkicahan istiqamətlərində müdafiə postları qurulmuşdu.



**Vaqif Ağayev bildirdi ki, Kosaların Qırxqız dağının ətəyində yerləşməsi onlara əlavə güc verirdi:**

– Kürəyimizi, belə demək mümkünsə, dağlara söykəmişdik, üç tərəfimizsə qəddar düşmən. Yeganə çıxış yolumuz olan Kosalar-Mirzələr-Xəlifəli-Şuşa torpaq yolu da həm narahat idi, həm də təhlükəli. Bütün bunlara baxmayaraq, biz sona qədər döyüşdük, ermənilərin 5 irimiqyaslı hücumunun qarşısını ala bildik.

Gündəlik postlararası atışmaları saymasaq, 1991-ci il dekabrın 29-da, daha sonra 1992-ci il yanvarın 7-8-də, 28-də, martın 29-da və nəhayət mayın 8-i və 9-da baş vermiş şiddətli döyüşlərin hər biri bizim qələbəmizlə, ermənilərin ağır itkiləri ilə nəticələnib. Bu itkilərə görə ermənilər Qarabağda üçgünlük matəm elan ediblər.

Xocalı bizim kəndin yüksəkliklərindən aydın görünürdü. Fevralın 25-dən 26-na keçən gecə şəhərə hər tərəfdən dolu kimi mərmilərin tökülməsinin də, evlərin yandırılmasının da şahidi olmuşuq. Bundan əvvəl ermənilər Cəmilli və Meşəlidə kütləvi qırğınlar törətmək istəyəndə köməyə yetişib mühasirəni yara bilmişdik. Ancaq təəssüf ki, bu dəfə arada yerləşən düşmən mövqelərini, erməni kəndlərini keçib Xocalının harayına yetməyə gücümüz çatmadı.

Ermənilər Kosalar qarşısında hər məğlubiyyətdən sonra daha da azğınlaşırdılar. Məqsəd nə yolla olursa-olsun əvvəl bu kəndi, daha sonra Şuşanı işğal etmək idi. Ancaq tam tərsi baş verdi. 1992-ci il may ayının 8-də ermənilər böyük qüvvəylə eyni vaxtda hər iki yaşayış məntəqəsinə hücuma keçdilər. Günün sonunda Kosaların igid oğulları növbəti dəfə qələbə qazanaraq hücumun qarşısını almışdılar.

**Düşmənin itkilərinin sayı-hesabı yox idi. Mayın 9-u səhər tezdən isə məlum oldu ki, Şuşa şəhəri ermənilər tərəfindən ələ keçirilib.**

**Vaqif müəllim həmin anı belə xatırladı:**

– Düzü, heç birimiz bu xəbərə inanmaq istəmirdik. Necə ola bilərdi ki, biz kiçik bir qüvvəylə Kosaları müdafiə edə bilirdik, ancaq o cür alınmaz qala olan Şuşa təslim edilib? Son döyüş günü bütün sursatımız, güllləmiz demək olar tamamilə tükənmişdi və biz Şuşadan kömək gözləyirdik. Ancaq nəinki kömək gəlmədi, əksinə, Şuşanın işğalı ilə sonuncu çıxış yolumuz da bağlandı.

Beləliklə, mayın 9-da ermənilər Qırxqız tərəfindən piyada yolunu kəsərək bizi mühasirəyə salmasınlar deyə, döyüşə-döyüşə dağlara doğru üz tutmağa məcbur olduq. Biz Kosaların yüksəkliyinə çatanda artıq kəndin ayağında ermənilər gözümüz baxa-baxa evlərimizə od vurmuşdular!

O qanlı döyüşlərdə itkilərimiz də az olmadı. Ümumilikdə, 17-si mülki insanlar olmaqla 21 kənd sakini şəhid oldu, 4 nəfər girov düşdü. Kosalar Qarabağın yeganə kəndlərindəndir ki, azsaylı əhalisinə rəğmən döyüşlərdə göstərdikləri şücaətlərə görə 3 nəfər sakini "Azərbaycanın Milli Qəhrəmanı" (2-si ölümündən sonra), 1 nəfəri ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, 4 nəfəri isə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Bu gün bütün keçmiş məcburi köçkünlər kimi, Kosalar kəndinin əhalisi də sevinc və qürur dolu tarixi anlar yaşayırlar. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbə sayəsində bütün şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının qisası alınıb, vaxtilə düşmən tapdağında əzilən torpaqlarımıza indi yenidən həyat qayıdır. Rəşadətli Ordumuzun zəfər yürüşünə Kosalar oğulları da qoşularaq qəhrəmanlıq nümunələri göstəriblər. Kənd sakinləri isə mərhələ-mərhələ daimi yaşamaq üçün doğma Qarabağa qayıdır, işğaldan azad edilmiş ərazilərin dirçəlişinin iştirakçılarına çevrilirlər. Kosaların qəhrəmanlıqları isə xalqımızın yurd sevgisinin daha bir şərəfli səhifəsi kimi yaddaşlarda silinməz iz qoyub.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***
**Xocalı**

# Qərbi Azərbaycana Qayıdış konsepsiyasının ideoloji əsasları

**Qərbi Azərbaycan məsələsinin Azərbaycan ictimai-siyasi düşüncəsində tarixi yaddaş, mədəni irs və humanitar hüquqlar baxımından xüsusi yeri var. Bu anlayış, əsasən, indiki Ermənistan ərazisində vaxtilə yaşamış azərbaycanlıların tarixi torpaqlarını, həmin bölgələrdə formalaşmış mədəni-məskunlaşma izlərini və XX əsrdə baş vermiş köç və deportasiya proseslərini ehtiva edir.**



Müasir dövrdə Qərbi Azərbaycan mövzusu tarixi-coğrafi termin çərçivəsini aşaraq kollektiv yaddaşın qorunması, itirilmiş mədəni irsin sənədləşdirilməsi və demoqrafik dəyişikliklərin elmi əsaslarla araşdırılması istiqamətində aktuallıq qazanır. Akademik tədqiqatlarda həmin regionun toponimiyası, etnomədəni strukturu və sosial tarixi sistemli şəkildə öyrənilir. Bu mövzu Azərbaycan cəmiyyətində tarixi ədalət prinsipləri, mədəni davamlılıq və humanitar dəyərlər prizmasından müzakirə olunur. Qərbi Azərbaycan məsələsi keçmişin izlərini xatırlamaq, onları elmi əsaslarla təhlil etmək, gələcək nəsillərə obyektiv şəkildə ötürmək məqsədi daşıyan geniş bir araşdırma sahəsi kimi formalaşır.

Ulu öndər Heydər Əliyev Qarabağ münaqişəsinin həssas geosiyasi mühitini nəzərə alaraq Qərbi Azərbaycan məsələsinə ehtiyatlı və sistemli yanaşma nümayiş etdirirdi. Bununla yanaşı, o, müxtəlif çıxışlarında Qərbi Azərbaycanın tarixi-coğrafi reallıqlarını diqqətə çatdırır, inzibati ərazi dəyişikliklərinə, toponimlərin dəyişdirilməsinə və deportasiya proseslərinə toxunurdu. Xüsusilə, 1948–1953-cü illər deportasiyası ilə bağlı qərarlar və həmin dövrdə həyata keçirilən məcburi köçürmə siyasəti məsələyə institusional yanaşmanın formalaşmasında mühüm rol oynamışdır. Qərbi azərbaycanlılarla görüşlər, onların sosial problemlərinin həlli istiqamətində atılan addımlar bu məsələnin dövlət səviyyəsində konseptual əsaslarının qoyulmasına xidmət etmişdir.

Qarabağ münaqişəsi tam şəkildə həll olunmadan Qərbi Azərbaycan məsələsinin geniş siyasi diskursa çevrilməsi müəyyən geosiyasi risklər doğura bilərdi. Bu səbəbdən məsələnin ideoloji və strateji çərçivəsinin formalaşması üçün dövlətin münaqişədən qalib çıxması əsas şərt kimi qiymətləndirilirdi. 44 günlük Vətən müharibəsində əldə olunan qələbə regionda yeni siyasi reallıqlar formalaşdırdı və Azərbaycanın strateji mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdi. Bu qələbə nəticəsində təkcə Qarabağ məsələsində deyil, həm də Qərbi Azərbaycan və regional kommunikasiya layihələri, o cümlədən Zəngəzur dəhlizi kimi strateji təşəbbüslər üzrə daha qətiyyətli mövqe formalaşdırmaq mümkün oldu.

Beləliklə, Qərbi Azərbaycan məsələsinin ideoloji əsasları ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, onun praktik-strateji inkişaf mərhələsi isə Prezident İlham Əliyev tərəfindən yeni geosiyasi reallıqlara uyğun şəkildə davam etdirilmişdir.

Hazırkı mərhələdə əsas prioritet təşkilatlanma və institusional çərçivənin formalaşdırılmasıdır. Eyni zamanda, Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə keçirilən görüşdə səsləndirilən fikirlər məsələnin mərhələli və sistemli şəkildə irəlilədiyini nümayiş etdirir. Qayıdış Konsepsiyasının hazırlanması ilə bağlı tapşırıq isə bu prosesin artıq konseptual və strateji mərhələyə keçdiyini göstərir. Dövlət başçısı həmin görüşdə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.

Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Qərbi Azərbaycan İcmasının İdarə Heyətində təsdiqlənən Qayıdış Konsepsiyası regionda və beynəlxalq müstəvidə baş verən proseslərin kompleks təhlili əsasında hazırlanmışdır. Sənəddə Azərbaycanın artan beynəlxalq nüfuzu, Qarabağın işğaldan azad edilməsindən sonra yaranan yeni geosiyasi vəziyyət, postmüharibə dövründə ortaya çıxan çağırışlar və perspektiv tendensiyalar nəzərə alınmışdır. Konsepsiyanın əsas ideya xətti sülh, təhlükəsizlik, beynəlxalq hüquq və insan ləyaqətinə əsaslanan qayıdış modelidir. Bu yanaşma beynəlxalq hüququn fundamental prinsipləri, xüsusilə məcburi köçkünlərin öz doğma yaşayış yerlərinə qayıtmaq hüququ ilə uzlaşır.

Tarixi faktlar göstərir ki, Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindən çıxarılması onların iradəsinə əsaslanmamış, kütləvi zorakılıq, təzyiq və sistemli deportasiya nəticəsində baş vermişdir. Bu proses zamanı yüz minlərlə insan doğma yurdlarından məhrum edilmiş, fiziki zorakılığa məruz qalmış, mülkiyyət hüquqları pozulmuş və humanitar fəlakət xarakteri daşıyan vəziyyət yaranmışdır. Beynəlxalq hüquq kontekstində bu cür hallar insanlıq əleyhinə cinayətlərin elementlərini ehtiva edir və bu səbəbdən qayıdış hüququnun təmin olunması hüquqi və mənəvi zərurət kimi çıxış edir.

Qarabağ münaqişəsinə beynəlxalq münasibətlərin uzun müddət ərzində ikili standartlar üzərində formalaşdığı müşahidə olunur. 1988–2020-ci illər və sonrakı mərhələlərdə də bu yanaşma müxtəlif formalarda davam etmişdir. 44 günlük müharibə dövründə Azərbaycan informasiya müstəvisində ciddi təzyiqlərlə üzləşsə də, Prezident İlham Əliyevin beynəlxalq media platformalarındakı çıxışları bu stereotiplərin zəiflədilməsində mühüm rol oynamışdır. Bu çıxışlar hüquqi arqumentlərə və real faktlara əsaslanaraq qərəzli yanaşmaların mahiyyətini ifşa etmişdir. Ermənilərin Qarabağ ərazisini tərk etməsi ilə bağlı müxtəlif interpretasiyalar irəli sürülsə də, Azərbaycan tərəfi bu prosesdə reinteqrasiya və vətəndaşlıq əsaslı yanaşma təqdim etmiş, beynəlxalq müşahidəyə açıq model tətbiq etmişdir.

Bu baxış dövlətin hüquqi məsuliyyət və şəffaflıq prinsipinə əsaslandığını nümayiş etdirir. Eyni zamanda, Qərbi Azərbaycan məsələsində də beynəlxalq stereotiplərin mövcudluğu müşahidə olunur, lakin Azərbaycan diplomatik resurslar vasitəsilə bu yanaşmaların dəyişdirilməsi istiqamətində sistemli fəaliyyət göstərir.

Artıq Qərbi Azərbaycan İcmasının hazırladığı 11 sənəd beynəlxalq təşkilatlara təqdim olunmuş və müxtəlif platformalarda yayılmışdır. Bu proses nəticəsində əvvəllər mövzuya laqeyd yanaşan bəzi beynəlxalq strukturlar problemin mövcudluğunu qəbul etməyə başlamışdır. Bu isə diplomatik fəaliyyətin mərhələli şəkildə nəticə verdiyini göstərir.

Ermənistan tərəfinin rəsmi yanaşması isə uzun müddət ərzində tarixi və hüquqi reallıqlardan uzaq iddialarla müşayiət olunmuşdur. "Dənizdən dənizə Ermənistan" konseptləri, "soyqırımı" iddiaları və digər siyasi narrativlər regionda obyektiv reallıqlarla ziddiyyət təşkil edir. Eyni zamanda, azərbaycanlıların Qərbi Azərbaycandan çıxarılması ilə bağlı faktların təhrif olunması müşahidə edilir. Qarabağdan çıxan ermənilərlə bağlı iddialar isə real faktlarla uyğunluq təşkil etmir, çünki həmin şəxslərin təhlükəsiz çıxışı və mülkiyyətlərinin daşınması üçün şərait yaradılmışdır.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hər hansı ərazi iddiası ehtiva etmir və yalnız beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə qayıdış prinsipinə əsaslanır. Bununla belə, Ermənistan konstitusiyasında qonşu dövlətlərə münasibətdə ərazi iddialarına dair bəzi müddəaların qalması regionda sülh prosesinə təsir edən hüquqi ziddiyyətlərdən biri kimi qiymətləndirilir. Bu müddəaların aradan qaldırılması uzunmüddətli sabitlik və qarşılıqlı etimad üçün mühüm şərt hesab olunur.

***Mirfaiq MİRHEYDƏRLİ,***
***Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü,***
***Zəngibasar rayon icmasının sədri,***
***riyaziyyat üzrə fəlsəfə doktoru***

Sabir Rüstəmxanlı – 80

# Kasıblığın qoynundan mənəvi zənginliyin zirvəsinə

**1990-cı ilin yanvar ayı. Xalq təzə-təzə toparlanırdı. Fabrik-zavodlar zəif də olsa fəaliyyətlərini bərpa edirdi. Milyonlarla insan 20 Yanvar faciəsinin ağrılığından silkinib, “Ya Allah” deyib ayağa durur, ölkənin müxtəlif bölgələrində ziyarətgaha çevrilmiş Şəhidlər xiyabanlarına üz tuturdu.**



1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət qəzeti olmuş, cümhuriyyətin süqutu ilə fəaliyyəti dayandırılmış “Azərbaycan” qəzeti 1989-cu ilin oktyabr ayında Qarabağa Xalq Yardımı Komitəsinin nəşri kimi bərpa edildi. Sabir Rüstəmxanlının baş redaktorluğu ilə xalq hərəkatının tribunasına çevrilmiş, meydanlarda yüz minlərlə insanın bağrına basdığı, 20 Yanvar gülləbaranında sinələrdə qana boyanmış bu ilk demokratik qəzet azadlıq hərəkatının söz bayrağı kimi kütləvi yürüşlərin önündə getdi.

Belə günlərin birində, 1990-cı il fevralın əvvəlində qonşu Gürcüstanın Borçalı mahalından 20 Yanvar şəhidlərinin ailələrinə yardım üçün uzun bir maşın karvanı yola çıxmışdı. Gecəyarısı mənə zəng edib bu yardımların lazımi yerə təhvil verilməsi üçün kömək göstərməyimi xahiş etdilər. Mən o vaxtlar “Azərbaycan”da məsul katib vəzifəsində çalışırdım. İlk ağlıma gələn o oldu ki, azadlıq hərəkatının öncüllərindən olan, bir yerdə çalışdığımız Sabir Rüstəmxanlıya zəng edim. Zəng etməyə adamlar çox idi, lakin onlar etimadı doğruldacaqlardımı, qardaş payını lazımi yerinə çatdıra biləcəkdimi? Bir də ki, gecəyarısı kimin şirin yuxusuna zəhər qatmaq olardı?!

Sabir Rüstəmxanlıya zəng vurdum:

– Gecəniz xeyir, Sabir müəllim...

– Gecən xeyir, ay Şərif, xeyirdimi?..

– Borçalıdan yardım gəlib, bəlkə, onu sizin köməyinizlə münasib qurumlara təhvil verək...

– Çox yaxşı eləyib zəng vurmusan, indi şəhid ailələrinin, tətil edənlərin bu yardıma böyük ehtiyacları var. Bu dəqiqə çıxıram, narahat olma.

Belə məqamda Sabir müəllimi saxlamaqmı olardı?! Çox keçmədi ki, özünü yetirdi...

Üstümdən böyük bir yük götürüldü. Balalarının boğazından kəsib olan-olmazlarından pay göndərmiş insanların xoş niyyətinə qapı açdıq.

*

Bəs niyə Sabir Rüstəmxanlı?

Çünki kasıbçılığın nə olduğunu çox gözəl bilən insan heç vaxt xalqın malına göz dikməz! Kasıblıq içərisində ömür sürmüş insan mərd olar, çünki o, müflisləşmək qorxusundan azaddır. Əksinə, zənginlik rahatlığını görmüş insan daim kasıblaşmaq təlaşı keçirər. Sabir Rüstəmxanlı elə o vaxtlardan nəzərimizdə kasıb olduğu qədər də mənəvi zənginliyi olan bir şəxsiyyət idi! Onun kasıblığını daim gizlədən bir şey vardı: daxili zənginliyi!

1946-cı ilin 20 mayında Yardımlı rayonunun Hamarkənd kəndində 11 uşağın körpə quş balaları kimi bir-birinə sığınıb Allahın lütfünü gözlədikləri Xudu kişinin kasıb ailəsində dünyaya göz açmış Sabir heç kəsin gözləmədiyi halda birdən-birə 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldu, ali məktəbi fərqlənmə diplomu ilə bitirdi.

Ailənin maddi vəziyyətini ürəyinin başında düyünləyən Sabir əmək fəaliyyətinə hələ tələbəlik illərindən başlamış, sonra isə 1967-ci ildə Azərbaycan Yazıçılar İttifaqının orqanı olan “Ədəbiyyat və incəsənət” qəzetində işə qəbul edilmişdi. Həm özünü yaşatmaq, həm azdan-çoxdan ailəsinə əl tutmaq, həyatın əzablı yollarında büdrəməmək Yardımlı dağlarının sərt havasında bişib-bərkimiş bu gənci sınmamağa, əyilməməyə çoxdan hazırlamışdı.

1976-cı ildə “Cəlil Məmmədquluzadə və folklor” mövzusunda dissertasiya müdafiə etdi, filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələndi. Bu, kasıb dağ balası üçün böyük bir qələbə idi! Onun bu qələbəsi bəlkə də həyatının növbəti qaranlıqlarını aydınlatdı.

1967–1978-ci illər ərzində “Ədəbiyyat və incəsənət” qəzetində xüsusi müxbir və şöbə müdiri vəzifələrinə irəli çəkildi, 1978–1989-cu illər arasında isə “Yazıçı” nəşriyyatının baş redaktoru oldu. Yüzlərlə elmi, ədəbi-tənqidi, publisistik yazı çap etdirdi.

Və nəhayət, ilk kitabı 1970-ci ildə nəşr edildi. O vaxtdan kitablarına yaşıl işıqlar yandırılmağa başlandı. Azərbaycanda, Türkiyədə, Rusiyada, İsveçdə 20-dən artıq şeir, nəsr, publisistika kitabları nəşr edildi. Kitabları Azərbaycanın yüksək ədəbi ödüllərinə layiq görüldü, müəllifinin adını bütün Türk dünyasında və əski Sovetlər Birliyində tanıtdırdı.

“Ömür kitabı” adlı əsəri Azərbaycanda xalqın milli və yurdsevərlik duyğularının oyanmasında ciddi rol oynadı və 1988-ci il milli azadlıq hərəkatının mənəvi təməllərindən biri oldu (Yeri gəlmişkən, 1991-ci ildə mən Yekaterinburqda Müəllimlər qurultayının iştirakçısı olarkən Sabir müəllimin rus dilində nəşr olunmuş “Книга Жизни” kitabından təxminən 20 ədədini qurultay iştirakçılarına payladım. Çox böyük həvəslə qəbul edib dərhal vərəqlədilər).

Sabir Rüstəmxanlı 2005-ci ildə “Xalq şairi” fəxri adına layiq görüldü.

Onun onlarla əsəri oxucu sevgisi qazanmış, bir çox dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. “Tanımaq istəsən”, “Xəbər gözləyirəm”, “Sevgim, sevincim”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim!”, “Qan yaddaşı”, “Ömür kitabı”, “Atamın ruhu”, “Zaman məndən keçir”, “Xətai yurdu”, “Göy Tanrı”, “Bütövlük həsrəti”, “Ölüm zirvəsi (Cavad xan)", “Difai fədailəri”, “Sunami”, “Əbədi sevda”, “Dərdə əyilmə”, “Şair və Şər”, “Akademikin son əsəri”, “Astar” kitabları, “Didərginlər”, “Orxonla görüş” poemaları, “Bu sənin xalqındır” publisistik yazılarından ibarət toplusu, romanları ən çox oxunan ədəbiyyat nümunələridir.

Azərbaycan demokratik mətbuatının inkişafında, ənənəvi və yeni milli dəyərlərə sahiblənməsində Sabir Rüstəmxanlının xidmətləri nəzərə alınaraq 1991-ci ildə Mətbuat və İnformasiya naziri təyin olundu. O, bu vəzifədə bəlkə də daha artıq müddətdə qala bilərdi, lakin 4 ildən çox işləyə bilmədi. Bütün respublikanı şoka salan bir hadisə baş verdi – 1995-ci ildə o, vəzifəsindən istefa verdi. Müstəqillik illərində ilk və yeganə nazir idi ki, tutduğu vəzifədən könüllü olaraq istefa verirdi. Sabir müəllim bu addımı ilə yenə də bəzilərinə əxlaq dərsi vermək istədi – vəzifədə qocalmaq olmaz!

Sabir Rüstəmxanlının Milli Məclisin deputatı kimi 1990–2015-ci illərdəki fəaliyyətini yüksək qiymətləndirən neftçalalılar 2020-ci ildə onu yenidən Milli Məclisə deputat seçdilər. O, yüksək vəzifələrində çalışmaqla yanaşı, Azərbaycanı müxtəlif beynəlxalq qurumlarda, ictimai təşkilatlarda layiqincə təmsil edib. Dünya Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü, müxtəlif vaxtlarda konqresin Məclis sədri, 2008 və 2011-ci illərdə Dünya Azərbaycanlıları Konqresinin X və XI qurultaylarda təşkilatın həmsədri seçilib. İctimai-siyasi xadim kimi 1992-ci ildən Vətəndaş Həmrəyliyi Partiyasının sədridir.

Sabir Rüstəmxanlı bir çox orden və medallarla təltif olunub. “Ömür kitabı” (1988) əsərinə görə 11 yanvar 1989-cu ildə Azərbaycan Yazıçılar İttifaqının “M.F.Axundzadə ədəbi mükafatı”na layiq görülüb. Mədəniyyət Nazirliyinin təsis etdiyi “Nizami Gəncəvinin 880 illiyi (1141–2021)” xatirə nişanı ilə təltif edilib. 20 may 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şöhrət” ordeni ilə təltif edilib.

*

Sabir müəllimlə tanışlığım mənim mətbuat stajım qədərdir – 50 il. “Yazıçı” nəşriyyatında əmək fəaliyyətinə başladığım ildən bizim tanışlığımız və daha sonra dostluğumuz başlayıb.

Bu il Sabir Rüstəmxanlının 80 yaşı tamam olur. Bəzən adama elə gəlir ki, Sabir müəllimin əmək stajı fiziki yaşından çoxdur. Sanki onun ədəbi-bədii, publisistik yazılarında, tarixi səpkili əsərlərində gənc Sabirlə yanaşı ahıl, müdrik bir Sabir Rüstəmxanlı da həmişə onun yanında olub. İnanmaq olmur ki, 90-cı illərin meydan hərəkatını idarə edənlərdən biri olan 43-44 yaşlı gənc Sabirdir, yoxsa 50-60 yaşlı müdrik Sabir.

İllərlə Yardımlının kasıb bir ailəsinin problemlərini qəlbinə düyünləyib ümumxalq problemi ilə qoşa yaşadan Sabirin 90-cı illərdə gənc ikən ahıllaşması, şübhəsiz, burdan qaynaqlanırdı. Onu tanıyandan ümumi dərdlərimizə mənimki, səninki, onunku kimi prizmalardan yanaşdığına rast gəlməmişəm. Onun çox ciddi, hətta qlobal milli məsələlərin müzakirəsində belə ən böyük silahı qayğılı baxışları, təbəssümlü gözləri olub. Bunlar Sabir Rüstəmxanlının qeyri-səmimiliyinə, qeyri-dürüstlüyünə qətiyyən şübhə yeri qoymayıb.

Hətta Gürcüstanın Marneuli rayonunda çıxan “Axali Marneuli” qəzeti redaksiyasında olarkən də. Rusların Gürcüstanda törətdikləri faciənin ildönümündə - 1990-cı ilin 9 aprelində Tbilisidə olarkən “Azərbaycan” qəzetinin baş redaktoru Sabir Rüstəmxanlı, mən və kiçik bir qrupla Borçalının ən qaynar, ziddiyyətli kəndlərindən olan Arıxlıda, Sadaxlıda olduq, ağsaqqallarla, cavanlarla görüşdük.

Azərbaycanlıların qərənfillərdən matəm libası geydirdikləri Tbilisinin Rustaveli prospekti gürcüləri elə heyrətə və riqqətə gətirmişdi ki, onlar gözləri yaşara-yaşara bu sözləri demişdilər: “Azərbaycanlılar Gürcüstanı gül ilə fəth etdilər...”

Marneulidə olarkən “Yeni Marneuli” - təzə adla ilk nömrəsi çıxan “Kvemo Kartli” (“Aşağı Kartli”) qəzeti redaksiyasında olduq. Bu qəzeti Bakıda da almaqda davam edirdim. Oraya getməkdə məqsədimiz oxuduğum bəzi materiallarda anti-Azərbaycan yönümlü bir sıra məqalələrin dərci ilə əlaqədar idi. Mən bu barədə Sabir müəllimi də məlumatlandırmışdım.

S.Rüstəmxanlı qəzetin redaktoruna müraciətlə:

– Batano Petmar, “Yeni Marneuli” nə üçün “Kvemo Kartli” oldu? – dedikdə, o gülümsəyərək cavab verdi:

– Bilirsiz, batano Sabir, biz 70 ildə “yeni-yeni” deyə-deyə özümüzü aldatmışıq, əslində isə...

Bu yerdə mənim atmacam belə oldu:

– Əslində, Marneuli adı, doğrudan da, yenidir, qədimi adı isə Borçalı idi…

Sabir müəllim sözünə davam elədi:

– Burada yaşayanlar Azərbaycan xalqının bir hissəsidir. Əgər siz, batano Petmar, bu xalqın sevgisini qazanmaq, qəlbini duymaq və yaxşı qəzet buraxmaq istəyirsinizsə, gərək onu daha yaxından tanıyasınız. Siz hökmən Bakıya gəlin, Qarabağda, Şəkidə, Gəncədə olun. Azərbaycandakı milli azadlıq hərəkatındakı daxili burulğanı görmədən Borçalını dərk etmək sizin üçün çətin olar.

– Mən elə belə də edəcəyəm, batano Sabir! Sizin gəlişiniz bizim üçün də xoşdur. Xalqlarımız arasındakı mehribançılığı və etibarı hökmən bərpa etməliyik.

...Biz “Azərbaycan” qəzeti adından yaradıcılıq və əməkdaşlıq əlaqələrini genişləndirmək məqsədilə bir neçə əməli təklif də irəli sürdük. Qarşı tərəf bunu böyük məmuniyyətlə qəbul etdi…

***

Mənim doğma kəndimdə - Baydarda bir günlük təəssüratının uzun müddət təsiri altında qalan Sabir müəllimin anamın onun boynuna doladığı qollarına cavab olaraq - “Elə sandım ki, öz anamsınız” deməsini, yəqin ki, nə o, nə də mən heç vaxt unutmayacağıq.

*

1992-ci ildə “Azərbaycan” qəzetinin yaradılmasının üçüncü ildönümündə Sabir Rüstəmxanlı yazırdı: “Azərbaycan” qəzeti millətin hər bir övladına müraciət etmək, milli ruhu və milli məsuliyyət duyğusunu oyatmaq məqsədi daşıyırdı. İndi bütövlükdə həmin ruhun qanadlarındayıq. “Azərbaycan” mənim ömrümün bir parçasıdır. Tələbəlikdən ürəyimdə gəzdirdiyim müstəqil qəzet çıxarmaq arzusu “Azərbaycan”da reallaşdı. Bütün maneə və təzyiqlərə baxmayaraq, sözümüzü qismən deyə bilirdik. “Azərbaycan” birinci idi. Və formal məsələlərdən tutmuş məzmuna, ifadə tərzinə qədər sonrakı mətbuat orqanlarının heç biri onun təsirindən yan keçə bilməyib...

Qəzetin ilk redaktoru kimi, arzum budur ki, 1918-1920-ci illərdə çıxmış sələfindən fərqli olaraq, bu “Azərbaycan”ın ömrü yarımçıq qırılmasın, məmləkətimiz, millətimiz durduqca onun adını daşıyan, demokratik, mərd, namuslu sözün bayraqdarı olan qəzetimiz də yaşasın!”

***

Bəli, Sabir Rüstəmxanlını mən şair kimi, deputat kimi, məmur kimi, nazir kimi deyil, sadə bir insan kimi, dost kimi, ürəyinin xalq sevgisini başı üzərində gəzdirib onun şöləsindən hamıya nur səpməyə çalışan bir soydaşım, eloğlum, qardaşım kimi... təqdim etməyə çalışdım. Çünki o bu gün də eyni məziyyətlərin daşıyıcısıdır. Eyni Sabir, eyni Rüstəmxanlıdır... 80 yaşın mübarək, əziz qardaşım!..

***Şərif KƏRİMLİ,***
***yazıçı-jurnalist***

Təqvim yada salır

# Bu dünyadan bir Elçin keçdi...



**13 may Xalq yazıçısı, görkəmli dövlət xadimi Elçinin ad günü idi. Uzun illər rəhbərimiz olmuş, səmimi münasibət gördüyümüz əziz və unudulmaz insanı istedadlı şair-publisist Dilsuzla bir yerdə xoş xatirə və qədirbilənliklə yad etdik.**

***– Dilsuz müəllim, bilirik ki, siz Elçin müəllimlə həm Yazıçılar İttifaqında, həm Nazirlər Kabinetində uzun müddət bir yerdə işləmisiniz. Bəs ilk tanışlığınız necə olub?***

– 1960-cı illərdə Elçin, çox gənc olmasına baxmayaraq, bir nasir, publisist və tənqidçi kimi artıq populyar idi. O, Anar, Əkrəm Əylisli, Yusif və Vaqif Səmədoğlu qardaşları ilə yeni, modern ədəbiyyatın öncülərindən sayılırdı. Bir təşkilatda işləyirdik – o, Yazıçılar İttifaqında katib, mən isə ittifaqın “Azərbaycan” jurnalında şöbə müdiri idim. Üz-üzə gələndə, sadəcə, salamlaşırdıq, yəni hal-əhval tutmaq, bir-birimizin kefini xəbər almaq səviyyəsində yaxın deyildik...

Bir dəfə İlyas Əfəndiyevlə iki-üç saatlıq bir “könül söhbəti” etmişdim. Sonradan bu söhbəti müsahibə halına saldım və İlyas müəllimlə belə qərara gəldik ki, görüşək, görək nə alınıb. Mən İlyas müəllimgildə olanda, təsadüfən Elçin də gəldi və müsahibəni bir yerdə oxumalı olduq. Qurtaranda İlyas müəllim dedi: “Yaxşı alınıb, amma sən hər yerdə yazırsan: “İ.Əfəndiyev”. Axı mən İ nöqtə Əfəndiyev deyiləm – İlyas Əfəndiyevəm! O nöqtələri götürürsən, adımı bütöv yazırsan, olur əla! Yaxşımı?”.

Dedim yaxşı. İlyas müəllim Elçinlə məni yola salanda dedi: “Bir-birinizə söykək olun, kömək edin!”. Qəribədir, bu bir kəlmə söz bizi yüz illərin dostuna çevirdi.

***– Elçin müəllim müsahibələrindən birində deyir ki, o, tənha adamdı, heç vaxt dostu olmayıb...***

– Bu hansısa əhvali-ruhiyyədən doğan ötəri söz ola bilər. Ya da yaradıcılıq dünyasında tənhalığı nəzərdə tutub. Əslində, elə deyil. Elçinin özündən çox-çox yaşlı nə qədər dostu var idi: İmran Qasımov, İshaq İbrahimov, Qulam Məmmədli, Məmmədcəfər Cəfərov, Abbas Zamanov və b. Orta nəsildən, yəni özünün də mənsub olduğu nəsildən: Anar, Əkrəm Əylisli, Yusif və Vaqif Səmədoğlu qardaşları, Fikrət Qoca, İsi Məlikzadə, Qəzənfər Paşayev və b. O vaxtların gənc nəslindən: Sabir Rüstəmxanlı, Vilayət Quliyev, Nizami Cəfərov, İlham Rəhimli, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Şirindil Alışanov və b. Elçin, bəlkə də, dünyada ən çox dostu olan adam idi..

***– İlyas Əfəndiyevlə olan söhbətlərinizdə, yəqin, Elçin yaradıcılığına da toxunmusunuz...***

– Təbii ki. Maraqlıdır, İlyas Əfəndiyevin diqqətini Elçinin hekayə və povestlərindən, publisistik yazılarından daha çox ədəbi-tənqidlə bağlı cəlb edirdi. Yadımdadır, Elçinin ədəbi tənqid məqalələrini Moskvada dərc olunan “Drujba Narodov” jurnalı ilin ən yüksək mükafatına layiq görmüşdü. Bu, İlyas Əfəndiyevi hədsiz dərəcədə sevindirmişdi. Qürurla deyirdi: “Ədəbi tənqid ədəbiyyatın yol göstərənidir – kompasıdır! Çox əhəmiyyətli janrdır! Bizim buna ehtiyacımız var! Belinskilər olmalıdır ki, Tolstoylar da olsun”.

***– Hələ sovet hakimiyyəti illərində Elçinin Türkiyəyə olan marağı, sevgisi, 1984-cü ildə qələmə aldığı “Yaxın, uzaq Türkiyə” adlı əsərində öz əksini tapdı. O, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqə Cəmiyyətinin – “Vətən” Cəmiyyətinin sədri işləyəndə də bu münasibət özünü üstün şəkildə göstərdi.***

– Türkçülüyün özünü təzə-təzə büruzə verməyə başladığı vaxtlarda belə bir sanballı əsərin meydana çıxması, sözün əsl mənasında, böyük risk və böyük sensasiya idi. Bu əsər, sözsüz ki, elə-belə ərsəyə gəlməmişdi – gizli arxivlər açılmışdı, qadağan olunmuş sənədlər incələnmişdi, tarixin qaranlıqlarında pas atmış həqiqətlər üzə çıxarılmışdı! Böyük türk şairi Nazim Hikmət bir şeirində yazır:

***Orkestr matəm marşı çalar,***
***Və biz bir hasarın dibində***
***Basdırarıq ölülərimizi***
***bərəkətli toxumlar kimi!..***

Həmin bərəkətli toxumlar indi “Yaxın, uzaq Türkiyə” əsərinin səhifələrində cücərmiş və gün işığına çıxmışdır!

***– Siz İlyas Əfəndiyevin 7, Elçinin 10 cildlik külliyyatlarını hazırlamısınız.***

– Elədir. Amma bu külliyyat məsələsini bir qədər dəqiqləşdirmək lazımdır. İlyas Əfəndiyev nə yazıbsa, o 7 cilddə toplanıb. Elçinin isə yazdıqlarının, təxminən, 60 fazi o 10 cildə daxil edilib. Bir sıra hekayə və povestləri, eləcə də son illərdə yazdığı pyesləri, yəqin ki, gələcək nəşrlərdə nəzərə alınacaqdır.

***– Elçin müəllim redaktə məsələsində sizə problem yaratmırdı ki?***

– Yox. Düzəlişləri onunla razılaşdırırdım. Ortaq məxrəcə gələ bilirdik.

***– O xasiyyətcə tünd adam deyildi ki...***

– Bəzən bir adamla elə dalaşırdı ki, deyirdim onu ömrünün axırına kimi bir də danışdırmaz. Amma yanılırdım. Səhər olan söz-söhbəti axşama kimi unudurdu. Kinsiz adam idi.

***– Uzun müddət Nazirlər Kabinetində də bir yerdə işləmisiniz. Yazıçı Elçinlə məmur Elçin fərqli adamlar idimi?***

– Sözsüz ki, fərqli adamlar idilər. Yazıçı Elçin daha yumşaq, daha həlim idi. Məmur Elçin isə ciddi və sərt idi. 1993-cü ildə Ermənistanla atəşkəs elan olunduqdan sonra Azərbaycanda ordu quruculuğuna start verildi və Prezidentin göstərişi ilə Baş nazirin müavini Elçin bu məsələni icra etmək üçün səlahiyyətli şəxs qismində Qazax, Ağstafa, Tovuz, Şəmkir, Daşkəsən və Gədəbəy rayonlarına ezam olundu. O vaxt mən köməkçi idim.

Biz 12 gün bu rayonlarda gənclərin orduya cəlb olunmasına, kazarmaların yaradılmasına, təchizat məsələlərinin qaydaya salınmasına, silah-sursatın əldə edilməsinə və hərbi təlimlərin keçirilməsinə nail olduq. O dövrdə mənim üçün ən çox əlamətdar olan bu idi ki, heç kim uşağını ordudan yayındırmırdı, fərarilik yox idi. Elə valideyn var idi ki, uşağı Moskvada, Voronejdə idi, deyirdi ki, ikicə gün möhlət verin, xəbər eləmişəm, gələcək və gəlirdi də.

Bugünkü milli ordu 1993-cü ildə təşkil olunmuşdu. Məncə, Baş nazirin müavini Elçin Əfəndiyevin bir vətəndaş kimi, bir dövlət xadimi kimi xidmətlərindən söz açanda, bunu da qeyd etməliyik.

***– Nəsr, publisistika, ədəbi tənqid, üstəgəl dramaturgiya. Elçin bu 4 janrın hər birində mahirdir, ustaddı. Yaradıcılığının son dövrlərində, nədənsə, dramaturgiyaya daha çox meyil edib. Sizcə, bu nə ilə əlaqədardır?***

– Maraqlı sualdır. Bilmirəm, sizi qane edəcək, ya yox, bu bir həqiqətdi: İlyas Əfəndiyev vəfat edəndən sonra teatrlarımızda bir boşluq yarandı – istedadlı dramaturqun illər boyu xüsusi diqqət və qayğı ilə qulluq etdiyi “teatr bağçası” yavaş-yavaş solmağa başladı. Bunu, hamımız kimi, Elçin də hiss etdi. Ola bilsin ki, o bu boşluğu doldurmaq, bu bağçanı xəzandan qorumaq üçün bu yola baş vurdu.

Əlbəttə, məqsədinə nail olub-olmadığı barədə fikir yürütmək teatr tənqidçilərinin işidir. Mən isə, bunu, sadəcə, son dərəcə dəyərli cəhd kimi qiymətləndirirəm...

***– Elçinin dövlət işindən və ədəbiyyatdan başqa, hər hansı bir məşğuliyyəti vardımı?***

– Kolleksioner idi. Keçən əsrin birinci yarısında yaşamış ustad xanəndələrin vala köçürülmüş ifalarını və bir də nəfis şəkildə işlənmiş rəsm əsərlərini toplayırdı. Belə bir fikri vardı ki, özəl rəsm qalereyası açsın. İnkişaf etmiş ölkələrdə, o cümlədən qardaş Türkiyədə belə nümunələr var.

***– Maraqlıdır, o həmin əsərləri necə əldə edirdi?***

– Bəzilərini pulla alırdı, bəzilərini isə rəssam dostları, tanışları hədiyyə edirdilər. Hansısa əsərinin Elçin kimi görkəmli yazıçının kolleksiyasında və yaxud özəl rəsm qalereyasında olması rəssam üçün də fəxr idi.

***– Dilsuz müəllim, bu gün uzun illər rəhbərliyi altında işlədiyimiz, boynumuzda haqq-sayı olmuş Elçin müəllimin doğum günüdür. Bu insanla bağlı ürəyimizdə gəzdirdiyimiz sevgi-sayğını ifadə etmək hər ikimizə xoş oldu. Şübhəsiz, ustadımızın da ruhu şad oldu.***

***Söhbəti apardı:***
***Abid TAHİRLİ,***
***filologiya elmləri doktoru, professor***

*Yeni nəşrlər*

# Vurğunşünaslığa dəyərli töhfə

**Atatürk Mərkəzində yazıçı-publisist Ramiz Göyüşün Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinə həsr etdiyi “Ellər yaşadacaq şair ömrünü” adlı yeni kitabının təqdimatı olub.**



“İmza” nəşrlər evində çap edilmiş kitabın redaktoru filologiya elmləri doktoru, professor Rüstəm Kamal, məsləhətçisi isə filologiya üzrə fəlsəfə doktoru, Səməd Vurğun irsinin yorulmaz tədqiqatçısı, vurğunşünas alim Aslan Salmansoydur.

Prezident İlham Əliyevin Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinin keçirilməsi haqqında sərəncamının preambula hissəsindən iqtibasla başlanan kitab böyük şairin həyat və yaradıcılığının ayrı-ayrı məqamları, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində müstəsna xidmətləri, görkəmli şəxsiyyətlərlə şəxsi dostluğu və yaradıcılıq münasibətləri, eyni zamanda, əsərlərinin yaranma tarixi haqqında məlumatlarla zəngindir.

Şairin ruhuna böyük ehtiramın daha bir ifadəsi olan təqdimat mərasimində akademik Nizami Cəfərov, filologiya elmləri doktoru, professor Rüstəm Kamal, “Qazax” Xeyriyyə Cəmiyyətinin sədri İlham Pirməmmədov, ADNSU-nun müəllimi, respublikamızın Gürcüstandakı sabiq səfiri Hasan Hacısoy, tanınmış jurnalistlər İlqar Həsənov, Şəmsiyyə Kərimova, şairlər Rafael İncəyurd, İbrahim İlyaslı, Əbülfət Mədətoğlu, Kənan Hacı, Fəxrəddin Teyyub, Zaur Ustac, Zərəngiz Dəmirçi, Zaməddin Ziyadoğlu, rəssam Nəvai Mətin, qiraət ustası Cəbrayıl Qənbər və başqaları kitab haqqında fikirlərini bildirdilər.

Qeyd edildi ki, kitabda Azərbaycan ədəbiyyatı tarixində şairlərin dostluğunun özü bir yaradıcılıq aktı və davranış hadisəsi kimi təqdim olunub. Həmçinin Səməd Vurğun haqqında görkəmli elm, sənət və mədəniyyət xadimlərinin fikirlərinin bir yerə toplanması təqdir olundu.

Mərasimin sonunda Ramiz Göyüş fəal müzakirəyə görə minnətdarlıq etdi. O, Xalq şairi Səməd Vurğunun zəngin irsi ilə bağlı araşdırmaları davam etdirəcəyini bildirdi.

***Ə.NƏCƏFXANLI***
***XQ***

*Milli kino tariximizdən*

# Böyük eranın çətin yolu

**Kino sənəti həyatın gözəllikləri ilə yanaşı, eybəcərliklərini də çılpaqlığı ilə əks etdirməklə insanı yaxşını pisdən seçməyə səsləyir. Bədii filmlər həyat həqiqətlərini ekranda canlandırmaqla cəmiyyətin güzgüsünə çevrilir. Xalqın mədəniyyəti yalnız o zaman yüksəlir ki, belə sənət insanı dəyərləri kütləviləşdirməyə xidmət edir. Azərbaycan kinosu da estetik təsiri ilə yanaşı, həm də həyatımızın canlı xronikasını yaradıb. Dünya kinosunun təcrübə və ənənəsi əsasında formalaşan Azərbaycan kinosu ötən 128 ildə bu sənət xəzinəsinə qiymətli incilər verə bilmişdir.**



1839-cu ildə fotoqrafiyanın kəşfi vizual görüntülərin qeydə alınmasını mümkün etmişdi. Edvard Maybrikin 1878-ci ildə “Hərəkətdə olan at” adlı şəkilləri hərəkətin təsvirində yeni cərəyan yaratmışdı. 1895-ci il dekabrın 28-də isə Parisdə “Lumieres kinematoqrafı” ilə ilk ictimai kino nümayişi keçirildi.

“Qatarın stansiyaya daxil olması”, “Fəhlələrin fabriki tərk etməsi” kimi qısametrajlı filmlər tamaşaçıları heyrətə gətirmişdi. Azərbaycan milli kinosunun tarixi 1898-ci il avqustun 2-də fransız fotoqraf və nasir Aleksandr Mişonun çəkdiyi “Bibiheybətdə neft fontanı yanğını”, “Balaxanıda neft fontanı”, “Şəhər bağında xalq gəzintisi” və “Qafqaz rəqsi” kimi xronika süjetləri ilə başlamışdır.

1900-cü ildə Fransada keçirilən ümumdünya sərgisi Azərbaycan kino tarixinin də taleyində mühüm dönüş nöqtəsinə çevrilmişdi. Çar Rusiyasını təmsil edən Aleksandr Mişon Bakıda çəkdiyi filmləri Parisə aparmış, beləliklə, Azərbaycanın şəhər həyatı, gündəlik sosial ritmi ilk dəfə beynəlxalq kino məkanına daxil olmuşdu. Mişonun təqdim etdiyi filmlər Parisdə o dövrün kino avanqardı sayılan Lümyer qardaşlarının da diqqətini çəkmişdi.

Ümumiyyətlə, Azərbaycanda kinonun yaranma tarixi müxtəlif səbəblərdən üç dəfə dəyişmişdir. İlk dəfə 1919-cu il avqustun 27-də Leninin kinematoqrafiyanın və fotoqrafiyanın milliləşdirilməsi barədə verdiyi dekret əsasında həmin tarix “Kino Günü” adlandırılmışdı. Bu dekret keçmiş Sovet İttifaqının tərkibində olan 15 respublika üçün ümumi qayda idi. Sovet İttifaqı süqut etdikdən sonra Azərbaycanda kinonun tarixi 1916-cı ildə ekranlara çıxmış “Neft və milyonlar səltənətində” adlı ikiseriyalı bədii filmin nümayişi nəticəsində 14 mayda qeyd olunmağa başlamışdı.

Filmin 1-ci seriyası 1916-cı il mayın 14-də, 2-ci seriyası isə mayın 27-də göstərilmişdi. Filmin orijinal nüsxəsi bu günə qədər qorunub saxlanmasa da, haqqında yazılmış reklam vərəqi bu gün də Mirzə Fətəli Axundzadə adına kitabxanada nadir nüsxələr bölməsində saxlanılır.

2 may 1998-ci ildə Azərbaycan kinosunun 100 illiyinə həsr olunmuş festivalda ulu öndər Heydər Əliyev demişdi ki, Azərbaycan kinosunun tarixi 1898-ci ildən başlayır: “Biz 1916-cı ili başlanğıc ili hesab edirdik, lakin Azərbaycan kinosunun yaşını əgər belə demək olarsa, 10 il, yaxud neçə il artırmaq heç də sadə məsələ deyildi. Bu o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi o, Azərbaycana gəlib…”

**Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi Əli İsa Cabbarov** bildirdi ki, milli kinomuz çətin və şərəfli yol keçərək günümüzə tarixi uğurları ilə gəlib çatıb:

– "Neft və milyonlar səltənətində" filmini xatırlayarkən, "Piron qardaşları" şirkətinin ərsəyə gətirdiyi bu yadigarda o dövrün ruhunu diktə edən azərbaycanca titrlərin bədii çəkisi xüsusi diqqət çəkir.

Bu əvəzsiz əsərin taleyi isə günümüz üçün hələ də müəmmadır. 1918-ci ilin qanlı hadisələri zamanı erməni quldurlarının Tağıyev teatrını yandırması ilə filmin də yanıb külə döndüyü iddia edilsə də, bəzi kinoşünaslar bu ehtimalı təkzib edir. Çünki "Filma" şirkətinin öz ofisi varikən lentin teatrda saxlaması məntiqsiz görünür. Böyük ehtimalla bu nadir sənət incisi Rusiyanın arxivlərinə aparılsa da, sonralar qeyri-peşəkar baxım ucbatından yararsız hala düşüb.

"Neft və milyonlar səltənətində" filminin taleyi, əslində, kinomuzun hər dövrdə amansız sınaqlarla və itkilərlə üz-üzə qaldığının bariz nümunəsidir. Lent yox olsa da, o dövrdən miras qalan realist təsvir ənənəsi və güclü ədəbiyyatla ekranda qurulan o möhkəm bağ, onilliklər keçsə də qırılmadı. Əksinə, daha dərin bədii dramaturji qatlarla zənginləşərək milli kinomuzu tamamilə fərqli və bənzərsiz bir mərhələyə daşıdı.

Bu gün də milli kinomuz ustad sənətkarların gedişi ilə postİbrahimbəyov dövrünə qədəm qoyub. “Bir cənub şəhəri”, “Bağlı qapı”, “Ölsəm bağışla”, “Çalışan adam” kimi milli kinomuzun estetik sərhədlərini genişləndirən filmlərin müəllifi artıq bir tarixdir. Yaşadığı 84 illik ömrün təxminən 70 ilini kinoya gətirdi, Kinoda Bakı saqası yaratdı. O cənub şəhərinə, həm də bu şəhərin kinosuna “əlvida” dedi.

Əlbəttə, söhbət təkcə Rüstəm İbrahimbəyovdan deyil, onun təmsil etdiyi epoxadan gedir. Epoxa isə heç də həmişə tərcümə olunduğu kimi dövr mənasını vermir. Epoxa sözünün mənası qədim yunancadan dilimizə çevirəndə dayanacaq sözüylə üst-üstə düşür. Doğrudan da, hər nə baş verirsə yolda yox, dayanacaqda baş verir. Yol isə onların birindən ayrılıb o birinə doğru getmək deməkdir.

***– Bəs növbəti dayanacaqda, yeni mərhələdə bizi nə gözləyir?***

– İlk ağla gələn rus dilinin rolunun azalmasıdır. Xüsusilə, tarixin siyasi səhnəsində son aylarda cərəyan edən hadisələr bu qənaətə gəlməyə əsas verir. Zarafat deyil, uzun zamanlar rus dili qlobal dünyaya çıxmaqda bizim üçün körpü rolunu oynayıb. Bəs indi? Azərbaycan kinosunda rus dilinin əvvəlki statusunu ingilis dili tuta bilərmi? Filmlərə ingilis dilində subtitr yazmaq, müəyyən görüşlərdə bir çox gənclərimizin ingiliscə ünsiyyətdə olmaq bacarığı hələ status dili deyil.

Rusdilli xalq yazıçılarımızı saysaq, böyük bir siyahı yaranar. Amma ingilisdilli bir nəfər sıravi yazıçımızı, hələ ki, tapa bilmərik. Əsas o deyil. Əsas odur ki, bu dəyişikliklərdən kinomuzun keyfiyyəti qazanacaq, ya yox. Bunu gələcək göstərər. Amma doğma dilində düşünən, kinonu öz dilində danışdıran rejissorların kreativ üstünlüyü faktdır.



Kinomuzdakı prosesləri izləyəndə və ya filmlərin estetik keyfiyyətini analiz edəndə zəka qıtlığı hiss edirsən. Söhbət intellektual filmlərin azlığından yox, kinomuzda gedən proseslərin və filmlərin müəllif işinin arxasında ciddi, əqli bir işin dayanmadığından gedir. Kinomuzda zəka, əql çox hallarda instinktə, emosionallığa uduzur.

***– Milli kinomuzda gözləntilər bu zəka qıtlığını aradan qaldıra biləcəkmi?***

– Ədəbi nəsrimiz və kinomuz, ssenari və istehsal, özəl film şirkətləri və dövlət sifarişi münasibətləri daha effektiv qurularsa, bu da zəka göstəricisi sayıla bilər. “Azərbaycanfilm” studiyasının redaksiya heyətinə İsa Hüseynov, Yusif Səmədoğlu, İsi Məlikzadə kimi güclü nasirlər rəhbərlik edəndə, studiyanın ssenari paketi və filmlərin keyfiyyətində fərq vardı. Elə İbrahimbəyov da, böyük qardaşı da, nəsrdən kinomuza transfer olunmuş profillər idilər. Nəsrimiz və kinomuz arasında körpünün bərpası ən ümdə məsələlərdəndir.

Amma kino adlı möcüzəni texniki təfərrüatdan fərqləndirən nələrsə var ki, burda heç bir güclü nəsr əsəri, mahir dramaturgiya kömək edə bilməz. Kinomuza şairanəlik, poetik kino elementləri həmişə olub. Amma dəstəklənməyib. Bəlkə, Ramiz Rövşən poeziyasının kinodramaturji təzahürü dəstəklənsəydi, kimlər üçünsə stimul olardı. Kinomuzda özünü komfortlu hiss edən tarixi və komediya filmləri ilə yanaşı, poetik kino da tamhüquqlu yaşamaq hüququ qazanardı. Mənə elə gəlir kinomuz bundan qazanardı.

Ədəbiyyat kinonun qida mənbələrindən biridir və təkcə proza və dramaturgiya yox, bəlkə də, ilk növbədə, poeziya. Çünki təsvir ancaq informativlikdən çıxanda sənət olur. Kinomuz nə Dədə Qorquda, nə Səməd Vurğuna, nə də Ramiz Rövşənə müraciət edəndə uduzmadı. Məhəmməd Füzuliyə, Aşıq Ələsgərə müraciət etsə uduzmayacaq. Söhbət təkcə ekranlaşdırmadan getmir. İlk növbədə, poetik enerjidən qidalanmaqdan o ovqata köklənməkdən, poetik obrazların ekran həllini tapmaqdan gedir. Özümüzə şair xalq deyirik. Şair xalqın da güclü poetik kino ənənəsinin olmasında qəribə nə var ki?

Venetsiya və Lokarno Festivalının müsabiqə iştirakçısı Hilal Baydarovun filmləri, Azərbaycan poetik kino ənənəsinin parlaq nümunələrindəndir. Ona qədər Anar (kinodramaturq olaraq), Arif Babayev, Tofiq Tağızadə, Elçin Musaoğlu, Vəli Səyyadi təsviri şairanə ovqatda yaratdılar, kadrlarla şeir söylədilər, boy boyladılar. Yolun başlanğıcı var, onu gedənlər var. Onu genişləndirmək, daha əminliklə getmək, yola çıxanları dəstəkləmək lazımdı.

Nəsrlə nəzmin arasında qalan sözlər hər cəhddən sonra poeziyaya bənzəyən mətnə çevrilir. Qəhrəmanın hiss dolu ürəyi, özünü nəsrlə ifadə edə bilmir şeirə keçir. Bəlkə də kinomuz da, nəsrlə ifadə oluna bilinməzlikdədir. Ümid şeirə qalıb. Çünki kinomuz öz təbii axarına, yəni doğma dilinin şirinliyinə və ruhunun şairanəliyinə qovuşduqca yenidən doğulacaq. Biz o zaman daha böyük inamla pıçıldayacağıq: salam, bənzərsiz keçmişimiz, salam, ümid dolu gələcəyimiz, salam Azərbaycan kinosu!

***Söhbəti yazdı:***
***Fidan ƏLİYEVA***
***XQ***

# Azərbaycanda kino təşviqi beynəlxalq jurnalda

**Böyük Britaniyanın kino sahəsində beynəlxalq reytinqli nəşrlərindən olan “Screen International” jurnalının may buraxılışının üz qabığı Azərbaycanda kino sənətinin dövlət tərəfindən dəstəklənməsinə və fəaliyyətin təşviqinə həsr edilib.**




Bildirilib ki, jurnalın üz qabığında Azərbaycanda kino istehsalı sahəsində aparılan islahatların nəticələrindən biri olan geri ödəniş mexanizmi ilə bağlı informasiya verilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyul tarixli qərarına əsasən, ölkə ərazisində film istehsalı üçün mal, iş və xidmətlərin alınmasına çəkilmiş xərclərin 25 faizi istehsalçıya geri qaytarılır.

Bundan başqa, mədəniyyətimizin təbliği üçün müəyyən edilmiş meyarların, azı, üçünə cavab verdikdə çəkilmiş xərclərin daha 15 faizi istehsalçıya geri ödəniləcək. Beləliklə, istehsalçı şirkət xərclərinin 40 faizə qədərini geri ala biləcək. Bunu əsas götürərək jurnal Azərbaycanın xarici film istehsalçılarının sevimli məkanına çevriləcəyini bəyan edir.

Xatırladaq ki, jurnalın may buraxılışı 79-cu Kann Film Festivalına həsr edilib. Hazırda Azərbaycan bu festivalda milli stendlə təmsil olunur.

***XQ***

# Xarıbülbül: qədim əfsanədən çağdaş təntənəyə

**Qarabağın tacı, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa əsrlər boyu musiqi, poeziya və incəsənət mərkəzi kimi tanınıb. Bu qədim şəhər memarlığı, təbiəti, yetişdirdiyi sənətkarlar, xanəndələr və şairlərlə Azərbaycan mədəniyyət tarixində xüsusi yer tutur. Burada keçirilən “Xarıbülbül” beynəlxalq musiqi festivalı da ilk dəfə bu zəngin irsi dünyaya tanıtmaq üçün təşkil edilmişdi.**



1989-cu ildə ilk dəfə keçirilən festival görkəmli xanəndə Seyid Şuşinskinin 100 illik yubileyinə həsr olunmuşdu. Adını “Xarıbülbül” çiçəyindən alan festival qısa müddətdə beynəlxalq nüfuz qazandı. Hər ilin may ayında keçirilən tədbirdə Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan və keçmiş SSRİ respublikalarından sənət nümayəndələri iştirak edirdi.

Lakin Ermənistan–Azərbaycan münaqişəsinin başlanması və Şuşanın işğal olunması bu möhtəşəm ənənənin yarımçıq qalmasına səbəb oldu. 1992-ci ilin may ayında keçirilən son festival artıq ağır və gərgin bir dövrə təsadüf edirdi. Sonralar qısa müddət Ağdam şəhərində davam etdirilsə də, buranın da işğalı ilə tədbirin keçirilməsi tamamilə dayandırıldı, Qarabağın musiqi səsi uzun illər susduruldu.

2020-ci ildə tarixi Qarabağ Zəfərindən sonra Şuşa yenidən Azərbaycanın mədəni həyatının mərkəzinə çevrildi. Ölkə başçısı İlham Əliyevin sərəncamı ilə Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunması şəhərin əvvəlki şöhrətinin bərpasında mühüm addım oldu. Bu qərardan sonra “Vaqif Poeziya Günləri” və “Xarıbülbül” festivalı yenidən keçirilməyə başlandı.

Şuşa işğaldan azad olunduqdan sonra ilk dəfə 2021-ci il mayın 12-13-də keçirilən “Xarıbülbül” festivalı tarixi qayıdışın və milli qürurun rəmzinə çevrildi. Cıdır düzündə səslənən muğamlar, xalq mahnıları və müxtəlif xalqların musiqiləri Qarabağda həyatın yenidən canlandığını bütün dünyaya nümayiş etdirdi.

2022-ci ildə Şuşa şəhərinin 270 illiyi münasibətilə Prezident İlham Əliyevin iştirakı ilə keçirilən V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı çərçivəsində müxtəlif ölkələrin folklor kollektivləri, musiqiçi və incəsənət nümayəndələri Şuşada bir araya gəldilər. Növbəti ildə keçirilən festival isə türk dünyasının mədəni birliyini nümayiş etdirdi. Festival günlərində TÜRKSOY ölkələri, eləcə də regionun türkdilli xalqlarının yaradıcı kollektivləri çıxış etdilər.

2024-cü il mayın 11-də isə Şuşanın məşhur Cıdır düzündə VII “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının və “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin açılış mərasimi keçirildi. Tədbirdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər. Ölkə başçımız mərasimdəki çıxışında dedi: “Builki “Xarıbülbül” festivalı bu hadisəyə - Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunmasına həsr edilib. Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq”.

Ötən il 24–25 mayda keçirilən VIII “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı isə dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyinə həsr olundu. Qarabağda yenidən səslənən musiqi Azərbaycanın tarixə, sənətə və milli dəyərlərə bağlılığının ən parlaq nümunələrindən biridir. Bu il mayın 14-15-də keçirilən sənət təntənəsi musiqiçilər arasında yaradıcılıq mübadiləsinə, mədəni dialoqun inkişafına yeni töhfə verəcək.

Ənənəvi çal-çağıra verilən Xarıbülbül adı isə xalqımızın Qarabağın həsrətini və Zəfər tarixini özündə yaşadır. Latınca “ophrys caucasica” və ya “ophrys mammosa” adlanan bu nadir bitki əsasən Şuşa və ətraf ərazilərdə yayılıb. Bu bənzərsiz çiçəklə bağlı bir qədim əfsanədə deyilir ki, döyüşdə ağır yaralanmış bir türk əsgəri son nəfəsində qanlı köynəyindən bir parça cıraraq sevgilisi Aybükə xanıma xəbər göndərir. Bu xəbəri bülbül ünvanına çatdırır. Beləliklə, Xarıbülbül nakam sevginin, sədaqətin və qəhrəmanlığın rəmzinə çevrilir. Qırğız yazıçısı Erlan Jurabekovun “Jarxı bulbul” əsərində də bu qədim türk motivlərinə geniş yer verilir.

Tarixdə Xarıbülbül adı ilə bağlı təsirli rəvayətlərdən biri də Qarabağ xanının qızı Ağabəyim ağa ilə bağlıdır. O, uzun illər Tehranda yaşasa da, doğma Qarabağ həsrəti ilə ömür sürmüşdü. Ona aid edilən məşhur bayatı isə Vətən nisgilini təsirli şəkildə ifadə edir:

***Vətən bağı al-əlvandır,***
***Yox içində Xarıbülbül.***
***Nədən hər yerin əlvandır,***
***Köksün altı sarı, bülbül.***

Canlı həyatı xatırladan bu çiçəyin ləçəyi üstündəki mənzərə eynilə bülbülün arı-xar ilə savaşını xatırladır. Bu savaş Qarabağ uğrunda Ermənistanla çoxillik münaqişə və müharibəni də simvolizə etdiyinə görə “Xarıbülbül” şanlı zəfərimizin də rəmzinə çevrildi.

Şuşa bu gün mədəni-kütləvi məclislərin, el təntənələrinin, yenidən canlandığı, genişmiqyaslı bərpa və yenidənqurma prosesinin aparıldığı tarixi yurdumuzdur. Burada keçirilən beynəlxalq forumlar, tədbirlər, müsabiqələr dünyaya ünvanlanan mühüm bir mesajı ifadə edir: Bu şəhər qısa zamanda yenidən dirçəlib, abadlaşıb və regionun ən cazibədar mədəniyyət mərkəzlərindən birinə çevrilir.

***Ləman TƏHMƏZ***
***XQ***

# Şəhid mayorun xatirəsi anılıb

**Xidmət etdiyi hərbi hissədə mahir kəşfiyyatçı kimi tanınan, “AQS-17”-nin “atası” sayılan mayor Anar Novruzov Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya göz açıb. 2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşlərinin qəhrəmanı olub. “Mixaylo” ləqəbli döyüşçü düşmənin qəniminə çevrildiyi üçün ermənilər başına pul ayırıblar.**



Tovuz döyüşlərində silahdaşları general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədovla eyni vaxtda şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Anar Gülverdi oğlu Novruzov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub. Ərkivan qəsəbəsində küçələrdən birinə onun adı verilib. Vaxtilə yaşadığı evin qarşısında büstü qoyulub. Haqqında kitab yazılıb, sənədli film çəkilib.

Bu günlərdə şəhid mayorun anadan olmasının 50-ci ildönümü qeyd olunub. Məzarı önündə keçirilən mərasimə rayon rəhbərliyi, şəhidin ailə üzvləri, qohumları, müharibə iştirakçıları, qəsəbə sakinləri toplaşıblar. Jurnalist-publisist Akif Ağayev igid kəşfiyyatçının ömür yolundan, döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan ətraflı söhbət açıb. Tanınmış iş adamı Məşkur Qasımov, Ərkivan qəsəbə 1 saylı tam orta məktəbin müəllimi Əflatun Qurbanov və başqaları Anar Novruzovun həyatının və döyüş yolunun gənc nəslə örnək olduğunu bildiriblər.

Şəhidin oxuduğu C.Cabbarlı adına Ərkivan qəsəbə 1 saylı tam orta məktəbin şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər səslənib. Anar Novuzovun xatirəsinə həsr edilmiş güllə atıcılığı turnirinin qalibləri mükafatlandırılıb.

Unudulmaz zabitin əmisi Bəyverdi Novruzov və qardaşı Sucəddin Novruzov şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Qəlblərdə əbədi yaşayan Anar Novruzovun məzarı üzərinə gül dəstələri düzülüb, ruhuna dualar oxunub və əziz xatirəsi ehtiramla anılıb.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# “Heydər Əliyev və Azərbaycan ədliyyəsi”




**Hüquq və İnsan Haqları İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” adlı kitabının Milli Məclis deputatlarının, hüquqşünasların, partiya və vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə təqdimatı mərasimi keçirilib.**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, Əməkdar hüquqşünas, uzun illər ədliyyə naziri və Məhkəmə-Hüquq Şurasının sədri işləmiş Fikrət Məmmədovun müəllifi olduğu nəşrdə Heydər Əliyevin Azərbaycan hüquq sisteminin inkişafındakı tarixi rolu dərindən araşdırılıb. Kitabda ulu öndərin siyasi kursunu uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan yüksək nailiyyətlər, ədliyyə və məhkəmə sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində həyata keçirilən islahatlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ümummilli liderin irsinin öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti də geniş yer alıb.

Mərasimi giriş sözü ilə açan İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə yeni nəşr barədə ətraflı məlumat verərək kitabın Ulu öndərin hüquq irsinin öyrənilməsində zəngin mənbə olduğunu vurğulayıb.

Yeni nəşrin müəllifi Fikrət Məmmədov ulu öndər Heydər Əliyev haqqında kitab yazmağın olduqca məsuliyyətli olduğunu söyləyib, dahi şəxsiyyətin dövlət və xalq qarşısında misilsiz xidmətlərindən danışıb. O, zaman keçdikcə, Ulu öndərin dahiliyinin, uzaqgörənliyinin, müdrikliyinin daha dərindən dərk edildiyini bildirib.

Mərasimdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri İnam Kərimov, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə




Əliyeva, Milli Məclisin komitə sədrləri Əli Hüseynli və Zahid Oruc, Bakı Dövlət Universiteti hüquq fakültəsinin dekanı Zaur Əliyev və başqaları çıxış edərək Ümummilli liderin Azərbaycan hüquq sisteminin formalaşdırılmasında müstəsna xidmətlərindən bəhs ediblər, kitabda bütün bunların mükəmməl əksini tapdığını qeyd ediblər.

***Q.YUSİFOĞLU***
***XQ***

# Süni intellektə müəlliflik hüququ verilə bilərmi?

## *Dünya təcrübəsi və qanunvericilik normativləri*



**Son illər süni intellekt texnologiyalarının sürətli inkişafı yaradıcılıq anlayışını köklü şəkildə dəyişdirib. Süni intellekt artıq yalnız texniki əməliyyatlar həyata keçirən proqram deyil, o, rəsm çəkə, musiqi bəstələyə, şeir yaza və hətta bədii əsərlər yarada bilir. Bu isə hüquq dünyasında fundamental bir sualı gündəmə gətirir: Əgər əsəri insan yox, süni intellekt yaradırsa, onun müəllifi kim sayılmalıdır? Bu sual ABŞ-da illərlə davam edən hüquqi mübahisənin predmetinə çevrilib. Nəhayət, bu il sözügedən məsələyə dair ABŞ Ali Məhkəməsinin qərarı ilə yeni hüquqi presedent formalaşa bilib. Bu qərar təkcə bir məhkəmə işinin sonu deyil, o, süni intellekt dövründə müəlliflik hüququnun sərhədləri barədə qlobal hüquqi diskussiyanın ən mühüm mərhələlərindən birinə çevrilib.**

### ABŞ-da 8 illik hüquqi savaş

Mübahisənin mərkəzində amerikalı alim və kompüter tədqiqatçısı Stiven Taler dayanır. O, özünün yaratdığı “DABUS” adlı süni intellekt sisteminin hazırladığı “A Recent Entrance to Paradise” (“Cənnətə yeni bir giriş”) adlı vizual əsərin müəlliflik hüququ ilə qorunmasını tələb edib. Belə ki, Taler 2018-ci ildə ABŞ Müəlliflik Hüquqları Ofisinə müraciət edərək həmin əsərin müəllifi kimi insanı deyil, məhz süni intellekti göstərib. Onun arqumentinə görə, əgər yaradıcılıq prosesini, faktiki olaraq, maşın həyata keçiribsə, hüquqi baxımdan müəllif də həmin sistem sayılmalıdır. Lakin ABŞ Müəlliflik Hüquqları Ofisi bu müraciəti rədd edib. Qurumun mövqeyi isə belə olub: müəllif hüququ yalnız insan tərəfindən yaradılmış əsərlərə tətbiq olunur. Taler bu qərarla razılaşmayıb və məsələni məhkəmə müstəvisinə çıxarıb.

### Məhkəmənin mövqeyi

Məhkəmə prosesi bir neçə instansiya üzrə davam edib və bütün mərhələlərdə eyni hüquqi prinsip təsdiqlənib. 2023-cü ildə ABŞ Federal Məhkəməsi qərara alıb ki, mövcud müəllif hüququ qanunvericiliyinə əsasən əsərin müəllifi insan olmalıdır. Məhkəmənin qənaətinə görə, ABŞ müəllif hüquqları sistemi tarixən insan yaradıcılığına əsaslanır və qanunvericilikdə maşının müəllif kimi tanınması nəzərdə tutulmayıb. İşə baxan hakim qərarda qeyd edib ki, istənilən texnologiya tarix boyu yaradıcı prosesdə istifadə olunub. Məsələn, fotoaparat, kompüter proqramları və ya qrafik dizayn proqramları da yaradıcı işlərdə istifadə edilir. Lakin bu vasitələr əsərin müəllifi hesab olunmur, müəllif həmin alətlərdən istifadə edən insandır. Beləliklə, məhkəmə yekun nəticə olaraq qərara alıb ki, müəllifi insan olmayan əsər ABŞ müəllif hüququ qanunvericiliyinə əsasən qoruna bilməz. İş 2025-ci ildə apellyasiya instansiyasına çıxarılsa da, ABŞ Apellyasiya Məhkəməsi aşağı instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb. 2026-cı ildə ABŞ Ali Məhkəməsi işi baxılmağa qəbul etməyib. Bununla da aşağı instansiya məhkəmələrinin qərarı qüvvədə qalıb və ABŞ hüquq sistemində faktiki olaraq belə nəticə formalaşıb: süni intellektin təkbaşına yaratdığı əsərlər müəllif hüququ ilə qorunmur. Bu qərar hüquqi baxımdan mühüm ismarış verir: Mövcud hüquq sistemində müəlliflik anlayışı hələ də insan yaradıcılığı ilə bağlıdır.

### Xarici təcrübə

Stiven Taler eyni arqumentlə Avstraliyada da patent və müəllif hüquqları ilə bağlı müraciətlər edib. 2021-ci ildə Avstraliyada bir məhkəmə ilkin olaraq süni intellektin ixtiraçı kimi tanına biləcəyini bildirsə də, daha sonra Avstraliya Federal Məhkəməsinin tam tərkibli kollegiyası bu qərarı ləğv edib. Məhkəmə bildirib ki, qanunvericiliyə əsasən ixtiraçı yalnız insan ola bilər.

Böyük Britaniyada da “DABUS” sistemi ilə bağlı oxşar mübahisə yaşanıb. Belə ki, 2023-cü ildə Böyük Britaniya Ali Məhkəməsi qərara alıb ki, süni intellekt ixtiraçı kimi tanına bilməz və patent hüququ yalnız insan ixtiraçılara şamil edilir. Bu qərar texnologiya hüququ sahəsində mühüm presedent sayılır.

Çində isə müəyyən hallarda fərqli yanaşmalar müşahidə olunub. 2019-cu ildə Şençjen məhkəməsi süni intellekt tərəfindən yazılmış maliyyə məqaləsinin müəllif hüququ ilə qoruna biləcəyini qəbul edib. Lakin bu qərar daha çox süni intellektin insan nəzarəti altında yaradılmış məhsul kimi qiymətləndirilməsi ilə bağlı olub və maşının müstəqil müəllif kimi tanınması anlamına gəlməyib.

### Avropa İttifaqının mövqeyi

Avropa İttifaqı hüquq sistemində də müəllif hüququnun əsas prinsipi insan yaradıcılığıdır. Avropa Məhkəməsinin presedentlərinə görə müəllif hüququnun predmetini “müəllifin öz intellektual yaradıcılığı” (author`s own intellectual creation) təşkil edir.

### Süni intellektin gələcəyi

Süni intellektin inkişafı müəllif hüququ sistemini yeni çağırışlarla üz-üzə qoyur. Bu texnologiyalar artıq insan yaradıcılığının sərhədlərini genişləndirir və bir çox sahədə yeni hüquqi suallar doğurur. Məsələn, süni intellektlə birlikdə yaradılan əsərlərin müəllifi kim sayılmalıdır? Süni intellekt yalnız alət kimi istifadə olunursa, hüquqlar kimə məxsus olur? Gələcəkdə süni intellektə hüquqi status verilə bilərmi?

Bir çox hüquqşünas hesab edir ki, yaxın gələcəkdə qanunvericilik bu məsələləri daha aydın və dövrün tələblərinə uyğun formada yenidən tənzimləməli olacaq. Çünki süni intellektin yaradıcılıq imkanları artdıqca, mövcud hüquqi çərçivə də getdikcə daha çox mübahisə doğuracaq.

Dediklərimizi yekunlaşdırsaq, o nəticəyə gələ bilərik ki, ABŞ Ali Məhkəməsinin 2026-cı ildə verdiyi qərar hələlik süni intellekt dövründə müəllif hüququnun sərhədlərini müəyyən edən ən mühüm hadisələrdən biri hesab olunur. Bu qərar indilik təsdiqləyir ki, mövcud hüquq sistemində müəlliflik anlayışı insan yaradıcılığı ilə bağlıdır və süni intellekt hüquqi baxımdan müəllif kimi tanınmır. Bununla belə texnologiyanın sürətli inkişafı göstərir ki, yaxın gələcəkdə hüquq sistemi yeni suallarla qarşılaşacaq.

Süni intellekt insan yaradıcılığı ilə getdikcə daha sıx inteqrasiya etdikcə, müəlliflik hüququnun klassik anlayışının da dəyişikliyə uğraması zərurətdən qaynaqlana bilər. Ona görə də bu qərar son nöqtə deyil, əksinə, süni intellekt və hüquq münasibətlərinin gələcək inkişafı üçün başlanğıc mərhələlərindən biridir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi***

*Beynəlxalq həyat*

# Şərqi Avropa ABŞ üçün “bufer”ə çevrilir

## *“Qoca qitə”də yenidən “soyuq müharibə” havası duyulur*

**Qlobal təhlükəsizlik sistemində yeni və mürəkkəb mərhələ başlayır. Ekspertlər ABŞ Prezidenti Donald Tramp administrasiyasının Almaniyadakı hərbi kontingentin bir hissəsinin çıxarılması ilə bağlı qərarının NATO daxilində illərlə qorunan strateji balansı sarsıdacağı ehtimalını irəli sürürlər.**

Çünki Vaşinqtonun addımı Avropanın təhlükəsizlik memarlığını dəyişdirə biləcək geosiyasi mesaj kimi qiymətləndirilir. Elə bu səbəbdən NATO-nun Şərqi Avropa cinahında yerləşən ölkələr – Polşa, Litva, Latviya, Estoniya və Rumıniya ABŞ qoşunlarını öz ərazilərinə cəlb etmək uğrunda diplomatik yarışa başlayıblar. Proses ilk baxışdan hərbi dislokasiya məsələsi kimi görünsə də, məsələnin arxasında daha dərin siyasi və geosiyasi hesablamalar dayanır. Şərqi Avropa ölkələri yaxşı anlayırlar ki, ABŞ hərbi bazalarının, yəni müasir hərbi kontingentin daimi mövcudluğu təhlükəsizlik zəmanətindən əlavə, həm də siyasi nüfuz, iqtisadi üstünlük və regional çəkidə artım deməkdir. Yəni ABŞ ordusu hansı ölkədə yerləşirsə, həmin dövlətin Vaşinqton üçün strateji əhəmiyyəti çoxalır.

Uzun illər Almaniya ABŞ-ın Avropadakı əsas hərbi dayağı olub. Soyuq müharibə dövründən başlayaraq bu ölkədəki ABŞ bazaları Vaşinqtonun Avropadakı strateji nəzarət mexanizminin əsas sütunlarından biri hesab edilirdi. Ramştayn bazası, ABŞ Avropa Komandanlığının infrastrukturu və logistika şəbəkəsi NATO-nun kollektiv müdafiə sistemində mühüm rol oynayırdı. Lakin son illər Vaşinqton və Berlin arasında münasibətlərdə yaranan gərginlik bu strateji modelin dəyişməsinə gətirib çıxarıb. Donald Tramp hələ əvvəlki prezidentlik dövründə Almaniyanı NATO qarşısındakı maliyyə öhdəliklərini tam yerinə yetirməməkdə ittiham etmişdi. O hesab edirdi ki, ABŞ Avropanın təhlükəsizliyi üçün həddindən artıq maliyyə yükü daşıyır, Avropa dövlətləri isə Vaşinqtonun hərbi çətiri altında rahat şəkildə iqtisadi inkişaflarını davam etdirirlər. Tramp administrasiyası Almaniyanın enerji siyasətini də kəskin tənqid atəşinə tuturdu. Xüsusilə Rusiyadan qaz asılılığını artıran layihələr Vaşinqtonda ciddi narazılıq doğurur, ABŞ hesab edirdi ki, Berlin bir tərəfdən NATO çərçivəsində Rusiyanı təhlükə adlandırır, digər tərəfdən isə Moskva ilə iqtisadi əlaqələri genişləndirir.

Ona görə də NATO-nun Şərqi Avropa cinahındakı ölkələr Vaşinqton üçün alternativ platforma rolunu oynamağa başlayıblar. Polşa və Baltikyanı dövlətlər uzun illərdir Rusiyanı əsas təhlükə sayır və ABŞ-ın hərbi mövcudluğunu milli təhlükəsizliklərinin təminatı hesab edirlər. Xüsusilə Polşa son illərdə ABŞ-la hərbi əməkdaşlığı rekord səviyyəyə çatdırıb. Varşava milyardlarla dollar dəyərində Amerika silahları alır, müdafiə büdcəsini artırır və ABŞ qoşunlarının yerləşdirilməsi üçün yeni hərbi infrastruktur qurur. Polşa rəhbərliyi hesab edir ki, ABŞ ordusunun ölkədə daimi mövcudluğu Rusiyaya qarşı ən güclü çəkindirici amildir. Litva, Latviya və Estoniya isə coğrafi baxımdan daha həssas mövqedə yerləşirlər. Onlar Rusiyanın mümkün təzyiqlərindən ciddi şəkildə narahatdırlar və bu səbəbdən NATO daxilində ən sərt anti-Rusiya mövqeyi nümayiş etdirən dövlətlərə çevriliblər.

Maraqlıdır ki, bu ölkələr ABŞ qoşunlarını cəlb etmək üçün yalnız Rusiya təhlükəsi arqumentindən istifadə etmirlər. Onlar Vaşinqtonun Yaxın Şərq siyasətinə dəstək verməklə ABŞ administrasiyasının diqqətini qazanmağa çalışırlar. Bu vəziyyət NATO daxilində yeni siyasi dinamikanın formalaşdığını göstərir. Əgər əvvəllər Avropa dövlətləri daha çox regional təhlükəsizlik çərçivəsində əməkdaşlıq edirdilərsə, indi ABŞ-la münasibətlərdə “strateji sadiqlik” əsas amilə çevrilir. Yəni hansı ölkə Vaşinqtonun qlobal siyasətinə daha çox dəstək verirsə, həmin dövlət ABŞ-ın hərbi və siyasi diqqətini qazanacaq. Bu isə NATO daxilində parçalanma riskini artırır. Çünki Avropanın bütün dövlətləri ABŞ-ın İran siyasətini dəstəkləmir. Fransa və Almaniya kimi ölkələr Vaşinqtonun sərt xəttini riskli hesab edir və diplomatik həll variantlarına üstünlük verirlər. Nəticədə, NATO daxilində “ABŞ-a maksimum yaxınlaşanlar” və “məsafə saxlamağa çalışanlar” arasında siyasi bölünmə yaranır.



Son vaxtlar cərəyan edən hadisələr beynəlxalq münasibətlər sistemində yeni qarşıdurma xəttinin yarandığını göstərir. ABŞ, NATO və Rusiya arasında münasibətlər getdikcə daha sərt xarakter alır. Şərqi Avropada hərbi qüvvələrin cəmləşməsi, raket sistemlərinin yerləşdirilməsi və təhlükəsizlik ritorikasının sərtləşməsi yeni “soyuq müharibə” atmosferini xatırladır. Fərq ondadır ki, əvvəlki dövrdən fərqli olaraq indi qarşıdurma enerji, texnologiya, iqtisadiyyat və informasiya müstəvisində aparılır. NATO daxilində yaranan fikir ayrılıqları isə bu mürəkkəb mənzərəni daha da qəlizləşdirir.

Baş verən proseslər Avropa İttifaqında uzun illərdir müzakirə olunan “strateji muxtariyyət” ideyasını da yenidən gündəmə gətirib. Fransa Prezidenti Emmanuel Makron bəyan edib ki, Avropa təhlükəsizlik məsələlərində ABŞ-dan tam asılı olmamalıdır. Onun fikrincə, Avropa öz müdafiə sistemini qurmalı və müstəqil hərbi potensial formalaşdırmalıdır. Lakin Şərqi Avropa ölkələri bu yanaşmaya ehtiyatla yanaşırlar. Çünki onlar hesab edirlər ki, Avropanın təhlükəsizlik sistemində ABŞ-ı əvəz edə biləcək real güc yoxdur. Həmin ölkələr üçün Vaşinqtonun hərbi çətiri həyati əhəmiyyət daşıyır. Məhz buna görə Polşa və Baltikyanı ölkələr Avropa ordusu ideyasına skeptik yanaşır, NATO-nun əsas dayağının ABŞ olaraq qalmasını istəyirlər.

Sonda deyə bilərik ki, artıq Avropa və NATO daxilində iki fərqli təhlükəsizlik baxışı formalaşır. Bir tərəf ABŞ-dan müstəqil təhlükəsizlik sistemi qurmağa, digər tərəf isə Amerikanın Avropadakı hərbi mövcudluğunu artırmağa çalışır.

***N.BEYDİYEVA***
***XQ***

## “Puta-Əyrici” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 10:00-da “Puta-Əyrici” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı.

**2.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətlərini təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiqləyən sənədlə) iştirakı vacibdir.

**Əlaqə telefonları:** *+99412 545-85-25, +99455 812-62-28.*

**Ünvan:** *Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, inzibati bina.*

***“Puta-Əyrici” ASC-nin idarə heyəti***

## “Sabunçu Əyrici” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11:00-da “Sabunçu Əyrici” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** “Sabunçu Əyrici” ASC-nin idarəetmə orqanlarının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

İclas onlayn qaydada keçiriləcəkdir.

Hörmətli səhmdarlar!

2026-cı il iyunun 30-da ümumi yığıncaqda iştirak etməyinizi təsdiqləmək üçün saat 10:00-dək şəxsiyyətinizi təsdiqləyən sənədin surətini 050-453-94-61 nömrəli mobil telefona “WhatsApp” nömrəsi vasitəsilə göndərməyiniz tələb olunur. Saat 10:30-dək (yəni iclasın başlanmasına 30 dəqiqə qalmış) “ZOOM” proqramı ilə keçirilən ümumi yığıncağa qoşulmaq və iştirak etmək üçün “WhatsApp” vasitəsilə “Sabunçu Əyrici” ASC onlayn qrupa qoşularaq qrupun təşkilatçısı kimi ümumi yığıncağın adından paylaşdığımız linkə daxil olmalısınız.

## “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2026-cı il saat 11:00-da Bakı şəhəri, Nizami rayonu, Kamil Balakişiyev küçəsi 2 nömrəli ünvanda “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** ASC-nin 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının hesabatı.

**2.** ASC-nin gəlirlə işləməməsinin səbəblərinin araşdırılması və yeni maliyyə mənbələrinin cəlb edilməsi.

**3.** Digər məsələlər.

## “Abşeron Şərab” ASC səhmdarlarının nəzərinə!

20 iyun 2026-cı il saat 11:00-da “Abşeron Şərab” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin maliyyə fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** 2025-ci maliyyə ilinin yekunlarına görə dividendlərin elan edilməsi və ödənilməsi.

**3.** Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

**Telefon:** +994 51 255 71 42.

**Ünvan:** *Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Dostluq küçəsi 1.*

## “İsmayıllı Quşçuluq” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11:00-da “İsmayıllı Quşçuluq” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci il üçün maliyyə yekunlarının müzakirəsi, illik balansının təsdiqi və dividendlərin verilməsi.

**2.** İdarə heyəti üzvlərinin və sədrinin seçilməsi.

**Əlaqə telefonu:** *+99420-282-11-00.*

* Yığıncaq onlayn formatda keçiriləcəkdir.

(Zoom) Linklə bağlı məlumatı almaq üçün əlaqə telefonu: 051-484-93-60.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 84 (31053) 14 may 2026-cı il, cümə axşamı

## İDMAN

### Su İdmanı Federasiyasının nümayəndələri Bakıda



**Dünya Su İdmanı Federasiyasının (World Aquatics) nümayəndələri Namhi Ço, Ben Haris və Vadim Axmadiyev Azərbaycana səfər ediblər. Azərbaycan Üzgüçülük Federasiyasından verilən məlumata görə, səfərdə məqsəd oktyabrda keçiriləcək "Silk Road Tour"un Bakı mərhələsinin hazırlıq prosesi ilə tanış olmaq və bu istiqamətdə müzakirələr aparmaqdır.**

Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Üzgüçülük Federasiyasının (ASF) ofisini ziyarət edib, baş katib Oqtay Atayev, müşavir Rəşad Əbdürəhmanov və digər əməkdaşlarla görüş keçirib. Həmçinin WA rəsmiləri yarışın keçiriləcəyi Bakı Su İdmanı Sarayında olub, arenanın direktoru Əjdər Abbasovla, işçilərlə görüşüb və təşkilati işlərin gedişatı ilə yaxından tanış olublar.

Xatırladaq ki, 2026-cı ilin 1-3 oktyabr tarixlərində üzgüçülük üzrə "Silk Road Tour" Dünya Kubokunun ilk mərhələsinə Bakı ev sahibliyi edəcək. Növbəti mərhələlər isə Özbəkistanın Daşkənd (8-10 oktyabr) və Qazaxıstanın Astana (15-17 oktyabr) şəhərlərində baş tutacaq.

### Azərbaycan Kubokunu "Sabah" qazandı



**Dünən futbol üzrə Azərbaycan Kubokunun final görüşü keçirilib. Misli Premyer Liqasında çempionluğu rəsmiləşdirən "Sabah" "Zirə" ilə qarşılaşıb.**

"Palms Sports Arena"da FIFA referisi Elçin Məsiyevin idarə etdiyi oyun Masazır təmsilçilərinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. "Sabah" ilk dəfə olaraq bir mövsümdə həm ölkə çempionu titulunu qazanıb, həm də Azərbaycan Kubokunun sahibi olub.

### Bakı–Xankəndi velosiped marafonu: 4-cü gün




**"Bakı–Xankəndi" Azərbaycan velosiped yarışının dördüncü mərhələsinin medalçıları mükafatlandırılıb. Mərasimdə Azərbaycan Velosiped İdmanı Federasiyasının icraçı vitse-prezidenti Fikrət Hüseynov, vitse-prezident və turnirin Təşkilat Komitəsinin sədri Sahib Ələkbərov iştirak ediblər.**

İtaliyanın "Bardiani CSF 7 Saber" komandasının üzvü Marko Manentiyə qızıl, "Astana"dan Henok Mulubrhana gümüş, "Roojai İnsurance Winspace" komandasından Pita Kristian Davidə bürünc medal təqdim olunub.

İlk mərhələdə finişə Çinin "Li-Ninq Star" komandasının belaruslu üzvü Aleksey Şnirko birinci çatıb. Növbəti gün "Astana"nın qazaxıstanlı velosipedçisi Yevgeni Fyodorov qalib olub. Üçüncü mərhələdə "Astana"nın rusiyalı üzvü Qleb Suritsa bütün rəqiblərini qabaqlayıb.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı yarışında dünyanın 20 ölkəsini təmsil edən 24 komanda mübarizə aparır. Beş mərhələdən ibarət olan yarışın mükafat fondu 50 000 avrodan çoxdur. Yarışa bu gün yekun vurulacaq.

Turnirin son mərhələsi isə Xankəndi şəhərində baş tutacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ ***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin kiçik həcmli gəmilərə nəzarət və sularda xilasetmə dövlət xidməti tərəfindən Əliyev Anar Fuad oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

*Epidemioloji durum*

# İndi də hantavirus?..

**Hər il Asiyada – Çin və Koreyada qripəbənzər simptomları ilə seçilən hantavirusla (HCPS) xeyli yoluxma faktı qeydə alınır. Son vaxtlarda isə Avropada – Fransa, Almaniya, İsveç, İsveçrə və Niderland (gündəmdə olan gəmi səyahəti) kimi ölkələrdə hantavirusun yayılması barədə həyəcanlı xəbərlər yayılıb.**

Hantavirus nədir və onun təhlükəlik dərəcəsi hansı səviyyədədir? İnfeksionist mütəxəssislər bildirirlər ki, qripəbənzər HCPS nadir viruslardan hesab olunur və irəlilədikcə ölümcül ağciyər və ya böyrək problemlərinə səbəb ola bilir. Bu virus dünyanın müxtəlif bölgələrində, xüsusən də Asiya, Avropa və Amerika qitələrində qeydə alınır. ABŞ, Kanada, İsraildə də infeksiyaya yoluxma hallarına rast gəlinir. Ümumilikdə, 12-dən çox ölkədə (o cümlədən Türkiyə) bu virusla bağlı araşdırmalar aparılıb və yoluxma halları qeydə alınıb.

Xarici ölkə mütəxəssislərinin verdikləri məlumata görə, əsasən siçanlar və ya siçovullar kimi yoluxmuş gəmiricilər vasitəsilə ötürülən hantavirusun tipik simptomları var. Ölümcül ola biləcəyi üçün müalicə ciddi aparılmalı, heç bir əlamət gözardı edilməməlidir. Hantavirusa yoluxmuş insanların müalicəsi dəstəkləyici tibbi yardım və simptomların monitorinqini əhatə edir. Hantavirusdan qorunmağın ən əsas yolu insanların yaşayış sahələrinə gəmiricilərin girməsinin qarşısını almaq və ya belə ərazilərdən uzaqlaşmaqdır.

Hantavirus siçan və siçovul kimi yoluxmuş gəmiricilərin nəcisində, sidiyində və ya tüpürcəyində olan virus hissəciklərinin inhalyasiyası yolu ilə nadir hallarda insanlara ötürülə bilən "Hantaviridae" ailəsinə aid zoonotik bir virusdur. Bu, ağciyər və böyrək problemlərinə səbəb ola bilən və yüksək ölüm nisbətinə malik virusdur.

### Virusun əlamətləri və yayılması

Hantavirus simptomları onun yaratdığı xəstəliyə görə dəyişə bilər. Lakin insan virusa məruz qaldıqdan 1–6 həftə sonra aşağıdakı simptomlar müşahidə edilir: yüksək qızdırma, başağrısı, əzələ ağrıları, mədə ağrısı, ürəkbulanma və qusma.

Hantavirus yoluxmuş gəmiricilərin nəcisi, tüpürcəyi və ya sidiyi ilə təmas və ya inhalyasiya yolu ilə ötürülür. Nadir hallarda, gəmiricilərin dişləmələri və ya cızıqları vasitəsilə də ötürülə bilər. Əkinçilik və meşə təsərrüfatı, gəmiricilərin olduğu mühitlərdə yatmaq və uzun müddət havalandırılmayan və ya qapalı qalan ərazilərdə təmizlik aparmaq infeksiyaya yoluxma riskini artıra bilər.

Hantavirusun insandan-insana ötürülməsi nadir halda mümkündür və müəyyən ştammlarla baş verə bilər. Erkən mərhələlərdə, yoluxmanın gizli dövründə insandan-insana ötürülmə uzun müddət təmasda olan ailə üzvləri və həyat yoldaşları arasında baş verə bilər.

### Müalicə və qorunma üsulları

Hazırda hantavirus infeksiyasına qarşı lisenziyalı, spesifik antiviral dərman və ya peyvənd yoxdur. Müalicə tamamilə dəstəkləyici preparatlarla aparılır və aşağıdakı elementləri əhatə edir: klinik monitorinq, fəsadların idarə olunması, erkən müdaxilə.

Hantavirusdan qorunmağın əsas yolu insan–gəmirici təmasını minimuma endirməkdir. İnfeksiyadan qorunmağın digər yolları aşağıdakılardır: yaşayış və iş yerləri təmiz olmalı; gəmiricilərin yaşayış sahələrinə girməsinin qarşısı alınmalı; ərzaqlar gəmiricilərin əli çatmayan yerdə saxlanmalı; gəmiricilərin nəcisi tozsoranla deyil,



tamamilə yaş əski ilə təmizlənməli; təmizləmədən əvvəl bulaşmış sahələr nəmləndirilməli; əllərin təmizliyinə diqqət yetirilməlidir.

Bundan əlavə, virusun yayılmasının qarşısını almaq üçün yoluxmuş və ya yoluxma şübhəsi olan şəxslərin təcrid olunması, başqaları ilə təmaslarının azaldılması və onlara yaxından nəzarət edilməsi vacibdir.

### Bəs ölüm faizi?

Hantavirus infeksiyaları üçün ümumi ölüm nisbəti 1 faizdən 15 faizə qədər dəyişir. Lakin xüsusilə Amerikada geniş yayılmış və ağciyərləri hədəf alan HCPS ştammının ölüm nisbəti 30 faizdən 50 faizə qədər çox yüksək ola bilər.

"Hazırda Azərbaycanda hantavirus infeksiyasına şübhəli və ya təsdiqlənmiş yoluxma halı qeydə alınıbmı?" – sualına Səhiyyə Nazirliyindən bildirilib ki, bu virus ölkəmiz üçün endemik hesab olunmur və mövcud epidemioloji vəziyyət virusun yayılma riskinin aşağı olduğunu göstərir.

Gəmiricilərin məskunlaşmasının qarşısını almaq və mütəmadi deratizasiya tədbirləri görmək, açıq sahələrdə və köhnə, uzun müddət istifadə olunmayan məkanlarda təmizlik işləri apararkən qoruyucu vasitələrdən istifadə etmək, gəmiricilərlə birbaşa təmasdan çəkinmək tövsiyə olunur.

Nazirlikdən o da bildirilib ki, hazırkı vəziyyət əhali üçün narahatlıq doğurmur və epidemioloji durum müvafiq qurumlar tərəfindən daim nəzarətdə saxlanılır.

*Z.BƏŞİRQIZI*
*XQ*

## "11 Saylı İxtisaslaşdırılmış Dəmir Yolu Müəssisəsi" MMC

*"Texnika və nəqliyyat vasitələri üçün texniki xidmət və ehtiyat hissələrinin satın alınması" məqsədilə "AZCON"un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (malların, işlərin və xidmətlərin) vahid satın alınması qaydalarına əsasən*

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyən təchizatçılar j_huseynli@ady.az elektron poçt ünvanına iştirak niyyətilə müraciət edərək tenderlə bağlı tam məlumatları, uyğunluq göstəricilərinə aid sənədləri, həmçinin mallar və xidmətlər barədə məlumatları əldə edə bilərlər.

Bu əsasda müraciət məktubunu təqdim etmiş və iştirak haqqının ödənilməsi barədə bank sənədini (ödəniş qəbzini) təqdim edən təchizatçılar tərəfindən uyğunluq sənədləri, tender təklifi və tender təklifinin təminatı imzalanıb möhürlənmiş zərfdə 8 iyun 2026-cı il saat 12.00-dək təqdim edilməlidir.

Tender təklifləri 8 iyun 2026-cı il saat 14.00-da Bakı şəhəri, Binəqədi rayonu, Əcəmi Naxçıvani küçəsi 57C nömrəli ünvanda yerləşən "11 Saylı İxtisaslaşdırılmış Dəmir Yolu Müəssisəsi" MMC-nin inzibati binasında açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə nömrəsi:** *+994 (12) 561-39-42.*
**E-mail:** *j_huseynli@ady.az*

**BİLDİRİŞ**

"Bakışəhərtikintimexanikləşdirmə" ASC-nin AZ 1001003750 Dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış, hər birinin nominal dəyəri 2 manat olan, 20694 ədəd adi, adlı səhmləri dövriyyədən çıxarılır.

*Ləğvetmə Komissiyası*

## "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 10.00-da "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**

**1.** 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**Telefon:** 050-216-30-52.

**Ünvan:** Bakı şəhəri, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 60.

*İdarə heyəti*

## HAVA

# Aranda yağmursuz, dağlarda yağış və dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 16-19, gündüz 23-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 751 millimetr civə sütunundan 755 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər və axşam bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-18, gündüz 26-31, dağlarda gecə 7-12, gündüz 15-20, bəzi yerlərdə 24-26 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı humanitar və sosial elmlər kafedrasının müəllimi Samir Həsənova atası

**TAPDIQ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın idarə rəisinin müavini Bəhruzə Məmmədliyə atası

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya İnstitutunun direktoru, akademik İradə Hüseynova və institutun kollektivi xloroplastların molekulyar funksional təşkili və məhsuldarlıq prosesləri laboratoriyasının aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent

**FAZİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3215
SİFARİŞ 631
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00